Xalqın qəzeti!

# Xalq qəzeti

№ 33 (30727) 14 fevral 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Bu gün dünyada Azərbaycan–Türkiyə dostluğuna bənzər nümunə yoxdur

### Prezident İlham Əliyev Türkiyənin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Birol Akgünün etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Səfir Birol Akgün Türkiyə Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı qeyd etdi ki, bu gün dünya miqyasında ən yaxın müttəfiqlər arasında belə Azərbaycan-Türkiyə əlaqələrinin bənzəri və nümunəsi yoxdur. İkitərəfli əsasda strateji müttəfiqlik səviyyəsində olan əlaqələrimizin üçtərəfli platformalarda da inkişaf etdiyini deyən Prezident İlham Əliyev bu xüsusda, Azərbaycan-Özbəkistan-Türkiyə və Azərbaycan-Pakistan-Türkiyə üçtərəfli əməkdaşlıq mexanizmlərinin əhəmiyyətini qeyd etdi.

Türk dünyasının bizim ailəmiz olduğunu vurğulayan dövlətimizin başçısı bunu Milli Məclisdə Azərbaycan Prezidenti kimi andiçmə mərasimində bir daha dediyini xatırlatdı.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlığa toxunuldu, bu xüsusda ölkəmizin İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) üzvlüyü və üzvlüyümüzün qardaş Türkiyə tərəfindən dəstəklənməsi bir daha vurğulandı.

Qeyd edildi ki, Azərbaycan və Türkiyə daim çiyin-çiyinə bir-birinin yanındadır. Suriya məsələsində də Azərbaycan Türkiyənin yanında olduğunu ilk günlərdən bəyan edib. Bu xüsusda vurğulandı ki, Suriyada sabitliyin, təhlükəsizliyin təmin olunmasına və humanitar problemlərin həllinə Azərbaycan da Türkiyə ilə əlaqələndirilmiş şəkildə öz töhfəsini verməyə hazırdır. Bu gün Azərbaycan-Türkiyə qardaşlığının, dostluğunun Cənubi Qafqaz regionunda, eyni zamanda, onun hüdudlarından kənarda sabitliyin, təhlükəsizliyin, sülhün və əmin-amanlığın zəmanəti olduğu bir daha qeyd edildi.

Səfir Azərbaycan-Türkiyə münasibətlərinin Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" və Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" prinsipləri əsasında inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin daha da genişləndirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini dedi.

Azərbaycanın möhtəşəm Qarabağ Qələbəsini xüsusilə qeyd edən Birol Akgün həmin dövrdə də bütün Türkiyə xalqının nəbzinin Azərbaycan xalqı ilə birlikdə döyündüyünü xatırlatdı, bu Zəfər münasibətilə dövlətimizin başçısına və xalqımıza bir daha təbriklərini çatdırdı.

## Zəngəzur Qarabağdır, Qarabağ isə Azərbaycanın ruhudur

*Yaxud tarixi haqqımız və imperializmin erməni təəssübü*

**Prezident İlham Əliyev bu il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bildirmişdi: "Həm Qarabağ, həm Şərqi Zəngəzur və eyni zamanda, ona o qədər də uzaq olmayan Naxçıvan Muxtar Respublikası iqtisadi, sosial, "yaşıl" enerji və təhlükəsizlik nöqteyi-nəzərdən vahid bir böyük məkana çevrilməlidir, halbuki bu, bizim bölgüyə görə üç regiondur. Amma, eyni zamanda, bir-birinə tarixən bağlı olan bu bölgələr hazırda vahid konsepsiya əsasında inkişaf edir".**



Dövlətimizin başçısı yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olumuş müşavirədə sovet hakimiyyətinin Qərbi Zəngəzuru 1920-ci ilin noyabrında Azərbaycandan aldığını da demiş, bunun xalqımıza qarşı cinayət olduğunu bildirmişdi. Bunun birinci və sonuncu hal olmadığını, Azərbaycan ərazisində "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin yaradıldığını diqqətə çatdıran Prezident İlham Əliyev, həmçinin əvvəlki dövrdə çar Rusiyası tərəfindən ermənilərin Azərbaycan ərazilərinə köçürülmələrini, daha əvvəl öz rəhbərliyini davam etdirəcəyinə zəmanət verilmiş Qarabağ xanının öldürülməsini də cinayət prizmasından dəyərləndirmişdi. Ölkəmizin liderinin vurğuladığı başlıca məqam isə budur: "Biz Zəngəzuru unutmamışıq və unutmayacağıq".

Bəli, biz Zəngəzuru da, başımıza gətirilmiş çeşidli oyunları da unutmamışıq. Prezident İlham Əliyevin bildirdiyi kimi, XX əsrin faciələri göz önündədir. Nəzərə alaq ki, dövlətimizin başçısı işğal illərində də Qərbi Azərbaycan və Zəngəzur mövzusunu daim gündəmdə saxlamışdı. Ölkəmizin liderinin 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə səsləndirdiyi fikirlər isə dərin yaddaş xəttimizin fundamentallığının vurğulanmasıdır: "1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun da məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə idi. Digər tərəfdən, Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq üçün atılmış bir addım idi".

**(ardı 4-cü səhifədə)**

## Bilik tərəqqi qaynağı, kitab bilik xəzinəsidir



**Səhifə ⇨ 11**

## Azərbaycanın yeni vergi strategiyası



**Səhifə ⇨ 12**

## Dünyanın sülhə ehtiyacı var



**Səhifə ⇨ 5**

## Liderin andı – güclü və qüdrətli Azərbaycan obrazı

*Xalq–iqtidar vəhdətinin ötən bir ilinə baxış*



**"Liderlik, əlbəttə ki, böyük bir məsuliyyətdir və ən önəmlisi ondan ibarətdir ki, lider həmişə öz xalqına, öz əhalisinə münasibətdə ədalətli olmalıdır. Heç vaxt xalqına yalan danışmamalısan və xalq bunu yüksək qiymətləndirəcək. Bəzən müəyyən siyasi səbəblər üzündən hakimiyyətə can atan liderlər çoxlu vədlər verir və sonra onları yerinə yetirmir və bu da məyusluğa, inamsızlığa gətirib çıxarır. Bu, dünyanın müxtəlif yerlərində siyasi böhrana gətirib çıxarır". Prezident İlham Əliyevin Çinin CGTN telekanalına müsahibəsində dilə gətirdiyi bu fikirlər yaşadığımız 14 fevral tarixi ilə səsləşir.**

Bir il əvvəlin bu günü cənab İlham Əliyev Milli Məclisdə keçirilmiş andiçmə mərasimindəki çıxışında Azərbaycanın mənzərəsini son dərəcə dolğun şəkildə canlandırmış, perspektiv vəzifələrdən ətraflı söz açmış, dövlət başçısı kimi növbəti müddətdəki fəaliyyətinin prioritetlərini, ümumən ölkəmizin gələcəyə baxışını müəyyənləşdirən istiqamətləri sadalamışdı.

Prezidentin həmin çıxışının hazırkı Azərbaycan reallıqları baxımından nə dərəcədə səsləşdiyinə nəzər salacağıq. Ancaq əvvəlcə onun CGTN telekanalına müsahibəsində səsləndirdiyi daha bir fikri də yada salaq: "Lakin bizə gəldikdə, iyirmi ildən artıq müddət ərzində mən həmişə Azərbaycan xalqına həqiqəti söyləmişəm. Bu həqiqətin müsbət və ya mənfi olmasından asılı olmayaraq. Həmişə xalqıma biz ədaləti bərpa edəcəyik söyləmişəm və xalqım da mənə inanıb. 17 il hakimiyyətdə olandan sonra biz, nəhayət, vəd etdiklərimizi yerinə yetirdik və suverenliyimizi, ərazi bütövlüyünü və ləyaqətimizi bərpa etdik. Beləliklə, ictimaiyyətin dəstəyini əldə etmək istəyən liderlərə məsləhətim o olardı ki, həmişə həqiqəti söyləyin və beynəlxalq təzyiqdən, beynəlxalq mediadan asılı olmayaraq, haqqınızda nə dediklərindən, sizi necə adlandırdıqlarından, sizi necə təhqir etmələrindən asılı olmayaraq, ölkəniz üçün doğru olanı edin. Beləliklə, siz özünüz və ölkəniz uğur qazanmış olacaqsınız".

Tam qətiyyətlə deyə bilərik ki, bugünkü Azərbaycan İlham Əliyev prezidentliyinin uğur salnaməsidir. Elə bir salnamə ki, az qala, hər yaşadığımız gün özünə yeni tarixi epizodlar əlavə edir və edəcək. Ötən bir ilin uğurları da bunu söyləməyə əsas verir. Uğurlarımızın isə COP29 kimi nəhənglik etalonu, əsl təntənəsi var.

***(ardı 5-ci səhifədə)***

## Azərbaycan amili, yoxsa ABŞ – Ermənistan xartiyası?



**Bu il yanvarın 14-də, yəni Prezident Donald Trampın vəzifə səlahiyyətlərinin icrasına başlamasından altı gün əvvəl imzalanmış ABŞ – Ermənistan strateji tərəfdaşlıq xartiyası hazırda bic doğulmuş uşağı xatırladır. Baş nazir Nikol Paşinyan Birləşmiş Ştatlara yollandı ki, bu "vələduzna"ya "ata" tapsın, amma xeyri olmadı. İndi isə məlum olur ki, Co Bayden administrasiyasının fəaliyyətinin təftişinə qol çırmamış Tramp və komandası sözügedən xartiyanın da ABŞ üçün geosiyasi faydasını nəzərdən keçirəcək.**

**(ardı 10-cu səhifədə)**

# Prezident İlham Əliyev Belarus səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Belarus Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dmitri Pineviçin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev səfirlə söhbət etdi.**

Xalqlarımız və ölkələrimiz arasında etimada əsaslanan dostluq əlaqələrinin mövcud olduğunu vurğulayan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin inkişafının məmnunluq doğurduğunu dedi, indi münasibətlərimizin keyfiyyətcə daha yeni səviyyəyə qalxdığını bildirdi. Prezident İlham Əliyev hazırda iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu qeyd edərək bu istiqamətdə çoxlu layihələrin müzakirə olunduğunu dedi.

Dövlətimizin başçısı Aleksandr Lukaşenko ilə mütəmadi əsasda olan təmaslarının önəminə toxundu, Belarus Prezidentinin ölkəmizə dövlət səfərini və COP29-da iştirakını xatırladı, bunların əməkdaşlığımızın genişlənməsinə xidmət etdiyini dedi. Həmin səfərlər zamanı müxtəlif istiqamətlərdə əməkdaşlıqla bağlı çox səmərəli danışıqların aparıldığını vurğulayan Prezident İlham Əliyev müzakirə olunan məsələlərin həyata keçirilməsi istiqamətində səyləri qeyd etdi.

Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Azərbaycana səfir təyin olunmasından şərəf hissi duyduğunu deyən Dmitri Pineviç ilk gündən ölkəmizdə gördüyü yüksək qonaqpərvərliyi və ona göstərilən diqqəti məmnunluqla vurğuladı.

Səfir Azərbaycan və Belarus prezidentləri arasında olan münasibətlərin ikitərəfli əlaqələrimizin inkişafında xüsusi rolunu qeyd etdi.

Münasibətlərimizin inkişafı istiqamətindəki işlərlə bağlı böyük məsuliyyət hissi daşıdığını deyən səfir Azərbaycan və Belarus arasında əlaqələrin daha da genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Söhbət zamanı ölkələrimiz arasında innovativ texnologiyalar, tibb, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi, həmçinin humanitar və mədəni əlaqələrin inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən bərpa-quruculuq işlərində Belarus şirkətlərinin iştirakı məsələsinə toxunuldu.

# Paraqvay səfiri etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Paraqvay Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Seferino Valdez Peraltanın etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev səfirlə söhbət etdi.**

Səfir Seferino Valdez Peralta Paraqvay Respublikasının Prezidenti Santyaqo Penyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Paraqvayın dövlət başçısına çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycan ilə Paraqvay arasında parlamentlərarası, mədəni, humanitar əlaqələrin inkişaf etdirilməsinin vacibliyi bir daha qeyd olundu, Paraqvay parlamentində Azərbaycanla dostluq qrupunun tezliklə ölkəmizə səfər edəcəyi bildirildi, kənd təsərrüfatı, o cümlədən heyvandarlıq sahəsində əməkdaşlığın perspektivlərinə dair müzakirələr aparıldı. Bildirildi ki, Paraqvay region ölkələrinə öz ixracının artırılması üçün Azərbaycanı logistik mərkəz kimi görür.

Söhbət zamanı SOCAR ilə Paraqvayın neft şirkəti arasında təmasların olduğu qeyd edildi, ölkələrimizin biznes dairələrinin əlaqələrinin yaradılması məsələsi vurğulandı.

*AZƏRTAC*

# Maqsud İbrahimbəyovun 90 illiyinin qeyd edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2025-ci ilin may ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, Dövlət mükafatı laureatı, tanınmış ictimai xadim Maqsud Məmmədibrahim oğlu İbrahimbəyovun anadan olmasının 90 ili tamam olur.

Maqsud İbrahimbəyov parlaq istedada malik nasir kimi çoxşaxəli fəaliyyəti ilə Azərbaycan bədii fikrinin zənginləşməsində təqdirəlayiq rol oynamış söz ustalarındandır. Ötən əsrin 60-cı illərində yeni ədəbi prosesin formalaşmasında yaxından iştirak edən sənətkar ərsəyə gətirdiyi dəyərli nəsr nümunələrində qəhrəmanlarının xarakterini dərindən açaraq dolğun və rəngarəng obrazlar yaratmışdır. Onun, eyni zamanda dramaturq, kinossenarist və rejissor kimi Azərbaycan kinematoqrafiyasının inkişafında mühüm xidmətləri vardır. Milli koloritin qabarıq təsviri, adət-ənənələrə bağlılıq, xüsusən Bakı mühitinin özünəməxsus mənzərəsinin təsviri Maqsud İbrahimbəyov yaradıcılığını səciyyələndirən başlıca cəhətlərdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının inkişafına töhfələr vermiş Xalq yazıçısı Maqsud İbrahimbəyovun 90 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xalq yazıçısı Maqsud İbrahimbəyovun 90 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 fevral 2025-ci il**

# R.N.Mahmudun “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rüfət Nahid oğlu Mahmud “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 fevral 2025-ci il**

# Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini və qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**“Vətən uğrunda” medalı ilə**

Babayev Azər Ələddin oğlu – polkovnik
Qasımov Elnur Əhməd oğlu – polkovnik

**“Hərbi xidmətlərə görə” medalı ilə**

Qayqiyev Şamil Mahama oğlu – mayor.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 fevral 2025-ci il**

# Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə” 2006-cı il 16 oktyabr tarixli 1737 nömrəli, “Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” 2008-ci il 7 fevral tarixli 2667 nömrəli, “Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” 2008-ci il 22 may tarixli 2833 nömrəli, “Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə” 2008-ci il 11 iyun tarixli 2861 nömrəli və “Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” 2011-ci il 13 may tarixli 1502 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 16 oktyabr tarixli 1737 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 10, maddə 878 (Cild I) 1-ci hissəsində “Əli Əhmədov” sözləri “Samir Şərifov” sözləri ilə əvəz edilsin.

**2.** “Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 7 fevral tarixli 2667 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 75 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. “Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri” sözləri “Samir Şərifov – Azərbaycan Respublikası Baş nazirinin müavini” sözləri ilə əvəz edilsin;

2.2. “Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini” abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini”;

2.3. “Azərbaycan Respublikasının Tacikistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri” abzasının sonundan nöqtə işarəsi çıxarılsın və aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri.”.

3. “Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 may tarixli 2833 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 422 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. “Əli Əhmədov” sözləri “Samir Şərifov” sözləri ilə əvəz edilsin;

3.2. “Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini” abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini”.

4. “Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 iyun tarixli 2861 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 530 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. “Azərbaycan Respublikasının maliyyə naziri” sözləri “Samir Şərifov – Azərbaycan Respublikası Baş nazirinin müavini” sözləri ilə əvəz edilsin;

4.2. “Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığında fövqəladə və səlahiyyətli səfiri” abzasının sonundan nöqtə işarəsi çıxarılsın və aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri.”.

5. “Azərbaycan Respublikası Hökuməti və Çexiya Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 13 may tarixli 1502 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 407 (Cild I) 1-ci hissəsində “Sahib Məmmədov” sözləri “Anar Axundov” sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1–5-ci hissələri ilə edilən dəyişikliklər barədə qarşı tərəflərə müvafiq bildirişlər göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 fevral 2025-ci il**

# “Vergi Xidməti–25: Davamlı inkişaf və effektiv transformasiya” mövzusunda keçirilən Forumun iştirakçılarına

**Hörmətli Forum iştirakçıları!**

“Vergi Xidməti–25: Davamlı inkişaf və effektiv transformasiya” mövzusunda keçirilən Forumun iştirakçılarını salamlayır və Dövlət Vergi Xidməti işçilərini peşə bayramı münasibətilə təbrik edirəm.

2025-ci il Azərbaycan Respublikasında “Konstitusiya və Suverenlik İli” elan edilib. Bu il Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümüdür. Respublikamızın ali Qanununun müddəaları dövlətimizin müstəqilliyinin əsaslarını və xalqımızın iradəsini əks etdirərək ölkəmizin demokratik və hüquqi dövlət quruculuğu istiqamətində inamla irəliləməsi üçün zəmindir.

Konstitusiyamızda vətəndaşların əsas vəzifələrinə aid edilmiş mühüm müddəalardan biri onun 73-cü maddəsində əks olunub: “qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər bir kəsin borcudur”. Konstitusiyamızda vergilərə dair müəyyən edilmiş bu müddəa dövlətimizin maliyyə sabitliyinin və davamlı inkişafının təminatı olub, ölkəmizin hüquqi və iqtisadi inkişafı yolunda möhkəm təməl yaradır.

Azərbaycan yüksək inkişaf potensialına malik dinamik bir iqtisadiyyata sahibdir. Biz böyük infrastruktur layihələrini icra edir, müxtəlif sahələrdə rəqabət qabiliyyətini artırmağa yönəlmiş islahatlar həyata keçirir, dayanıqlı və innovativ iqtisadiyyat qurmaqla yanaşı, xarici investisiyaları cəlb edir və yerli istehsalın gücləndirilməsi istiqamətində mühüm addımlar atırıq. Uğurlarımız dayanıqlı iqtisadi artımın sürətini artırmaqla yanaşı, həm də sosial rifahın yüksəlməsinə xidmət edir. Bizim yolumuz davamlı inkişafa və şəffaf idarəetməyə əsaslanır.

Hazırda başlıca hədəfimiz iqtisadiyyatımızı bundan sonra daha da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” yaxın gələcəkdə inkişaf konsepsiyamızın əsasını təşkil edir. Davamlı güclənən rəqabətqabiliyyətli iqtisadiyyatın, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulması, ölkəmizin rəqabətli insan kapitalına söykənən müasir innovasiyalar məkanına və “yaşıl artım” ölkəsinə çevrilməsi, işğaldan azad edilmiş ərazilərimizin yenidən məskunlaşdırılması qarşımızda duran əsas prioritetlərdir. Bu milli prioritetlərin hər biri qarşılıqlı və əlaqəli şəkildə icra edildikdə yüksək nəticələr verəcəkdir.

Bu məqsədlərin reallaşdırılmasının təməlində dövlətin iqtisadi qüdrəti, gəlirləri, fiskal dayanıqlığı durur. Güclü maliyyə imkanlarının formalaşdırılmasına isə effektiv vergi sistemi töhfə verə bilər. Maliyyə imkanlarımızın ildən-ilə artması, büdcə gəlirlərimizin fiskal dayanıqlığı prosesində effektiv və proaktiv vergi siyasətinin həyata keçirilməsi olduqca vacibdir. Vergi sistemində aparılan islahatlar, vergi inzibatçılığında tətbiq olunan yeni yanaşma və mexanizmlər iqtisadiyyatda şəffaflaşmanı keyfiyyətcə yeni bir mərhələyə qaldırıb. Bu gün vergi siyasəti həm aktiv iqtisadi tənzimləmə vasitəsi, həm də stimullaşdırıcı alətdir. Hazırda bütün fiskal yığımların əhəmiyyətli hissəsini məhz vergi orqanları təmin edir.

Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası işğaldan azad edilmiş ərazilərin iqtisadi inkişafı üçün möhkəm təməl yaradıb. Bu ərazilərdə infrastrukturun bərpası, yeni sənaye və kənd təsərrüfatı sahələrinin yaradılması istiqamətində atdığımız addımlar, regionun milli iqtisadiyyata reinteqrasiyası gələcəkdə əhəmiyyətli irəliləyişlərə səbəb olacaq. İqtisadiyyatın diversifikasiyası və yerli əhalinin sosial rifahının təmin edilməsi bu ərazilərin sürətli inkişafını təmin edəcək, Qarabağ və Şərqi Zəngəzur bölgələri ölkəmizin ümumi iqtisadi potensialına mühüm töhfələr verəcəkdir.

Bu prosesdə vergi siyasətinin və vergi təşviq alətlərinin də böyük rolu var. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar üçün uzunmüddətli vergi və gömrük güzəştləri müəyyən edilib. Ərazi bütövlüyümüzün tam bərpa edilməsi xarici investorların da ölkəmizə marağını artırır. Uzun illərdir Azərbaycanda müsbət sərmayə iqlimi mövcuddur, investisiyaların adambaşına düşən həcminə görə biz qabaqcıl ölkələr sırasındayıq. Bununla belə, regionda iqtisadi dayanıqlığın təmin olunması, investisiyaların əhatə dairəsinin daha da genişlənməsi üçün biz daha cəlbedici biznes və vergi mühiti yaratmalıyıq. Sahibkarlara güclü dəstək verilməlidir, süni maneələr aradan qaldırılmalıdır. Dövlətin tənzimləyici qurumlarının əsas vəzifəsi ölkədə biznesin genişlənməsinə, büdcəyə vergi ödəyən güclü orta və iri sahibkarlar təbəqəsinin formalaşmasına istiqamətlənməlidir. Biz qüdrətli dövlət qururuq, belə dövlətin vətəndaşı isə vergi ödəməkdən qürur duymalıdır.

Vergi sistemi ölkəmizin inkişafında müstəsna rol oynayır və vergi işçiləri həm də dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində mühüm funksiya yerinə yetirirlər. Vergi işçiləri yalnız büdcə gəlirlərinin təminatçısı deyil, həm də iqtisadi sabitliyin və sosial ədalətin qorunması işində önəmli bir missiyanın icraçısıdırlar. Fəaliyyətiniz dövlət büdcəsinin formalaşdırılmasında, eyni zamanda iqtisadi və sosial layihələrin həyata keçirilməsində xüsusi rol oynayır. Vergi ödəyiciləri ilə effektiv əməkdaşlıq, vergi ödəmələrinin düzgün və vaxtında həyata keçirilməsi yalnız iqtisadiyyatı deyil, həm də xalqın dövlətə olan etimadını gücləndirir.

Ölkəmizin qarşısında duran hədəf və vəzifələr çoxdur. Bu yolda sizin öz işinizə münasibətiniz və vətənə sədaqətiniz bizim üçün qiymətli sərvətdir. Əminəm ki, bu şərəfli vəzifəni yüksək səviyyədə yerinə yetirməkdə və ölkəmizin daha da qüdrətlənməsinə töhfə verməkdə davam edəcəksiniz.

Dövlət Vergi Xidmətinin bütün kollektivinə möhkəm cansağlığı, peşə fəaliyyətində uğurlar diləyirəm. Sizi bir daha təbrik edir, ölkəmizin inkişafı və rifahı yolunda atdığınız hər bir addımda müvəffəqiyyətlər arzulayıram!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 fevral 2025-ci il**

# Komando hərbi hissəsi ilə tanışlıq

**Ölkəmizdə səfərdə olan Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud və müdafiə naziri Abdulkadir Məhəmməd Nur fevralın 13-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və müdafiə sənayesi naziri Vüqar Mustafayevlə birlikdə Azərbaycan Ordusunun komando hərbi hissələrinin birində olublar.**



Əvvəlcə hərbi hissədə fəxri qarovul dəstəsinin müşayiəti ilə qarşılanma mərasimi keçirilib.

Sonra hərbi hissənin idman zalında Müdafiə Sənayesi Nazirliyinin təqdim etdiyi yeni simulyasiya vasitəsinə baxışdan sonra hərbi qulluqçuların idman hazırlığı izlənilib.

Qonaqlar tapança, pnevmatik silah və kiçikçaplı tüfənglərdən atəş açmaq üçün nəzərdə tutulmuş 25 metr uzunluğunda iki atış zolağı, həmçinin atışın nəticələrinin monitorda əks olunduğu qapalı atış şəhərciyinə gələrək burada yaradılan şəraitlə tanış olublar.

Hərbi qulluqçuların məişət şəraiti ilə maraqlanan nümayəndə heyəti əsgər yataqxanasına, silah otağına, əşya anbarına, ideoloji iş və digər inzibati otaqlara, həmçinin yeməkxanaya baxıblar.

Qonaqlar tam təchizatlı komandoların sıra hazırlığına baxdıqdan sonra onların dağ komando qülləsində və kəşfiyyat cığırında fəaliyyətlərini izləyiblər.

Müdafiə Sənayesi Nazirliyinin, həmçinin “RTX” və “Improtex” şirkətlərinin istehsal etdiyi pilotsuz uçuş aparatı (PUA), silah, avtomobil və xüsusi texnika, eləcə də digər döyüş vasitələrindən ibarət sərgini izləyən qonaqlara onların taktiki-texniki xüsusiyyətləri barədə ətraflı məlumat verilib.

Daha sonra Somali nümayəndə heyətinə Azərbaycan Ordusunun istifadəsində olan silah-sursat, təchizat və döyüş texnikası təqdim edilib.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub və xatirə şəkilləri çəkdirilib.

***XQ***

# Somali Prezidenti Səngəçal neft terminalında



**Azərbaycanda rəsmi səfərdə olan Somali Prezidenti Hasan Şeyx Mahmud Səngəçal neft terminalında olub.**

Terminalla tanışlıq Xəzər regionunda bənzərsizliyi ilə seçilən Xəzər Enerji Mərkəzindən başlanıb.

Məlumat verilib ki, Azərbaycanın neft-qaz sənayesinin tarixini dolğun əks etdirən bu mərkəz ölkəmizin dünya neft və qaz sənayesindəki rolunu geniş təbliğ edir. Mərkəz 2005-ci ildə Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Gürcüstan və Qazaxıstandan olan yüksəksəviyyəli rəsmi qonaqların iştirakı ilə Prezident İlham Əliyev tərəfindən açılıb. Mərkəzin istifadəyə verilməsi Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin Azərbaycan hissəsinin açılışı ilə eyni vaxta təsadüf edib. Burada qonaqlar rəmzi nişan kimi öz əl izlərini qoyub və bu nişan Xəzər Enerji Mərkəzinin rəmzinə çevrilib. Mərkəzin əsas məqsədlərindən biri Azərbaycanın neft və qaz sənayesinin 150 ildən çox olan tarixini nümayiş etdirməkdir.

Ali qonağa respublikamızın neft tarixinin xronologiyası barədə ətraflı məlumat verilib. Bildirilib ki, neft və qaz sənayesi Azərbaycan üçün yalnız iqtisadi dəyər daşımır, o, eyni zamanda, milli qürur mənbəyidir. Dünyada ilk dəfə mexaniki üsulla neft quyusu 1847-ci ildə Bibiheybət ərazisində qazılıb. XIX əsrə qədər dünyada hasil edilən neftin yarısı ölkəmizin payına düşüb. XIX əsrin ikinci yarısında xarici ölkələrin iş adamları Azərbaycanda biznes fəaliyyətinə başlayıblar. Bunlara bütün dünyada tanınan Rotşildlər və Nobel qardaşlarını misal göstərmək olar. Dünyada məşhur olan Nobel mükafatı həm də Alfred Nobelin Bakıdakı neft yataqları üzrə səhmlərinin satışından əldə olunmuş vəsaitlərin toplanması hesabına yaradılıb. İkinci Dünya müharibəsi illərində Sovet İttifaqında neftin 75 faizini hasil edən Azərbaycan ordunu yanacaqla təchiz edərək Qələbənin əldə olunmasında əhəmiyyətli rol oynayıb.

Ötən əsrin 70-80-ci illəri isə Xəzər dənizinin dərin sulu sektorlarındakı yataqların işlənməsi və neft-kimya sənayesinin inkişafı ilə səciyyəvidir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə nəhəng “Azəri-Çıraq-Günəşli” yatağının işlənilməsi məqsədilə “Əsrin müqaviləsi” kimi tanınan hasilatın pay bölgüsü haqqında müqavilə imzalanıb. Bu müqavilə ölkənin sürətli inkişafına təkan verərək onu regional enerji mərkəzinə çevirib.

Somali Prezidenti və onu müşayiət edən şəxslər müxtəlif yataqlardan hasil edilən neft nümunələrinə də baxıblar.

Sonra Azərbaycanın neft tarixi və “Cənub Qaz Dəhlizi” layihəsindən bəhs edən videoçarx nümayiş etdirilib. Bildirilib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin neft strategiyası çərçivəsində ölkəmizdə irimiqyaslı enerji layihələri həyata keçirilib. Bu layihələrin təməlini qoyan ulu öndər Heydər Əliyev Azərbaycana milyard dollarla xarici sərmayələrin cəlb edilməsi üçün çox iş görüb. İlkin olaraq, Xəzərin neft və qaz yataqlarının işlənilməsi və neft kəmərlərinin tikintisinə yönəldilmiş vəsaitlər sonradan digər sahələrin, xüsusilə qeyri-neft sektorunun inkişafına, iri infrastruktur layihələrinin həyata keçirilməsinə, yeni iş yerlərinin açılmasına şərait yaradan gəlir gətirib. Bu gün Azərbaycanın dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilməsində və artıq özünün xarici sərmayələr yatırmaq iqtidarında olmasında bunun böyük rolu vardır.

Vurğulanıb ki, tikintisinə 2001-ci ildə başlanmış terminalda xam neft üçün ümumi həcmi 880 min barel olan üç çən, baş nasos stansiyası, separatorlar, emal qurğuları və idarəetmə məntəqəsi var. Buraya fiber-optik rabitə kabelləri, sahildən 187 kilometr məsafədə yerləşən dəniz yataqlarından neft və qaz kəmərləri çəkilib.

Ali qonağa xatirə hədiyyələri təqdim olunub.

Sonra Somali Prezidenti avtobusla Səngəçal terminalının ərazisini gəzib. Onlara terminaldakı texnoloji proseslər barədə ətraflı məlumat verilib.

Bildirilib ki, Səngəçal terminalı Azərbaycanın neft və qaz sənayesinin döyünən ürəyi hesab edilir. Terminal Azərbaycanın Xəzər dənizindəki yataqlarından hasil edilən xam neftin və qazın qəbul edildiyi, emal olunduğu, saxlandığı və ixrac edildiyi məkandır. “Azəri-Çıraq-Günəşli” yatağından ötürülən neft və “Şahdəniz”dən nəql edilən qaz terminala daxil olur, əsasən Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz boru kəmərləri ilə ixrac edilir. Dünyanın ən böyük və səmərəli neft və qaz terminallarından sayılan Səngəçal terminalının sahəsi 550 hektardan çoxdur. Terminalda gündə 1,2 milyon bareldən çox xam neft və 40 milyon kubmetrdən artıq qaz emal edilir. Onun xam neft saxlama həcmi 3,2 milyon barel təşkil edir. Terminalın sahəsi mürəkkəb boru kəmərləri və avadanlıq şəbəkəsi ilə əhatə olunub. Dənizdəki qurğulardan terminala daxil olan boru kəmərləri müxtəlif marşrutlara istiqamətlənməklə, Azərbaycanın yüksəkkeyfiyyətli xam neftini və qazını dünya bazarlarına nəql edir.

Bundan əlavə, terminal Qazaxıstan və Türkmənistan neftini də qəbul edir. “İlkin Neft Layihəsi” və “Səngəçal Terminalının Genişləndirilməsi Proqramı” nəticəsində terminalda hər birinin həcmi 25 min 500 kubmetr olan və ildə 6 milyon tondan çox xam nefti emal etmək, saxlamaq və ixrac etmək iqtidarında olan 4 çən yerləşir. Terminaldakı idarəetmə mərkəzi Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçən ixrac boru kəmərlərinin fəaliyyətini hərtərəfli nəzarətdə saxlaya, problemləri aşkara çıxara bilir.

Vurğulanıb ki, Səngəçal terminalı öz neft və qaz ixrac sistemləri ilə birlikdə Azərbaycanı Avropa ilə Asiyanın kəsişməsində mühüm bir qovşağa çevirir.

Ali qonağa terminaldakı texnoloji proseslər, o cümlədən “Şahdəniz-2”, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi layihələri çərçivəsində görülən işlər, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin ilk nefti qəbul edən birinci nasos stansiyası barədə də ətraflı məlumat verilib.

***XQ***

# Milli QHT Forumunun USAID barədə Trampa və Maska müraciəti

**Azərbaycan Milli QHT Forumu fevralın 13-də ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID) ilə əlaqədar ABŞ Prezidenti Donald Trampa və ABŞ Dövlət İdarəetməsinin Səmərəliliyi Departamentinin (DOGE-nin) rəhbəri cənab İlon Maska müraciət ünvanlayıb.**

Müraciətdə deyilir: “Azərbaycan QHT-lərinin flaqmanı olan Azərbaycan Milli QHT Forumu olaraq USAID-in qlobal məkanda cinayətkar əməllərinin təftişində və ifşasında nümayiş etdirdiyiniz qətiyyətə, güclü iradəyə görə sizlərə dərin təşəkkürümüzü bildiririk.



Təəssüflər olsun ki, ötən uzun illər ərzində ABŞ vergi ödəyicilərinin pulları USAID-in korrupsiya yeminə çevrilib, Bayden-Blinken administrasiyasının qara şəbəkəsinin formalaşdırılması üçün istifadə olunub. Azərbaycan-ABŞ münasibətlərinin itirilmiş illərinə çevrilən Bayden-Blinken dövründə Azərbaycan cəmiyyətində USAID-in ölkədən qovulması, fəaliyyətinin dayandırılması ilə əlaqədar çağırışlar, ictimai qəzəb də artan xətt üzrə güclənib. USAID qrantları Azərbaycanda da ənənəvi, milli-mənəvi dəyərlərə təhqir mahiyyəti daşımaqla, ABŞ-ın bölgədəki imicinə və strateji maraqlarına zərbə vurub.

İctimailəşdirilən faktlar göstərir ki, 1991-ci ildən USAID Azərbaycanda müxtəlif adlar altında layihələrə 410 milyon ABŞ dollarından artıq vəsait xərcləyib. Yeni faktlar hazırda aktiv olan 17 milyon dollarlıq ABŞ-ın müxtəlif qrant layihələrində Azərbaycanın da adının keçdiyini göstərir.

Ümid edirik ki, siz USAID-in Azərbaycandakı cinayətlərinə də nəzər salacaq, ayrılmış qrantların təftişinin aparılmasına göstəriş verəcəksiniz”.

***XQ***

# Milli Məclisdə birgə işçi nahar



**Azərbaycan Respublikasının Milli Məclisinin Sədri Sahibə Qafarova və ölkəmizdə rəsmi səfərdə olan Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud fevralın 13-də birgə işçi nahar ediblər.**

Söhbət zamanı Azərbaycan ilə Somali arasında münasibətlərin inkişaf perspektivləri, parlamentlərarası əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

***XQ***

# Zəngəzur Qarabağdır, Qarabağ isə Azərbaycanın ruhudur

## Yaxud tarixi haqqımız və imperializmin erməni təəssübü

*(əvvəli 1-ci səhifədə)*




Qeyd edək ki, Azərbaycanın Naxçıvandan və Türkiyədən ayrı salınmasının daha böyük məqsədi Türk dünyasını parçalamaq idi. Prezident İlham Əliyev 2021-ci il martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında qeyri-formal Zirvə görüşündəki çıxışı zamanı məhz bu məqamı qabartmışdı: "Naxçıvanda keçirilmiş Zirvə görüşündə mən demişdim ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək Türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq, görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, Türk dünyası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi Türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün Türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq".

Söhbət Zəngəzurdan düşmüşkən, Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri olmuş Nəsib bəy Yusifbəylinin 1919-cu il dekabrın 22-də parlamentdəki çıxışını yada salaq: "Qarabağ deyərkən, təbii olaraq, dörd mahalı nəzərdə tuturuq. Son zamanlar bəziləri müxtəlif intriqalarla, dedi-qodularla Zəngəzur mahalını Qarabağdan kənarda göstərməyə çalışırlar. Yüz və min illərdir ki, Zəngəzur Azərbaycanın ruhunu təşkil edən Qarabağın tərkib hissəsidir. İndi, cənablar, Qarabağ qəzasının üçdəiki hissəsi bizim əlimizdədir. Zəngəzur mahalının yarısı isə bəzi qiyamçıların nəzarətindədir".

N.Yusifbəylinin barələrində söz açdığı qiyamçılar bölgədən qovuldular. Ancaq ərdıncа xalqımız üçün son dərəcə ağır proseslər yaşandı. Bu barədə söz açmazdan əvvəl bildirək ki, yuxarıda gətirdiyimiz üç iqtibas Qarabağa və Zəngəzura vahid orqanizm kimi yanaşmağımıza imkan verir.


Paris : 10 centimes. — Hors Paris : 15 centimes. N° 1748. — MERCREDI 14 JUILLET 1920.

L'ŒUVRE

25, rue Royale (8e)

Directeur : GUSTAVE TÉRY

**Entre Russes et Arméniens**

La Russie des Soviets ayant, dans un traité signé le 1er juillet avec la République arménienne, cédé à l'Arménie la région de Zangezour, située dans l'Azerbeidjan, les Tatars de ce pays s'en sont pris aux Arméniens avec qui ils ont engagé des combats.

Söhbət məhək daşı Azərbaycan olan vahid orqanizmdən gedir. O Azərbaycan ki, tarix boyu olub və olacaq da. Ancaq indi tarixin ənginliklərinə getmək fikrində deyilik. Təkcə XIX əsrin 30-cu illərindən bu yana olan dövrə ekskurs edərək Qarabağ kimi Zəngəzurun da haqq davamızın tərkib hissəsi obrazını canlandıracaq, bu qədim diyarımızın üzləşdiyimiz ədalətsizliklərin və haqsızlıqların daha bir nişanəsi olduğunu vurğulayacağıq.

***

Başlayaq 1828-ci ildə Rusiya və İran arasında imzalanmış Türkmənçay müqaviləsindən. Müqavilədə ermənilərin Qafqaza köçürülmələrinə dair xüsusi müddəanın yer aldığını və 1830-cu ildən sonra prosesə ciddi şəkildə start verildiyini bilirik. 1849-cu ildə tarixi torpaqlarımızda erməni vilayətinin yaradıldığını da həmçinin. Çünki çar imperializmi erməni varlığına müsəlmanların üstünlük təşkil etdiyi Qafqazda rupor kimi yanaşırdı. Bütövlükdə, türk-müsəlman dünyasını bir-birindən ayrı salmaq məqsədi də bu idi.

Dünyanın imperialist qütbləri çar Rusiyasının Osmanlı əleyhinə köklündiyini gözəl anlayırdılar. Buna görə erməni məsələsinin, belə demək mümkünsə, rus seqmenti daxilində baş verənlər onların maraq və mənafeləri baxımından qənaətbəxş sayılırdı. Ancaq Qərb aləminin özünün ayrıca fəaliyyət dəst-xətti də var idi. Bu "dəst-xəttin" nəticəsi olaraq XIX əsrin sonlarına doğru Avropada erməni terror təşkilatları gücləndi. Həmin təşkilatların məramı Osmanlı torpaqlarında iğtişaşlar törətmək, dövləti daxildən parçalamaq idi. Bir sözlə, erməni məsələsinə münasibətdə Qərb imperializmi və çarizm ortaq maraqlardan çıxış edirdi. Onlardan dəstək alan erməni millətçiləri Birinci Dünya müharibəsi illərində Osmanlıya xəyanət yolu tutdular. Savaşın başa çatması ilə hər iki imperiyanın varlığına son qoyuldu.

Nəhəng imperiyaların süqutu şəraitində Azərbaycanın 1918-ci il müstəqilliyinə qovuşması dövlətçilik ənənələrimizin bərpası idi. Həmin il Azərbaycan torpaqları hesabına yaradılmış Ermənistana gəlincə, bu qurama "dövlət" erməni varlığının Qərbə "ayı xidməti"nin mükafatından başqa bir şey deyildi. Ancaq erməni millətçilərinin iddiaları yerə-göyə sığmırdı. Qərb onları razı salmaq üçün əlindən gələn hər şeyi edirdi. Beləcə, erməni məsələsində estafeti üzərinə götürmüş Qərbin ermənilərə İrəvandan sonrakı hədiyyəsinin zamanı yetişdi. Hədiyyənin adı isə Zəngəzur idi.

***

Bəli, Qərb dünyası Zəngəzurun ermənilərə hədiyyə edilməsinin memarı olmuş, Azərbaycan Xalq Cümhuriyyətini buna razı salmağa çalışmışdı. Planı reallaşdırmaq Antanta dövlətlərinin Ermənistana ali komissar təyin etdiyi ABŞ ordusunun polkovniki V.Haskelin müavini, polkovnik Ceyms Reyə tapşırılmışdı. Ancaq AXC xadimləri İrəvandan sonra Zəngəzurun və Naxçıvanın əldən çıxma ehtimalını duymuşdular. Ona görə də Azərbaycan hökuməti 1919-cu il 25 yanvar tarixli qərarı ilə Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını Gəncə quberniyasının tərkibindən çıxarmış və həmin qəzalardan ibarət Qarabağ general-qubernatorluğunu yaratmışdı.

Azərbaycanın birinci hökumətində hərbi nazir olmuş Xosrov bəy Sultanov Qarabağın general-qubernatoru təyin edilmişdi. Xosrov bəy və qardaşı Sultan bəyin başçılığı ilə ermənilər geri qovulmuşdular. Həmçinin, 1919-cu ilin iyulunda Xankəndidə AXC-nin hərbi paradı olmuşdu. Ermənilər və xaricdəki havadarları bundan çox narahatlıq keçirmişdilər. Tərəflər arasında barışın əldə edilməsi tapşırığını almış C.Rey isə 1919-cu il noyabrın 23-də Tiflisdə "sülh konfransının" təşkilinə nail olmuşdu.

1919-cu il noyabrın 23-də imzalanmış "sülh sazişi"ndən beş gün əvvəl, yəni noyabrın 17-də AXC-nin Baş naziri Nəsib bəy Yusifbəylinin C.Reyə cavab məktubunda deyilirdi: "Sizin teleqramınıza cavab olaraq bildirirəm ki, Azərbaycan hökuməti tərəfindən Zəngəzurda hərbi əməliyyatlar aparılmır. Zəngəzur Azərbaycanın ayrılmaz hissəsidir, bunun belə olduğunu İttifaq komandanlığından olan müttəfiqlərimiz və Sülh konfransının ali komissarı Haskel özü də təsdiqləyib. O, bizim Zəngəzur qəzasına məxsusi sahibliyimizi etiraf edib. Naxçıvan məsələsi üzrə razılaşmanın bir bəndində erməni hökumətindən tələb edib ki, Azərbaycan hakimiyyətinə Zəngəzurda üsyançı hərəkatını dayandırmaqda köməklik göstərsin. Beləliklə də erməni əhalisini Azərbaycan Respublikasının hakimiyyətinə tabe olmağa məcbur etsin. Bizim aldığımız son məlumatlara görə, erməni hökuməti nəinki Haskelin qarşısındakı (Antanta İttifaqının Ermənistanda ali komissarı olmuş polkovnik V.Haskel nəzərdə tutulur. C.Rey onun müavini olmuşdu və birinci Parisə çağırıldıqdan sonra təsbbüsü ələ almışdı – red.) bu öhdəliyinə əməl etməyib, əksinə, Zəngəzura özünün qoşunlarını göndərib ki, üsyançı hərəkata dəstək olsun, onu gücləndirsin. Buna görə də Azərbaycan hökuməti orada qayda yaradılması və anarxist-bolşevik əhvali-ruhiyyəli erməni üsyançı bandalarına təsir göstərmək məqsədilə Qarabağ üzrə general-qubernatora hərbi kömək göndərməyə məcbur olub".

C.Rey 1919-cu il noyabrın 23-də Tbilisidə üçtərəfli sazişin, daha doğrusu, "sülh sazişi"nin imzalanmasına nail olur. Sənədi Azərbaycan və Ermənistanın baş nazirləri N.Yusifbəyli və A.Xatisov, təminatçı qismində ABŞ tərəfindən Ceyms Rey və Gürcüstanın xarici işlər naziri E.Gegeçkori imzalamışdılar. Sazişə əsasən, Ermənistan və Azərbaycan hökumətləri silaha əl atmayacaqlarını, Zəngəzura gedən yolların açılması üçün tədbirlər görəcəklərini, sərhəd məsələləri də daxil olmaqla, bütün mübahisəli problemləri sülh konfransının qərarına qədər yalnız barış yolu ilə aradan qaldıracaqlarını, bəzi məsələlərdə razılığa gəlinmədikdə polkovnik Ceyms Reyin münsiflər məhkəməsi qismində tədbirlər görəcəyini, danışıqlar aparmaq üçün bərabər sayda nümayəndələr seçəcəklərini, mübahisəli məsələlərin müzakirəsini aparacaqlarını, nəhayət, bu sazişin müddəalarına vicdanla əməl edəcəklərini razılaşdırmışdılar.

Qeyd edək ki, həmin dövrdə C.Reyə geniş səlahiyyət verilmişdi. Azərbaycan Ordusu da məhz onun təkidi ilə, regionda sülhün yaranması zərurətini əsas götürərək Zəngəzurdan çıxmalı olmuşdu. AXC amerikalı polkovnikə güvənmiş və istəmişdi ki, qan tökülməsinin qarşısı alınsın. Amma bundan sonra Qərbin mənfur planının ikinci mərhələsi işə düşmüşdü. Azərbaycan Ordusunun Zəngəzurdan çıxması ilə ermənilər 1920-ci ilin yanvarına qədər qəzanın bütün kəndlərinin işğalını gerçəkləşdirmişdilər.

Bəli, bütün bunlar AXC-nin İrəvan güzəştinin ermənilər və onun Qərbdəki havadarları üçün yetərli olmadığının sübutudur. O da məlumdur ki, haqqında söz açdığımız işğallar nəticəsində Zəngəzurdan Naxçıvana və ətraf ərazilərə görünməmiş qaçqın axını başlamışdı. Halbuki bu hadisələrə qədər bölgə əhalisinin 72 faizini azərbaycanlılar, yalnız 28 faizini ermənilər təşkil etmişdilər.

Əlbəttə, Azərbaycanın rəsmi nümayəndələri vəziyyətin belə şəkil aldığını C.Reyə bildirmişdilər. Özü də Paris Sülh Konfransında. Hətta lazımi materiallar da təqdim etmişdilər ki, onlar Amerika Prezidentinə və Antantaya üzv dövlətlərin başçılarına təqdim olunsun. Ancaq gec idi, erməni təəssübü öz "işini" görmüşdü. Beləcə, Zəngəzur məsələsi Paris Sülh Konfransının müzakirəsindən kənarda qalmışdı.

Zəngəzurdan dərs alan Naxçıvan əhalisinin güclü müqaviməti və inadlı mübarizəsi, AXC hökumətinin isə diplomatik səyləri ilə növbəti təxribat aktının qarşısı alındı. Ermənilərin Naxçıvanı ələ keçirmək niyyəti puça çıxdı. Ancaq bununla hər şey bitmədi. Çünki Qərb imperializmi yerini yenidən Rusiyaya verdi ki, erməni millətçiləri bu imkandan maksimum faydalanmağa girişdilər. Özü də daha azğın şəkildə.

***

1920-ci ilin aprelindən sonrakı zaman kəsiyi Zəngəzurun, bütövlükdə Qərbi Azərbaycanın bizdən qoparılmasının ayrı-ayrı mərhələlərinə şahidlik edir. Məhz bu mərhələdə Zəngəzur Ermənistanın sovet hakimiyyətini qəbul etməsi qarşılığında bolşevik Rusiyasının ermənilərə hədiyyəsinə çevrilir. Hər şey isə 1920-ci il aprelin 28-dən – Sovet Rusiyasının Azərbaycanı ələ keçirməsindən sonra başlayır. Həmin ilin iyununda Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) ilə Ermənistan arasında imzalanmış müqaviləyə görə, Rusiya İrəvan quberniyasının, Zəngəzur qəzasının Ermənistan SSR ərazisinə daxil olmasını tanıdı. Lakin bir məqamı da vurğulayaq ki, həmin vaxt Zəngəzur naminə azərbaycanlıların müqaviməti olmuşdu. Müqavimət və etiraz o qədər ciddi olmuşdu ki, Rusiyaya etibarın itirilməsi təhlükəsi yaranmışdı. Buna görə Qafqaz bolşevikləri Zəngəzurun Azərbaycandan alınıb Ermənistana verilməsinə dair qərarın məsuliyyətini Azərbaycan kommunistlərinin üzərinə yıxmaq kimi plani işə salmışdılar.

1918-ci ildə AXC-nin yaranması zamanı İrəvan Ermənistan üçün paytaxt olaraq güzəştə gedilmişdisə, 1920-ci ildə sovet Azərbaycanının formalaşması Zəngəzurun və digər ərazilərin güzəşti ilə müşayiət olunmuşdu. Belə ki, 1920-ci il avqustun 10-da Rusiya K(b)P-nin Qafqaz bürosu Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək barədə qərar çıxarmışdı, Zəngəzur isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan olunmuşdu.

1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyətinin qurulduğu elan olunmuş, bir gün sonra – noyabrın 30-da Azərbacan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarla Zəngəzur Ermənistana verilmişdi. Təsadüfi deyil ki, Sovet Rusiyasının rəhbərliyində təmsil olunanlar (onların tərkibində ermənilər çoxluq təşkil edib – red.) Zəngəzurun ermənilərə verilməsinə dair Nəriman Nərimanovun 1920-ci il dekabrın 1-də səsləndirdiyi bəyanatı Rusiyanın Qafqaz, Azərbaycan üzərində qəti qələbəsi, Ermənistanın daşnakların hakimiyyətindən qurtulub sovetləşməsi, şirniklәndirilməsi yolunda mühüm addım saymışdılar.

Nəhayət, 1921-ci il iyunun 3-də Rusiya Kommunist Partiyası Mərkəzi Komitəsinin Qafqaz Bürosu İosif Stalinin iştirakı ilə keçirilmiş iclası Zəngəzurun Ermənistana birləşdirilməsi barədə qərara təkrar və demək olar yekun qərar baxmışdı. Bir nəfər də olsa azərbaycanlı və müsəlmanın iştirak etmədiyi həmin iclasdan sonra ərazi ilk dəfə olaraq Ermənistanın 9-cu qəzası kimi inzibati bölgüyə daxil edilmişdi.

Qeyd edək ki, Zəngəzurun Sovet Azərbaycanından alınaraq Sovet Ermənistanına verilməsi Qərbin də diqqət mərkəzində olub. Qərbdə hesab edirdilər ki, yekunda Sovet Rusiyasının adına yazılan ermənipərəstlik onların da işinə yarayan amildir. Bunu ayrı-ayrı media orqanlarının materiallarından da görmək mümkün idi. Məsələn, fransız nəşri olan "L'oeuvre" özünün 1920-ci ilin dekabrındakı sayında bu mövzuya geniş yer ayırmışdı. Yazıda Sovet Rusiyasının Zəngəzuru Ermənistana güzəştə getməsindən bəhs edilmişdi. Nəzərə alaq ki, belə nümunələrin sayı çoxdur.

Zəngəzurun Ermənistana güzəştə gedildiyini sübuta yetirən daha bir fakt isə Stalinin "Pravda" qəzetinin 1920-ci ilin dekabrın 4-də çapdan çıxmış sayında yer alan "Да здравствует Советская Армения!" sərlövhəli məqaləsidir. Qərbin ermənilər üçün edə bilmədiyini Sovet Rusiyasının həyata keçirməsindən qürur hissinin ifadə olunduğu məqalədə açıqca bildirilmişdi ki, Sovet Azərbaycanı Zəngəzurdan könüllü şəkildə imtina edib. Əlbəttə, Stalin təmsil olunduğu hakim komandanın ermənilər naminə azərbaycanlılara qarşı məkrli oyun oynadığından söz açmazdı. Ancaq yaşananlardan söz açan, hər şeyi gün işığı kimi göstərən əlahəzrət tarix var.

***

Göründüyü kimi, XIX əsrin 30-cu illərindən Azərbaycan ərazilərində məskunlaşdırılmış ermənilər XX əsrin 20-ci illərində torpaqlarımızın işğalı reallığını doğurdular. Hələ onların 1918-ci ilin martında törətdikləri soyqırımı da var ki, məqsəd Qafqaz coğrafiyasından türk-müsəlman izini tamamilə silmək idi. Eyni mənfur xətt Sovet imperiyasının dövründə də götürülmüşdü. 1923-cü ildə Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı ki, bu, əsrin sonlarına doğru Qarabağ məsələsinin aktivlik parametrini müəyyənləşdirmişdi.

Habelə, XX əsrin 20-ci illərindən başlayaraq torpaqlarımızın hissə-hissə Ermənistana verilməsi halları da olmuş, proses 1969-cu ilin mayınadək davam etmişdir. Yalnız ulu öndər Heydər Əliyevin Azərbaycanda rəhbərliyə başlamasından sonra ərazi peşkəşlərinə son qoyulmuşdu. Amma 1987-ci ildə Heydər Əliyevin SSRİ-dəki hakimiyyət olimpindən uzaqlaşdırılmasından dərhal sonra Ermənistanın XX əsrin sonlarında gerçəkləşmiş və otuz ilədək davam etmiş işğalına aparan məkrli proseslərə start verilmişdi.

Lakin indi zaman dəyişib. 44 günlük müharibədəki Zəfərimiz, Qarabağa sahiblənməyimiz 200 illik erməni planına son qoyub. Bu gün Azərbaycan haqqı olanı geri istəyir və prinsiplərində qətidir. Ancaq dövlətimiz məsələyə vəlvələdən və ya zəlzələdən yaranmış qurama Ermənistanın ərazi bütövlüyünə qəsb prizmasından yanaşmır. Rəsmi Bakı Naxçıvana sərbəst və maneəsiz yol tələb edir. Ölkəmizin rəhbərliyi qətiyyətlə bəyan edir ki, Naxçıvana yol "Azərbaycandan Azərbaycana yol" məntiqinə əsaslansın. Yəni, ərazidə heç bir gömrük və sərhəd nəzarəti olmasın. Prezident İlham Əliyevin şəxsində dövlətimizin istəyi budur ki, Naxçıvana maneəsiz yolun timsalında bütün sahələrdə vahid məkan olan Qarabağımızın iqtisadi bütövlük yükü vurğulansın. Humanistik, ona görə Ermənistanın da bu vurğulanmadan fayda götürməsinə razıyıq.

Əslində, başımıza gətirilmiş müsibətlərin Zəngəzur dəhlizi amalımız və Qərbi Azərbaycana qayıdış konsepsiyamız ədalətlidir və illər ərzində öz doğma yurd-yuvalarından qovulmuş soydaşlarımızın qanuni haqqıdır. Ancaq bugünkü Ermənistan rəhbərliyi xəbərdarlıqlarımızdan nəticə çıxarmaq niyyətindən uzaqdır. Rəsmi İrəvanın hərəkətləri fonunda imperialist dairələrin yenə Cənubi Qafqaz müstəvisində aktivləşdiyini görürük. Görürük ki, onlar erməni məsələsini gündəmdə saxlamaqda israrlıdırlar və ona ölkəmizə təzyiq aləti kimi yanaşırlar. Ancaq unudurlar ki, indi yüz və ya iki yüz il əvvəlki dövr deyil. Hazırda nəinki Cənubi Qafqazın, bütövlükdə, dünyanın siyasi səhnəsində güclü və qüdrətli Azərbaycan var. Bu unutqanlığın isə qoruduqları, üzərində əsdikləri Ermənistana, yumşaq desək, ziyanı var.

***"Xalq qəzeti"nin analitik qrupu***

# Liderin andı – güclü və qüdrətli Azərbaycan obrazı

(əvvəli 1-ci səhifədə)

Ümumən, hər sözü, hər fikri reallıqla dəqiq və dərin fiksasiya təbiətinə malik dövlətimizin başçısının andiçmə mərasimindəki çıxışının nəinki Azərbaycan, eləcə də dünya ictimaiyyəti üçün daha vacib əhəmiyyət daşıyan hissəsi Cənubi Qafqazda sülhə həsr olunmuşdu. Mövzunu ölkəmizin Ermənistanla münasibətləri seqmentində qabardan Prezident qətiyyətlə bildirmişdi ki, Azərbaycan öz məsələsini həll edib, yəni ərazi bütövlüyünə və suverenliyinə qovuşub: "Ermənistanla sülh müqaviləsinin imzalanmasının da təşəbbüskarı biz olmuşuq. Beş məlum prinsipin də müəllifi biz olmuşuq. Sülh müqaviləsinin mətnini də biz yazmışıq, Ermənistan tərəfinə göndərmişik. İndi Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək".

Qeyd edək ki, Cənubi Qafqazda sülh gündəliyi özündə dövlətimizin nümayiş etdirdiyi iradə və qətiyyətin ən müxtəlif təzahürlərini canlandırır. Eləcə də direniş və əzmimizi. Biz Prezident İlham Əliyevin rəhbərliyi altında Ermənistanın havadarlarına qarşı nəinki dirəndik, həmçinin hücuma keçərək, onların mövqelərini də sıradan çıxarmağı bacardıq. Sülh gündəminə müxtəlif digər elementləri daxil etmək cəhdlərini, erməni avantürizmini diri saxlamağa hesablanmış gedişlərini alt-üst duruma gətirdik. Ona görə də deyə bilərik ki, dövlətimizin başçısının andiçmə mərasimində açıqladığı fikirlər Cənubi Qafqazda sülhün xarici dağıdıcı aspektinin uğur qazanmayacağına dair xəbərdarlıq idi. Xəbərdarlıqda barış mühitinin yalnız səmimi mövqeyə köklənməli olduğu uca səslə vurğulanırdı.

Azərbaycan ortaya hansısa iddia və prinsip qoyursa, hər kəs bilməlidir ki, həmin iddia və prinsiplərin arxasında gerçəklik dayanır və bu gün də belədir. Nəticə göz önündədir. Azərbaycan ötən bir ildə özünün hərtərəfli üstünlüyünü daha da möhkəmləndirib. Üstünlüyümüzü şərtləndirən gücümüzdür. Gücümüzün mənbəyində iqtisadiyyatımız, hərbi potensialımız, inkişafımız, rifahımız və mənəvi dəyərlərə söykənmiş ideoloji sistemimiz dayanır. Bu səbəbdən Prezident İlham Əliyevin bildirdiyi kimi, Ermənistan və ona hərbi cəhətdən dəstək verənlər Azərbaycanı heç nəyin dayandıra bilməyəcəyini anlamalıdırlar. Həm də o səbəbdən anlamalıdırlar ki, Ali Baş Komandan ordusunun hazırkı vəziyyətindən, daha doğrusu, yüksək peşəkarlıq səviyyəsindən tam xəbərdardır: "Bizim Ordumuz təlimlərdə yox, paradlarda yox, döyüş meydanında öz gücünü göstərmişdir".



Əlbəttə, demək olmaz ki, Ermənistan və havadarları ötən bir ildə Cənubi Qafqazda sülh quruculuğuna söykənmiş mövqeyimizin dönməzliyini anlayır və lazımi nəticə çıxarırlar. Ancaq İlham Əliyevin həyata keçirdiyi kurs onlar üçün çəmbəri əhəmiyyətli dərəcədə daraldıb. Hazırda dövlətimizin başçısının bir il əvvəl səsləndirdiyi "Əgər bizə qarşı ərazi iddialarına son qoyulmazsa, əgər Ermənistan öz qanunvericiliyini normal qaydaya salmazsa, təbii ki, sülh müqaviləsi olmayacaq" fikri qətiyyətlilik baxımından yeni çalarlar qazanıb. Çünki rəsmi İrəvanın havadarlarının mövqeyi xeyli zəifləyib.

Məlum olduğu kimi, 44 günlük müharibədən sonra Azərbaycanla Ermənistan arasında vasitəçiliyə can atan qütblər bir-biri ilə qlobal rəqabətə girişirmişdilər. Dövlətimizin başçısı bir il əvvəlki çıxışında vasitəçiliyin konkret formulunu müəyyənləşdirmiş və bildirmişdi ki, bu missiyada diplomatik qaydalara riayət etmək şərtdir. Ancaq şərtə əməl edənlər olmamışdı. Ən əsası isə Prezident "Bizə bu məsələdə vasitəçi lazım deyil", – deyərək Bakı və İrəvan arasında münasibətlərin normallaşmasına qlobal rəqabət kontekstində yanaşanlara qarşı sərt mövqe səsləndirmişdi. Hazırda bu mövqenin faydaları göz önündədir. Belə ki, indi Azərbaycan və Ermənistan arasında vasitəçilik dövrü geridə qalıb. Fransa başda olmaqla, bəzi qüvvələrin erməniпərəst tərəfkeşliyi danışıqlar müstəvisinə gətirmək niyyətləri puça çıxıb. Nəticədə, onların İrəvanı müdafiə imkanları tükənib. Müvafiq olaraq, ölkəmizin beynəlxalq aləmdəki nüfuzu artıb. Bu gün tam qətiyyətlə deyə bilərik ki, Cənubi Qafqazın gündəmini müəyyənləşdirən Azərbaycandır və bəd niyyətlər üçün çəmbəri daraldan isə nümayiş etdirdiyimiz prinsipiallıqdır.

"Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamımıza uğurlar, yolumuz açıq olsun!"

Bu fikirlər də Prezident İlham Əliyevin bir il əvvəl andiçmə mərasimindəki çıxışındandır. Dövlətimizin başçısı həmin çıxışda, eyni zamanda, qarşımızda duran çağırışlara, bizə qarşı aparılan çirkin siyasətə hazır olmaq vəzifəsini müəyyənləşdirmişdi. Bu gün gözlər önündə özünə qarşı bütün məkrli planları böyük məharətlə pozmuş Azərbaycan obrazı canlanır. İlham Əliyev liderliyinin təcəssümü olan obraz son bir ildəkindən daha qətiyyətli, daha mübariz və daha əzmkardır. Ölkəmizin xarakterini sübuta yetirən faktların sayı-hesabı yoxdur.

Sonda qeyd edək ki, Prezident İlham Əliyev bu il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində Azərbaycan xalqına arxalandığını vurğulamışdı. "Mən bilirəm ki, arxamda Azərbaycan xalqı dayanır. Azərbaycan xalqı da bilir ki, mən onun arxasında dayanıram, yəni bu, xüsusi bir hissdir. Bunu yəqin ki, bir çoxları yaşamayıb", – deyən Prezidentin bildirdikləri qürur və fəxarət doğurur. Nəzərə alaq ki, ötən bir ildə ölkəmizdə xalq–iqtidar vəhdəti də möhkəmlənib. Bu möhkəmlik isə dövlətimizin və dövlətçiliyimizin əbədilik təminatıdır. Yaşasın İlham Əliyevli müstəqil və güclü Azərbaycan!

***Ə.RÜSTƏMOV***
***XQ***

# Dünyanın sülhə ehtiyacı var

## *Azərbaycan Prezidenti beynəlxalq təhlükəsizlik və tərəqqi açarının məhz sülh olduğunu bir daha bəyan etdi*

**Azərbaycan Prezidenti İlham Əliyevin yerli və xarici mediaya müsahibələri, bir qayda olaraq, regional və beynəlxalq çağırışları özündə əks etdirir. Dövlət başçımızın yanvarın 20-də İsveçrənin Davos şəhərində iqtisadi forumda iştirakı çərçivəsində Çinin CGTN telekanalına müsahibəsi də bu qəbildəndir. Cənab Prezident növbəti dəfə ölkəmizin də daxil olduğu Cənubi Qafqazda, bütövlükdə, beynəlxalq aləmdə təhlükəsizliyin və tərəqqinin təminatı olacaq proseslərə yeni konseptual yanaşma ortaya qoydu.**





Bu gün Azərbaycan qonşu və digər dövlətlərlə müxtəlif sahələrdə bərabərhüquqlu, o cümlədən qarşılıqlı surətdə faydalı münasibətlər qurmaq, əlaqələri inkişaf etdirmək kimi ümumi məqsədi tam şəkildə həyata keçirir. Onu da qeyd etməyi vacib sayırıq ki, bu mürəkkəb və çoxvektorlu fəaliyyət çərçivəsində yürüdülən uğurlu xarici siyasət ölkəmizin beynəlxalq aləmin önəmli aktoruna çevrilməsinə şərait yaradır.

İstər ictimaiyyət nümayəndələri ilə görüşlərində, istərsə də yüksək rütbəli xarici qonaqları qəbul edərkən İlham Əliyev yeni reallıqlardan danışır, təkcə məğlub Ermənistanı sülh müqaviləsi bağlamağa çağırmaqla kifayətlənmir, həmçinin regionda inkişafa imkanlar yaradan yeni dövrün başlandığını, dünyanın sülhə və əməkdaşlığa ehtiyac duyduğunu bəyan edir: "Əgər hər bir ölkə diqqətini, sadəcə, öz gündəminə yönəltsə, başqa ölkənin işlərinə müdaxilə etməyə çalışmasa, münaqişələr, narazılıqlar, müharibələr olmaz. Bütün dünyada hələ də qeyri-sabit vəziyyətin olmasının və qan tökülməsinin yeganə səbəbi ondan ibarətdir ki, imperialist keçmişi olan ölkələr, sadəcə olaraq, müdaxilə etməyə, dominantlıq etməyə, diktə etməyə davam etmək istəyir və bu, təbii olaraq, müqavimətə gətirib çıxarır".

İlham Əliyevin dediyi kimi, hərə öz evinin abadlığı ilə məşğul olarsa, onda sülh də, sabitlik də təmin edilər. Bu gün Azərbaycan istər Qərbdə, istərsə də Şərqdə müstəqil xarici siyasət yürüdən aktor kimi qəbul edilir. Dövlətimizin başçısı bu sözləri Çinin CGTN telekanalına müsahibəsində deyib: "Azərbaycanın təkcə Mərkəzi Asiya, Xəzər və Cənubi Qafqazda deyil, daha geniş coğrafiyada regional sabitliyə, regional sülhə verdiyi töhfə artıq qlobal, beynəlxalq aktorlar tərəfindən yüksək qiymətləndirilir".

Prezident İlham Əliyev müsahibələrində regional və qlobal məsələlərlə bağlı ismarıclar da verir. Bu, dünya və bölgə məsələlərinə rəsmi Bakının mövqeyidir.

* * *

**Milli Məclisin deputatı, politoloq Asim Mollazadə XQ-yə açıqlamasında** Prezident İlham Əliyevin hər zaman dünyada sülhün tərəfdarı kimi çıxış etdiyini bildirdi: "Cənab Prezidentin Çin telekanalına müsahibəsində dediyi sözlər onun həyata keçirdiyi xarici siyasətin əyani təzahürü sayılmalıdır. Azərbaycanın xarici siyasəti əməkdaşlıq, tərəfdaşlıq, qarşılıqlı maraqlara söykənən həm iqtisadi, həm də mədəni amillər üzərində qurulub. Ölkəmiz bu siyasi strategiyanı davamlı olaraq bölgədə və dünyada həyata keçirməyə çalışır. Bu, Azərbaycanın son illər yürütdüyü siyasətin əsas istiqamətlərini təşkil edir. Məhz bu zəmində gerçəkləşən fəaliyyətin mərkəzində, ilk növbədə, bölgədə nəqliyyat-kommunikasiya sistemlərinin formalaşmasını hədəfləyən siyasət dayanır. Bakı bu sahədə hamını əməkdaşlığa, qarşılıqlı maraqlar üzərində tərəfdaşlığa çağırır. Əlbəttə ki, bu zaman enerji daşıyıcılarının hasilatı, nəqli və mübadiləsi üzrə iqtisadi maraqlarla yanaşı, humanitar platformada – təhsil, mədəniyyət sahələrində də əməkdaşlıq Azərbaycanın maraq dairəsinə düşən prioritetlərdəndir.

Ən önəmlisi isə bütün bu fəaliyyətlərin sülh və əmin-amanlıq şəraitində həyata keçirilməsinə nail olmaqdır. Bəli, bu gün dünyanın sülhə böyük ehtiyacı var. Bölgədə və beynəlxalq aləmdə sülhün bərqərar olması üçün Azərbaycan əlindən gələn hər şeyi edir. Prezident İlham Əliyevin istər yüksək tribunalardan, istərsə də media vasitəsilə dünyaya ötürdüyü mesajların, etdiyi qlobal çağırışların mərkəzində məhz bu istək və amal dayanır".

Dövlət başçımız CGTN telekanalına müsahibəsində Azərbaycanın bir sıra ölkələrlə əməkdaşlığından, tərəfdaşlığından, yaxın münasibətlərindən, eləcə də geniş spektrli mövzulardan da bəhs edib. Misal üçün, cənab Prezident Azərbaycan–ABŞ əlaqələrindən danışarkən son 4 ildə Bayden administrasiyasının ölkəmizə ədalətsiz yanaşması səbəbindən bu əlaqələrin tamamilə korlanmasını da qeyd edib. O, Trampın ABŞ-a öncəki rəhbərliyi zamanı ikitərəfli əlaqələrin uğurla inkişaf etməsi faktına diqqət çəkib.

Cozef Baydenə bağlı ABŞ siyasi elitasının anti-Azərbaycan siyasətinin kökündə ermənilər qarşısında götürdüyü öhdəliklərə əməl etməsinin dayandığını vurğulayan İlham Əliyev artıq keçmişə qovuşmuş həmin administrasiyadan bundan artığını gözləməyin sadəlövhlük olduğunu açıq şəkildə bildirdi.

Artıq hamıya məlumdur ki, Baydenin prezidentliyi dövründə Ağ ev Ermənistana hərbi-texniki dəstək verib, maliyyə yardımı göstərib. İrəvanla strateji tərəfdaşlıq xartiyası imzalayan keçmiş administrasiya Azərbaycana qarşı ən böyük yalanı və saxtakarlığı 2024-cü il aprelin 5-də edib. Dövlət katibi Antoni Blinken, Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen və Ermənistan baş naziri Nikol Paşinyanın iştirakı ilə Brüsseldə ABŞ–Aİ–Ermənistan razılaşması imzalanıb. Sonra məlum olacaq ki, sülhə xidmət etməyən həmin razılaşmada Ermənistana hərbi yardım və onunla əməkdaşlıq məsələləri də nəzərdə tutulub. Ötən dörd ildə itirən ABŞ oldu. Bu müddətdə iki ölkə regional və qlobal əhəmiyyətli layihələr həyata keçirə bilərdi. Prezident İlham Əliyev Baydenli illərin tarixə qovuşduğunu vurğulayaraq "biz yenidən başlayacağıq" deyəndə Azərbaycanın Ağ evin yeni administrasiyası ilə əməkdaşlığa hazır olması ismarıcını verdi.

* * *

İlham Əliyev bu müsahibəsində dünyanın iqtisadi cəhətdən super güclərinin Cənubi Qafqazda yürütdükləri siyasətlərinin uğurunun Azərbaycanla münasibətdən daha çox asılı olmasını təsadüfən xatırlatmadı. Axı, Azərbaycan bir çox parametrlərinə görə həm də Yaxın Şərq ölkəsidir. Bununla yanaşı, neft və təbii qaz istehsalçısı, habelə beynəlxalq əhəmiyyətli nəqliyyat xətlərinin keçdiyi məkan olaraq dünyanın diqqət mərkəzindədir. Məhz bu kontekstdən baxanda Azərbaycanın həm transmilli layihələrdə rolu, həm də sülhə verdiyi töhfələri danılmazdır.

Dövlət başçısı bu gün dünyada cərəyan edən hadisələrə özünəməxsus formada münasibət bildirərkən Kanada və Avropa İttifaqı liderləri arasında Donald Trampın prezident seçilməsi ilə ciddi qeyri-müəyyənlik və narahatlığın olduğunu deməklə qlobal səviyyədə ismarıclar verdi. Bu zaman həmin liderlərin seçkidə dəstəklədikləri namizədlə bağlı incə məqama eyham vuraraq, Donald Trampın xarizmatik olduğunu, ABŞ-ın Aİ-də sözünün keçərliliyini, nüfuzunu önə çəkdi: "Əgər biz bunu biliriksə, sözsüz ki, Prezident Tramp daha yaxşı bilir. Artıq mən deyərdim ki, ilk diskvalifikasiya var. Bu, Kanadanın baş naziridir. Prezident Trampın onun barəsində dediyi cəmi bir kəlmə kifayət etdi ki, o, istefa versin".

Azərbaycan Prezidenti Qərb liderlərinin Donald Trampa qarşı ədalətsiz davrandıqlarını deyərək, onu da bildirdi ki, onların buna görə cavab vermələrinin vaxtı gəlib çatıb. Cənab Prezident müsahibəsində Bayden hakimiyyəti ilə müqayisədə Donald Trampın prezidentliyi dönəmində dünyanın daha təhlükəsiz ola biləcəyini dedi: "Prezident Trampın ilk prezidentliyi dövründə ABŞ heç bir müharibəyə başlamadı. Əgər ABŞ-ın, ən azı, bir neçə onilliklər ərzində tarixinə nəzər salsaq, bu, nadir bir təcrübə idi".

Müstəmləkə keçmişi olan bəzi ölkələri başqa ölkənin işlərinə müdaxilələrinə görə tənqid edən İlham Əliyev onların bu cür hərəkətləri olmazsa, münaqişələr, narazılıqlar, müharibələr də olmaz – deyə vurğuladı: "Bütün dünyada hələ də qeyri-sabit vəziyyətin olmasının və qan tökülməsinin yeganə səbəbi ondan ibarətdir ki, imperialist keçmişi olan ölkələr, sadəcə olaraq, müdaxilə etməyə, dominantlıq etməyə, diktə etməyə davam etmək istəyir və bu, təbii olaraq, müqavimətə gətirib çıxarır".

Bunun ardınca cənab Prezidentin söylədiklərinin altından xətt çəkərək oxucuların diqqətinə çatdırırıq: "Azərbaycan özünü daxili işlərinə müdaxilədən qorumağa müvəffəq olub. Lakin heç də hər bir ölkə bunu etmək üçün potensiala malik deyil. Əgər ölkə iqtisadi cəhətdən asılıdırsa, o zaman sözsüz ki, onun müqavimət göstərmək və öz milli maraqlarını müdafiə etmək üçün daha az imkanı olacaq. İqtisadiyyat hər şeyin əsasını təşkil edir. İdeologiya, iqtisadiyyat və milli ideyalar – bunlar hamısı birlikdə Azərbaycanı bizim layiq olduğumuz yerə gətirib çıxardı".

* * *

Əslində, dövlətimizin başçısı bununla dünya ictimaiyyətinə, o cümlədən müstəmləkə keçmişindən əl çəkmək istəməyənlərə "Azərbaycanın daxili işlərinə qarışmağa çalışanlar ciddi müqavimətlə üzləşəcəklər" mesajını vermiş oldu. İlham Əliyev müsahibəsində dünyanın iki supergücü – Çin və ABŞ-ın qarşılıqlı münasibətini də dəyərləndirib. Azərbaycan lideri müsahibədə dünyanın qarşıdurmaya, biri-birinin daxili işinə müdaxiləyə, müharibəyə, təcavüzə deyil, sabitliyə, sülhə, əmin-amanlığa, əməkdaşlığa ehtiyacının olduğunu bir daha diqqətə çatdırıb. Bu kontekstdə cənab Prezident Çin və ABŞ arasında qarşıdurmanın deyil, əməkdaşlığın bütün ölkələrin xeyrinə olacağını xüsusi vurğulayıb: "Çin və ABŞ rəhbərlərinin yenidən təmasda olması dünya üçün yaxşı xəbərdir. Çinin Dövlət Sədri Sini daha yaxşı tanıyıram, çünki onunla dəfələrlə görüşmüşəm. Prezident Trampla rəsmi görüşüm olmayıb, sadəcə, bir-birimizin əlini sıxmışıq. Bununla belə, bu, dünya iqtisadiyyatı, sabitlik üçün yaxşı bir işarə, siqnaldır. Çünki Çin və ABŞ dünyanın iki ən böyük iqtisadiyyatına malik aparıcı ölkələrdir".

Yazımızı çinli telejurnalistin liderliklə bağlı sualına Prezident İlham Əliyevin verdiyi cavabla bitirmək istərdik: "Liderlik, əlbəttə ki, böyük bir məsuliyyətdir və ən önəmlisi ondan ibarətdir ki, lider həmişə öz xalqına, öz əhalisinə münasibətdə ədalətli olmalıdır. Heç vaxt xalqına yalan danışmamalısan və xalq bunu yüksək qiymətləndirəcək".

Bir il bundan əvvəl məhz xalqın etimad göstərərək 5-ci dəfə Azərbaycan Respublikasının Prezidenti seçdiyi İlham Əliyevin siyasi liderliyi və diplomat səriştəsi, fəhmi və yenilməz əzmi ilə yurdda və cahanda sülhün bərqərar olmasına bundan sonra da ciddi töhfələr verəcəyinə əminik.

***İmran BƏDİRXANLI***
***XQ***

# Bəşəri inkişafın yeni coğrafi yolu

**"Çin və ABŞ dünyanın iki ən böyük iqtisadiyyatına malik aparıcı ölkələridir. Əlbəttə ki, müxtəlif məsələlərdə onların arasında konsensusun olması, qarşıdurmanın deyil, əməkdaşlığın olması, sözsüz ki, bütün ölkələrin xeyrinə olacaq". – Bu ali arzu və niyyət ancaq humanist başlanğıcdan çıxış edən bir rəhbərin siyasətinin şah mətləbi, ana xətti ola bilər.**

Prezident İlham Əliyevin Davosda Çinin CGTN (China Global Television Network) telekanalına verdiyi müsahibə Azərbaycan–Çin münasibətlərinin, Azərbaycan–ABŞ münasibətlərinin, habelə ölkəmizin son illərdə qazandığı uğurların dürüst ideoloji mövqedən, nəzəri dərinlik və praktik universallıqla təhlili, dəyərləndirilmə gerçəkliyidir.

Dünyanın ən böyük və ən qədim dövlətlərindən biri olan Çinin bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri hamıya məlumdur. Bu prinsip Azərbaycanın da çağdaş siyasətinə tamamilə uyğun gəlir. Əslində, bu əlaqələrin tarixi ümummilli lider Heydər Əliyevin 1994-cü il martın 7-dən 10-dək Çinə rəsmi səfəri ilə yeni mərhələyə daxil olmuşdur. Ulu öndər Azərbaycan–Çin dövlətləri arasında münasibətlərin inkişaf etdirilməsinə böyük əhəmiyyət vermişdir. Onun rəhbərliyi ilə Çin dövlətinə səfər zamanı ölkələr arasında səkkiz müqavilə imzalanmışdır. Sabit və sağlam əsasda inkişaf edən həmin əlaqələr bu gün də davam edir. Prezident İlham Əliyevin 2005-ci və 2015-ci illərdə Çinə rəsmi səfərləri iki ölkə arasında əməkdaşlığı daha da inkişaf etdirdi. Bakı ilə Pekin arasında bütün sahələrdə əməkdaşlıq genişləndi. Bu siyasi, iqtisadi əlaqələr qədim tarixi münasibətlərə malik Azərbaycan–Çin mədəni, ədəbi, elmi əlaqələrinin də inkişafını şərtləndirdi.

Haşiyə çıxaraq qeyd edim ki, Azərbaycan və Çin arasında elmi, ədəbi münasibətlər hər zaman yüksək səviyyədə olub. 2015-ci ildən AMEA-nın Ədəbiyyat İnstitutu ilə Çinin Konfutsi İnstitutu arasında müqavilə imzalanmış və Ədəbiyyat İnstitutunda daxilində Çin Tədqiqatları Mərkəzi fəaliyyətə başlamışdır. 2017-ci ildə bizim "Kitabi Dədə Qorqud" dastanının Çin dilinə tərcümə olunması böyük hadisə idi. Konfutsinin siyasi təlimi, humanizm prinsipləri XX yüzilin əvvəllərində "Füyuzat" jurnalından başlayaraq, Azərbaycanda istinad edilən, öyrənilən təlim, dünyagörüşdür, – desəm, yanılmaram yəqin.

Prezident İlham Əliyevin Çinlə qarşılıqlı əməkdaşlığa önəm verməsi iki ölkənin mənəvi-siyasi baxımdan yaxınlaşması üçün növbəti strateji addımlardan biridir. Xüsusilə də, bu yaxınlıq ötən il iki ölkə arasında uğurlu tərəfdaşlıq üzrə bəyannamənin qəbulundan sonra daha vüsətli şəkil alıb. Həmin bəyannamənin imzalanması dövlətçilik tariximizin mühüm proseslərindən olmaqla yanaşı, gələcək dostluq və əməkdaşlıq münasibətlərinin güclənməsində həlledici amil səciyyəsi daşıyır. Bunu müsahibəsi zamanı İlham Əliyev də xüsusi olaraq vurğuladı: "Ötən il Çin və Azərbaycan rəsmi olaraq strateji tərəfdaş oldular. Ötən yay Çinin Sədri ilə görüşdən sonra strateji tərəfdaşlıq üzrə müvafiq Bəyannamə qəbul edildi və bu, ikitərəfli əlaqələrdə çox mühüm siyasi addımdır. Strateji tərəfdaşlıq çox yüksək səviyyəli qarşılıqlı etimad, əməkdaşlıq deməkdir və təkcə Ümumdünya Ticarət Təşkilatına deyil, müxtəlif beynəlxalq təşkilatlara qoşulma məsələsi daxil olmaqla Çin ilə tərəfdaşlığımızın genişləndirilməsini arzulayırıq".

Bu gün Çin və Azərbaycanın qlobal ticarətə töhfə verəcək ən mühüm layihə olan Orta Dəhlizdəki fəaliyyət mühüm əhəmiyyət daşıyan faktlardan biridir. Azərbaycan Orta dəhlizin ən mühüm nöqtələrindən birinə çevrilir, Şərq–Qərb istiqamətində daşımaların tranzit qovşağı kimi beynəlxalq daşımaların axıcılığını təmin edir. Bu gün beynəlxalq ticarətə maraqlı olanlar da Azərbaycanın bu geostrateji və coğrafi mövqeyinin əhəmiyyətini nəzərə alaraq Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yaradılmasında xüsusi təşəbbüskarlıq göstərir, dəstək verirlər.

Prezidentin müsahibəsində COP29-un mühüm nailiyyətlərindən, 200 dövlətin Azərbaycana göstərdiyi etimaddan, Azərbaycanın beynəlxalq arenada qazandığı nüfuzdan bəhs etməsi yaxın tarixin qürurverici məqamı kimi qeyd olunmalıdır: "Hədəf Azərbaycanın dünyanın siyasi və iqtisadi xəritəsində öz yerini tutmasından ibarət idi. Təxminən 200 ölkəni bir araya gətirən iqlim konfransına evsahibliyi etmək böyük çağırış, böyük məsuliyyət, eyni zamanda, böyük nailiyyət idi. Azərbaycanın şaxələnmiş xarici siyasətinin daha bir nümayişi ondan ibarət idi ki, namizədliyimizi, təqribən 200 ölkə və beynəlxalq təşkilat yekdilliklə dəstəklədi".



Bundan əlavə 120 ölkəni birləşdirən, BMT Baş Assambleyasından sonra ikinci böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına Azərbaycanın 4 il uğurla sədrlik etməsini də ölkə başçısı ilk növbədə, dostluğa, əməkdaşlığa, heç bir ölkənin daxili işlərinə qarışmamağa əsaslanan siyasətin beynəlxalq arenada dəstəklənməsinin zəmini kimi vurğuladı. Azərbaycanın ən mühüm nailiyyəti olaraq ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi, həmçinin bunu beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq, BMT Nizamnaməsinə və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həyata keçirməsi ölkəmiz üçün həm ədalətin bərpası, həm də Azərbaycanın haqq davasının layiqli şəkildə sonuclanması demək idi: "Demək olar ki, 30 il ərzində bu, milli ideyamız idi və hədəfimizə nail olmaq, ədaləti bərpa etmək üçün bütün səylərimizi səfərbər etdik. Əfsuslar olsun ki, beynəlxalq hüququn normaları işləmədi və beynəlxalq təşkilatlar yardımçı olmadılar. Çünki çoxsaylı beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qətnamələr, sadəcə, kağız üzərində qalmışdı. Bunu özümüz həll etməli, ədaləti özümüz bərpa etməli olduq".

Burada diqqətimi çəkən daha bir amil oldu. Prezident üç amilin üzərində dayanır və onları Qələbəmizə gətirən yolun təməli, zəmini hesab edir: "İdeologiya, iqtisadiyyat və milli ideyalar – bunlar hamısı birlikdə Azərbaycanı layiq olduğu yerə gətirib çıxardı". Bəli, sağlam, möhkəm özülü ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan azərbaycançılıq ideologiyası, sabit, dayanıqlı iqtisadiyyat və milli məfkurəyə xidmət edən milli ideyalar! O ideyalar ki, ötən illər ərzində xalqın içindəki milli ruhun, mücadiləçi əzmin əriyib yoxa çıxmasına imkan vermədi.

Prezidentin müsahibəsində ABŞ və Çin münasibətlərinin yeni məcrada davam etməsini stimullaşdıran bir dost münasibəti, dost rəftarı hakimdir. Bu, yalnız öz ölkəsinin deyil, bütün xalqların və insanların sakit və müharibələrsiz yaşayışını arzulayan və bunun üçün çalışan Azərbaycan liderinin baxış yönü, həyat tərzidir. Belə bir müstəsnalığı tale məhz Azərbaycan xalqına nəsib edib. Qanı, savaşı, xaosu deyil, qarşılıqlı sevgi və əməkdaşlığı üstün tutan, prioritetə çevirən, dostluğa, sabitliyə sevinən və can atan lider obrazıdır İlham Əliyev! "Çin və ABŞ dünyanın iki ən böyük iqtisadiyyatına malik aparıcı ölkələrdir. Əlbəttə ki, müxtəlif məsələlərdə onların arasında konsensusun olması, qarşıdurmanın deyil, əməkdaşlığın olması sözsüz ki, bütün ölkələrin xeyrinə olacaq". – Bu ali arzu və niyyət ancaq humanist başlanğıcdan çıxış edən bir rəhbərin siyasətinin şah mətləbi, ana xətti ola bilər.

Prezident İlham Əliyev müsahibəsində həm qlobal prioritetlərin formalaşmasında, həm də bərabərliyə və inklüzivliyə əsaslanan dünyanın yaranmasında Qlobal Cənubun artan rolunu və təsirini əks etdirdi. Azərbaycan daim qarşılıqlı hörmət və həmrəyliyə önəm verən ölkə olmaq məziyyəti ilə seçilib. Bunu Prezident İlham Əliyev Davosda Çinin CGTN telekanalına verdiyi müsahibəsində bir daha təsdiqlədi. Bildirdi ki, Çinin irəli sürdüyü yeni əməkdaşlıq modeli – "Bir kəmər, bir yol" layihəsi ona yalnız Çinlə münasibətlərinin tarixi köklərinin yeni çağırışlar əsasında davamı üçün deyil, həm də məhz Qlobal Cənubla Qlobal Şimalın konstruktiv iş birliyinin əməli varlığını görmək istədiyi üçün dəyərlidir. Çünki yalnız belə münasibətlər sistemi bəşəriyyətin nicatı üçün vacib amildir: "Qlobal Cənubun bir hissəsi olaraq Qlobal Cənubun maraqlarını müdafiə etmişik və yeri gəlmişkən, COP29-a qayıdaraq ideyalarımızdan biri Qlobal Cənubla Qlobal Şimal arasında daha möhkəm körpülər qurmaq idi. Çünki COP29-a ev sahibliyi edən ölkə kimi gördük ki, iqlim məsələlərinə gəldikdə, hər iki tərəf müəyyən səviyyədə bir-birinə etibar etmir və söhbət təkcə iqlimdən getmir". Ölkə başçısının bəyan etdiyi kimi, Qlobal Cənubla Qlobal Şimal arasında qurulan körpülər qlobal problemlərin həlli baxımından Çin və ona tərəfdaş ölkələrin bir araya gəlməsi, sülh və həmrəylik təşəbbüslərinin uca kürsüdən səsləndirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edən platforma ola bilər.

Ümumiyyətlə, mahiyyətində xaos deyil, harmoniya ehtiva edilən, birlik və əməkdaşlığa əsaslanan ideya irəli sürən, sülhü və dostluğu dəstəkləyən hər şey təqdirəlayiqdir. Öz sosial-siyasi görüşlərinin miqyası və məzmunu, sülh və həmrəyliyə, onun gücünə, humanist mahiyyətə verdiyi qiymət, əqli-əxlaqi-sosial təkamül idealı ilə Azərbaycan Prezidentinin mövqeyi, əslində, bu gün iqtisadiyyat, bərabərlik, açıqlıq və əməkdaşlıq üçün çağırışa səsləmək missiyasının göstəricisidir. Dünyanın daha çox kataklizmlərə təşviq edildiyi, əksər xalqların və dövlətlərin nizamının pozulduğu indiki dövrdə daim birgə olmaq şüarları ilə bəşəriyyətə səslənmək və bunu məhəbbət düsturu kimi irəli sürmək ancaq təqdir oluna bilər.

Vaxtilə alman filosofu L.A.Feyerbax məhəbbət dini yaratmağı irəli sürmüşdü. Amma göründüyü kimi, nə cahanda məhəbbət qalib gəlir, nə də gözəllik dünyanı xilas edir. Amma bütün hallarda nicat, qurtuluş var: "Liderlik, əlbəttə ki, böyük bir məsuliyyətdir və ən önəmlisi ondan ibarətdir ki, lider həmişə öz xalqına, öz əhalisinə münasibətdə ədalətli olmalıdır. Heç vaxt xalqına yalan danışmamalısan və xalq bunu yüksək qiymətləndirəcək. Bəzən müəyyən siyasi səbəblər üzündən hakimiyyətə can atan liderlər çoxlu vədlər verir və sonra onları yerinə yetirmir və bu da məyusluğa, inamsızlığa gətirib çıxarır. Bu, dünyanın müxtəlif yerlərində siyasi böhrana gətirib çıxarır.

İyirmi ildən artıq müddət ərzində həmişə Azərbaycan xalqına həqiqəti söyləmişəm. Bu həqiqətin müsbət və ya mənfi olmasından asılı olmayaraq. Həmişə xalqıma ədaləti bərpa edəcəyik söyləmişəm və xalqım da mənə inanıb. 17 il hakimiyyətdə olandan sonra nəhayət, vəd etdiklərimizi yerinə yetirdik və suverenliyimizi, ərazi bütövlüyünü və ləyaqətimizi bərpa etdik. Beləliklə, ictimaiyyətin dəstəyini əldə etmək istəyən liderlərə məsləhətim o olardı ki, həmişə həqiqəti söyləyin və beynəlxalq təzyiqdən, beynəlxalq mediadan asılı olmayaraq, haqqınızda nə dediklərindən, sizi necə adlandırdıqlarından, sizi necə təhqir etmələrindən asılı olmayaraq, ölkəniz üçün doğru olanı edin. Beləliklə, siz özünüz və ölkəniz uğur qazanmış olacaqsınız".

Göründüyü kimi, Prezident İlham Əliyev bunu uğurlu lider obrazı ilə səciyyələndirir və çıxış yolunu elə bu müstəvilərdə arayır. Yalnız aramır, öz liderliyinin müstəsnalığı timsalında meyara çevirməyi bacarır. Bu mənada, yeni təfəkkür və əxlaqın, əqli-mənəvi düşüncənin təlqinində, milli-bəşəri dəyər və beynəlmiləl sərvət axtarışının indiki mərhələsində ölkə başçısının ali niyyəti bir gerçəklik, uğur və əməl cizgiləri kəsb edir. Bu uğur və əməl vəhdətindən isə cızılan yeni yol xəritələri, qurulacaq dostluq körpüləri və açılacaq yeni üfüqlər görünür: "Əlbəttə ki, milli maraqlarımızı, həyat tərzimizi və müstəqil siyasətimizi qəti şəkildə müdafiə etmişik və çoxlu uğur qazanmışıq. Dünya xəritəsində nisbətən yeni olan Azərbaycanın öz milli maraqlarını müdafiə edən və bütün dünyada yaxşı əlaqələr quran ölkə kimi nümunəsi onu göstərir ki, cəmiyyətdə sabitlik, birlik varsa, siz öz maraqlarınızı müdafiə edə bilərsiniz".

***Elnarə AKİMOVA,***
***Milli Məclisin deputatı,***
***filologiya elmləri doktoru***

**Ümummillli lider Heydər Əliyevin gələcəyə hesablanmış məqsədyönlü siyasəti nəticəsində ölkəmiz sürətli sosial-iqtisadi inkişaf yoluna qədəm qoyub. Ulu öndərin sosial-iqtisadi inkişaf strategiyasını inamla və uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu gün bütün dünyada sabitlik məkanı, iqtisadi tərəqqi ünvanı və etibarlı tərəfdaş kimi tanınır. Zəngin yeraltı və yerüstü sərvətlərini uzunmüddətli tərəqqiyə və beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə yönəltməyi bacaran Azərbaycan özünü təmin edən iqtisadiyyat qurmağa nail olub. Bunun nəticəsidir ki, ölkəmiz müstəqilliyini bərpa etdikdən bəri dünya birliyində layiq olduğu yerdə qərarlaşıb.**

# Azərbaycan sabitlik məkanı, qlobal çağırışlar ünvanıdır

### *Ölkəmiz özünü təmin edən iqtisadiyyat nümunəsi yaradıb*

Təsadüfi deil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda "China Global Television Network" telekanalına müsahibəsi zamanı aparıcının çoxqütblü dünyada Azərbaycanın yeri ilə bağlı sualını cavablandıraraq deyib: "Biz güclü iqtisadiyyat, yeri gəlmişkən, özünü təmin edən iqtisadiyyat qurduq. Ümumi daxili məhsula nisbətdə xarici borcun səviyyəsi çox aşağıdır, cəmi 6,9 faizdir. Buna əsaslanaraq biz regionda bağlantılar yaradan genişmiqyaslı layihələr həyata keçirmişik və aid olduğumuz Cənubi Qafqaz və Xəzər regionunda etibarlı mövqe tutmuşuq. Əlbəttə ki, milli maraqlarımızı, həyat tərzimizi və müstəqil siyasətimizi qəti şəkildə müdafiə etmişik və çoxlu uğur qazanmışıq. Mən deyərdim ki, dünya xəritəsində nisbətən yeni olan Azərbaycanın öz milli maraqlarını müdafiə edən və bütün dünyada yaxşı əlaqələr quran ölkə kimi nümunəsi onu göstərir ki, cəmiyyətdə sabitlik, birlik varsa, siz öz maraqlarınızı müdafiə edə bilərsiniz".

Ötən ilin noyabrında paytaxtımızda keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası isə Azərbaycanın beynəlxalq nüfuzunun bir qədər də artmasına, ölkəmizin müasir dünyanın qlobal çağırışlarının ön sıralarında mövqeyinin güclənməsinə səbəb oldu. COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərarın bütün iştirakçı dövlətlər və qurumlar tərəfindən dəstəklənməsi də ölkəmizə olan inamın nəticəsi idi. Əslində 200-ə yaxın ölkəni bir araya gətirən belə bir mötəbər iqlim tədbirinə ev sahibliyi etmək böyük çağırış olmaqla yanaşı, həm də məsuliyyət tələb edirdi. Dövlətimizn başçısı Çin televiziyasına müsahibəsi zamanı bu vacib məqama toxunaraq qeyd edib ki, COP29-a ev sahibliyi etməkdə məqsəd, ilk növbədə, Azərbaycan Respublikasının dünyanın siyasi və iqtisadi xəritəsində öz yerini tutmasından ibarət idi. Azərbaycan üçün yüksək nailiyyət sayılan COP29, həm də son illər ölkəmizin şaxələndirilmiş xarici siyasətini bütün dünyaya bir daha nümayiş etdirdi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmizin 120 dövləti birləşdirən, BMT Baş Assambleyasından sonra ikinci böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına 4 il ərzində uğurla sədrlik etməsi onu göstərir ki, Azərbaycanın dostluğa, əməkdaşlığa, heç bir ölkənin daxili işlərinə qarışmamağa əsaslanan siyasəti beynəlxalq arenada dəstəklənir.

Məhz bu inamın və dəstəyin nəticəsi idi ki, Azərbaycan üzərinə düşən vəzifələri bu dəfə də artıqlaması ilə yerinə yetirməyə müvəffəq oldu. Əvvəlki iqlim konfranslarından fərqli olaraq COP29-da bir sıra uğurlu nailiyyətlər əldə edildi. Bu baxımdan inkişaf etməkdə olan ölkələrə 1,3 trilyon dollarlıq iqlim maliyyəsini təmin etmək üçün yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi sənədi diqqəti xüsusilə cəlb edir. Xatırladaq ki, bu sənəd 2035-ci ilə qədər hər il, ən azı, 300 milyard dollar vəsaitin səfərbər olunmasını nəzərdə tutur. Məhz bu səbəbdəndir ki, COP29 iqlim diplomatiyasında dönüş nöqtəsi kimi dəyərləndirilir. Yeri gəlmişkən, inkişaf etmiş ölkələr üzərlərinə böyük iqlim öhdəliyi götürmək istəməsələr də, diplomatik danışıqlar və gərgin müzakirələr müsbət nəticə verdi. Heç şübhəsiz, bu məsələdə Azərbaycan dövlətinin və onun rəhbərinin nüfuzu, siyasi məharəti böyük rol oynadı.

Azərbaycan Qlobal Cənubun bir hissəsi olaraq onun maraqlarının müdafiəçisi kimi çıxış edir. Ölkəmiz bütün məsələlərdə olduğu kimi, iqlim dəyişikliyi sahəsində də Qlobal Cənuba dəstəyini nümayiş etdirir. Bu ideyaya sadiq qalan Azərbaycan COP29-da da Qlobal Cənubla Qlobal Şimal arasında daha möhkəm körpülər qurmaq istəyini bir daha bəyan etdi. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan COP29-a ev sahibliyi edən ölkə kimi bir daha əmin oldu ki, iqlim məsələlərində hər iki tərəf müəyyən səviyyədə bir-birinə etibar etmir. Məlum olduğu kimi, kiçik ada dövlətləri iqlim dəyişikliklərinin mənfi təsirlərinə daha çox məruz qalsalar da, inkişaf etmiş ölkələr buna bir o qədər də əhəmiyyət vermirdilər. Bakı iqlim konfransı bu baxımdan da dönüş nöqtəsi oldu. Məhz COP29-da Azərbaycan kiçik ada dövlətlərinin üzləşdikləri problemləri beynəlxalq səviyyədə qaldıra bildi. COP29 çərçivəsində kiçik ada dövlətlərinin Zirvə görüşü bir sıra məsələlərə aydınlıq gətirdi.

Prezident İlham Əliyevin Çin televiziyasına müsahibəsində maraqlı məqamlardan biri də "yaşıl" enerji əməkdaşlığı ilə bağlıdır. Ölkəmiz son illər dünyanın prioritet elan etdiyi "yaşıl keçid" platformasının fəal iştirakçılarından birinə çevrilib. Hazırda bir sıra tanınmış beynəlxalq şirkətlər və nüfuzlu maliyyə qurumları "yaşıl" texnologiyaya və "yaşıl" enerjiyə sərmayə yönəldirlər. Zəngin bərpaolunan enerji ehtiyatlarına malik olan Azərbaycan da investorlar üçün yaxşı investisiya mühiti yaradıb. Artıq "yaşıl" enerji sahəsində fəaliyyət göstərən bir sıra beynəlxalq şirkətlər ölkəmizlə bu sahədə fəal əməkdaşlıq edirlər. Bunun da nəticəsində ölkəmizdə bərpaolunan enerji istehsalı getdikcə artır. Təkcə onu qeyd etmək kifayətdir ki, 2024-cü ildə Azərbaycanda "yaşıl" enerji mənbələri üzrə elektrik enerjisi istehsalı əvvəlki ilə nisbətən 1 milyard 728,7 milyon kilovat-saat artaraq 3 milyard 850,9 milyon kilovat-saata çatıb. Bununla belə, ölkəmizin bərpaolunan enerji potensialı olduqca yüksəkdir. Prezident İlham Əliyev Çin televizisiyasına müsahibəsində bu məqama toxunaraq deyib: "Bizim 2027-ci ilə qədər olan hədəfimiz 2 giqavat həcmində günəş və külək elektrik enerjisini hasil etməkdir. 2030-cu ilə qədər isə bu hədəf 6 giqavatdır. Bu, Azərbaycanda enerji sahəsində bir inqilab olacaqdır".

Son illər ölkəmizlə iqtisadi əlaqələrini genişləndirməkdə maraqlı olan Çin dövləti "yaşıl" texnologiya sahəsində dünya liderinə çevrilib. Məhz bunun nəticəsidir ki, əksər şirkətlər bərpaolunan enerji layihələrinin reallaşdırılmasında Çin texnologiyasından istifadəyə üstünlük verirlər. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin ölkəmizdə inşa etdiyi "Qaradağ" Günəş Elektrik Stansiyasında quraşdırılmış əsas qurğu və avadanlıqların, demək olar ki, hamısı Çinin dünyaca məşhur şirkətlərinin istehsalıdır. Burada quraşdırılmış 570 min 720 ədəd günəş paneli də məhz bu ölkədən alınıb. Təsadüfi deyil ki, dövlətimizin başçısı müsahibəsində hazırda Azərbaycanın işçi heyətlərinin enerjinin tədarükü imkanları üzərində işlədiklərini vurğulayaraq deyib ki, artıq ən yaxşı batareyaların Çində istehsal olunduğu müəyyən edilib.

Hazırda "yaşıl " enerjinin istehsalı ilə yanaşı, onun nəqli imkanları üzərində də fəal danışıqlar, qızğın müzakirələr gedir. Məlum olduğu kimi, 2022-ci ilin dekabrında "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl" enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Qara dəniz regionunun "yaşıl" enerji dəhlizi kimi yaradılmasında dönüş nöqtəsi olan bu saziş iddialı layihənin – Azərbaycanın nəhəng bərpaolunan enerji resurslarını Gürcüstan və Rumıniya vasitəsilə Avropa enerji şəbəkəsi ilə birləşdirəcək Qara dəniz enerji sualtı kabelinin tikintisinin əsasını qoyub. İcrası 3-4 il davam edəcək layihəyə Avropa Komissiyası 2,3 milyard avro ayırmağı planlaşdırır.

COP29-da isə Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında Xəzər dənizinin dibi ilə enerji kabelinin çəkilməsi barədə müqavilə imzalanıb. Qeyd edək ki, bu layihə ilə Mərkəzi Asiya ilə Azərbaycanın və potensial olaraq Çinin enerji kabeli ilə bağlantı imkanı yaradacaq. Bununla yanaşı, Prezident İlham Əliyev müsahibəsində qeyd edib ki, hazırda Çin şirkətləri təkcə xidmət və texnologiyaların təmin edilməsində yox, həmçinin Azərbaycana investisiya yatırılmasında maraqlıdırlar. Bu da iki ölkə arasında ticarət və investisiya əlaqələrinin daha da möhkəmlənməsinə təkan verəcək.

***M.YAQUBZADƏ***
***XQ***

# Ərazi bütövlüyünün təmini milli ideya kimi

***Prezident İlham Əliyevin Çinin CGTN telekanalına müsahibəsinin siyasi-nəzəri təhlili***



I MƏQALƏ

## Müstəqillik və ərazi bütövlüyü

Müasir fəlsəfi və politoloji araşdırmalarda bütövlükdə, "dövlət" anlayışı ciddi təftiş olunur. Klassik anlamda dövləti artıq qəbul etmirlər və onun məzmunca təkmilləşdirilməsi ehtiyacını vurğulayırlar. Dünyanın müxtəlif tanınmış elm adamlarının tədqiqatlarında həmin kontekstdə son illər iki faktoru dövlətçilik üçün strateji əhəmiyyəti olan amil kimi təqdim edirlər. Onlardan biri ərazi bütövlüyüdür, digər isə suverenlik. Məsələn, Frensis Fukuyama son əsərlərində suverenliyi dövlətin əsas atributlarından biri kimi izah edir. Qərbin başqa tədqiqatçıları da ərazi bütövlüyü ilə suverenliyi müasir dövlətçiliyin əsas atributları sırasında təhlil edirlər.

Bu, ümumfəlsəfi səviyyədə dövlətin ərazisi, funksiyası və identikliyinə yeni baxışdır. Ərazi artıq sadəcə coğrafi determinant deyildir –dövlətin mövcudluğu və real fəaliyyəti çərçivəsində onun fəlsəfi, nəzəri və politoloji anlamı əhəmiyyətlidir.

Bu məqam Azərbaycanın xarici siyasətində 1993-cü ilin ikinci yarısından özəl yer tutmuşdur. Hətta Avrasiya məkanında dövlət quruculuğu, müstəqillik, ərazi bütövlüyü və suverenliyin qarşılıqlı münasibətlərində nümunə ola biləcək bir daxili bağlantı yaradılmışdır.

Həmin kursun banisi ulu öndər Heydər Əliyevdir. Ümummilli liderin bu nəzəri və praktiki yeniliyini Prezident İlham Əliyev inkişaf etdirir və onu yaradıcı surətdə meydana gələn gözlənilməz geosiyasi şərtlərə çevik adaptasiya edir.

Azərbaycan dövlət başçısının bu aspektdə yaradıcı fəaliyyətinin gözəl nümunələrindən biri də bu il Davosda Çinin CGTN telekanalına verdiyi müsahibədə ifadə etdiyi tezislərdə əksini tapmışdır. Həmin müsahibə kontekstində dövlətin müstəqilliyi ilə ərazi bütövlüyünün təmini probleminin Azərbaycan təcrübəsinə baxacağıq. Öncə Heydər Əliyevin siyasətdə bu mövzuda etdiyi yeniliyi izah etməyə çalışaq.

## Böhranlı şərait və əraziyə təcavüzlər

Azərbaycanın dövlət kimi real vəziyyəti arzuolunan səviyyədə deyildi. Kənar təcavüz dövlətin ərazi bütövlüyünü pozmaqda davam edirdi və bu prosesə dünyanın böyük gücləri ciddi havadarlıq edirdilər. Onlar bütün vasitələrlə Azərbaycanı məcbur etməyə çalışırdılar ki, dövlətçiliyin mühüm atributu olan ərazi bütövlüyündən imtina etsin.

Nəticədə Bakı üçün iki səviyyədə çətin situasiya yaranmışdı; birincisi, dövlətin özünümüdafiə sistemi hərbi, idarəetmə, sosial, iqtisadi, ideoloji və informasiya aspektlərində tələb olunan səviyyədə formalaşmamışdı, ikincisi, regional və qlobal miqyasda Azərbaycanın təbii hüquqlarını müdafiə edən güclü dövlət faktiki olaraq yox idi.

Belə şəraitdə dövləti necə xilas etmək olardı? Bir müqayisə aparaq. İndi Ukraynada baş verənlər göstərir ki, ərazisinə təcavüz edilmiş yeni müstəqil dövlətin onu bərpa etməsi olduqca çətin məsələdir. Xüsusilə dövlətin tam müstəqilliyini və suverenliyini təmin etmək şərti ilə bunu etmək, demək olar ki, mümkündür. Hazırda Ukrayna məhz bu iki faktorla bağlı böyük güclərin siyasi, diplomatik və hərbi mənqənəsində çapalayır, lakin çıxış yolu görünmür. Çox güman ki, bu gözəl ölkəni sərvətlər və ərazi sferaları üzrə bölüşdürəcəklər.

Keçən əsrin 90-cı illərində Azərbaycan indiki Ukraynadan daha çətin vəziyyətdə idi. Birincisi, dövlət kimi yeni müstəqil olmuşdu və buna görə də siyasi institutları çox kövrək idi. Ukraynanın isə indi onillikləri əhatə edən təcrübəsi vardır. İkincisi, Ukrayananın ABŞ başda olmaqla Qərbin timsalında ciddi geosiyasi və siyasi-hərbi dəstəyi mövcuddur. Azərbaycana isə heç kəs arxa durmadı və ya dura bilmədi.

Deməli, bir neçə aspekt üzrə Azərbaycanın keçən əsrin 90-cı illərinin siyasi, hərbi, geosiyasi, ideoloji, informasiya və s. böhranları fonunda xilas olması şansı çox aşağı idi. Məhz bu anda həmin dövrdə liderin zəkası, diplomatiyası, dövlət quruculuğu kursu və praktiki fəaliyyətinin fəlsəfi və politoloji tədqiqi yüksək aktuallığı ilə göz önünə gəlir. Azərbaycan təcrübəsi bu kimi faktorlara görə, dünya üçün həqiqi mənada bir nümunədir. XXI əsrdə onun Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilməsi ayrıca liderlik nümunəsidir.

## Heydər Əliyev yolu

Məsələnin nəzəri tərəfi heyrətamizdir. Çünki Avrasiyada ilk dəfə çox çətin vəziyyətdə olan yeni müstəqil dövlətin başçısı dövlət quruculuğunda konseptual yenilik etmişdir. Heydər Əliyev "ərazi bütövlüyü" anlayışını coğrafi faktorluqdan dövlətçilik kontekstində "dövlətin və cəmiyyətin bütövlüyü" anlamına realpolitika müstəvisində proyeksiya edə bilmişdir. Konkret olaraq, Ulu öndər dövlətin coğrafi bütövlüyü anlamı ilə "real müstəqil dövlət olmaq" anlamı arasında fəlsəfi, siyasi-nəzəri kontekstlərdə vəhdət yarada bilmişdir. Bununla, ilk dəfə olaraq, "bütövlük" anlayışının coğrafi aspekti uğurlu şəkildə "dövlət və cəmiyyətin bütövlüyü" anlamına proyeksiya olunmuşdur. Burada vurğulanan faktorların real məzmununu ifadə edən çox zərif bir "məna zonası" vardır. Məhz o sərhəd daxilində coğrafi bütövlüklə dövlət və cəmiyyətin bütövlüyü realpolitika müstəvisində konkret məzmun ala bilir. Bu da ümumi səviyyədə dövlətçilik kontekstində "bütövlük" anlayışının nəzəri dərkində yeni mərhələnin əsasının yaradılması deməkdir.

Postsovet məkanının gerçək mənzərəsində hələlik, bu, başqa bir liderə müyəssər olmamışdır.

Həmin proyeksiyanın başlıca fəlsəfi və politoloji özəlliyi nədən ibarət idi? Çox əlamətdar və maraqlıdır: Ulu öndər ərazi bütövlüyünü sırf coğrafi kontekstdən çıxarıb müstəqil dövlət kontekstinə konseptual olaraq daxil etmək üçün "milli ideya" ("zərif məna zonası") anlayışından istifadə etmişdir!

Bu proyeksiya avtomatik olaraq Azərbaycanı bir sıra daxili və xarici neqativ təsirlərdən xilas edirdi. Hər şeydən öncə, onun təcavüzkarlıq çaları yox idi. Bundan başqa, parçalanmaq ərəfəsində olan cəmiyyəti vahid məqsədə, ideyaya milli tələbat kimi fokuslandırır, səfərbər edirdi.

Nəhayət, beynəlxalq hüquqdan süni istifadə edənlərin yolu kəsilirdi, çünki Azərbaycan dövlətçilik üçün beynəlxalq hüququn zəruri hesab etdiyi bir məsələni – ərazi bütövlüyünü özünün milli ideyası statusunda təqdim edirdi!

Bu anlamlara etiraz etmək mümkün deyildi! Əlac qalırdı onun reallaşmasına süni əngəllər törətməyə cəhdlərə. 1994-cü il və 1995-ci illərdə iki dəfə dövlət çevrilişinə cəhd etməyə bir də bu bucaq altında baxmaq faydalı olardı. Həmin əngəlin başqa bir tərəfi Heydər Əliyevin enerji strategiyasını böyük məharət və uğurla müstəqil dövlət quruculuğu konseptinin mühüm atributlarından birinə çevirə bilməsi idi.

Beləliklə, indi biz Azərbaycanın dövlət olaraq uğurlarından bəhs edəndə Heydər Əliyevin çox çətin dönəmlərdə dövlət quruculuğu kursunu realpolitika çərivəsində perspektivi müəyyən etməsini mütləq vurğulamalıyıq.  Bu kontekstdə də XXI əsrin ən uğurlu liderlərindən olan Azərbaycan Prezidenti İlham Əliyevin andiçmə mərasimində, müxətlif rəsmi tədbirlərdə (xüsusilə, regional və beynəlxalq təşkilarda), beynəlxalq forumlar və konfranslarda, fərqli ölkələrin KİV-lərinə verdiyi müsahibələrdə və o cümlədən son olaraq Çin telekanalına müsahibsində irəli sürdüyü əsas tezislərinin mənasına varmalıyıq.

Burada Prezident İlham Əliyevin Çin telejurnalistinə müsahibəsində işlətdiyi əhəmiyyətli tezisin fəlsəfi və politoloji mənasına Ulu öndərin ərazi bütövlüyünü milli ideya kontekstinə proyeksiya etməsi fonunda baxmağa ehtiyac vardır. İlham Əliyev demişdir: "Ölkəmiz üçün son illərin ən mühüm nailiyyəti ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası oldu. Biz bunu beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq, BMT Nizamnaməsinə və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həyata keçirdik. Demək olar ki, 30 il ərzində bu, bizim milli ideyamız idi və biz hədəfimizə nail olmaq, ədaləti bərpa etmək üçün bütün səylərimizi səfərbər etdik".

Bu fikirdə faktiki olaraq ərazi bütövlüyünün milli ideyaya Heydər Əliyev mənasında proyeksiyasının başlıca nəzəri və praktiki cəhətləri realpolitika müstəvisində ifadə edilmişdir.

Birincisi, ərazi bütövlüyü suverenliyin təmini ilə hüquqi və siyasi aspektlərdə vəhdətdə götürülür.

İkincisi, ərazi bütövlüyünün milli ideyaya proyeksiyası ayrıca proses olaraq beynəlxalq hüquq normaları ilə BMT Nizamnaməsinin və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin məzmununu uyğunlaşdırmağa əsaslanır.

Üçüncüsü, ərazi bütövlüyünün bərpası Azərbaycanın milli ideyasının konkret təzahürü kimi ədalətin bərpası üçün vacib məqam olaraq qəbul edilir.

Bu tezislərin kompleks halında anlamından Azərbaycan Prezidentinin gəldiyi bir politoloji qənaət qlobal geosiyasətin müasir mərhələsi üçün olduqca əhəmiyyətli bir özəlliyi anlamaqda çox faydalıdır. Azərbaycanın dövlət başçısı müsahibəsində fikrinə belə davam edir: "Əfsuslar olsun ki, beynəlxalq hüququn normaları işləmədi və beynəlxalq təşkilatlar yardımçı olmadılar. Çünki çoxsaylı beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qətnamələr, sadəcə, kağız üzərində qalmışdı. Biz bunu özümüz həll etməli, ədaləti özümüz bərpa etməli olduq. Bu, bir daha onu nümayiş etdirir ki, indi dünyanın həqiqətən də beynəlxalq öhdəliklərə tam hörmət edilməsinə ehtiyacı var".

Bu fikir Cənubi Qafqaz kimi geosiyasi və hərbi cəhətdən çox mürəkkəb olan bir məkanın təcrübəsinin qlobal miqyasda beynəlxalq hüququn təmin edilməsinə təsir imkanları baxımından aktualdır. Belə ki, İlham Əliyev iki siyasi məqamı yığcam ifadə edərək vahid bir məntiqdə sintez edir.

Birincisi, verilən vədlərə baxmayaraq, uzun müddət dünyanın böyük gücləri Azərbaycanın haqqını, hüququnu təmin etmədilər. Bu həqiqətin əlamətlərini də dövlət başçısı konkret vurğulayır: "Beynəlxalq hüququn normaları işləmədi", "beynəlxalq təşkilatlar yardımçı olmadılar" və "çoxsaylı beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qətnamələr, sadəcə, kağız üzərində qalmışdı".

Burada Azərbaycan Prezidentinin bir nəzəri keçidi çox əhəmiyyətlidir. Həmin nəzəri cəhət müxtəlif fəlsəfi və politoloji tədqiqatlarda göstərilir. Lakin realpolitika çərçivəsində onun xüsusi nümunələri kimi faktlar az gətirilir. O məqam beynəlxalq hüququn məzmunu ilə funksiyası arasında yaranmış paradoksal ziddiyyətlə bağlıdır. İlham Əliyev bunu beynəlxalq hüququn normaları ilə beynəlxalq hüququn normalarının təmininə müvəkkil olan mühüm strukturlar kimi beynəlxalq təşkilatların real fəaliyyəti arasında uyğunsuzluq kimi təqdim edir.

Çünki məsələnin iki tərəfi mövcuddur və onlar bir-biri ilə sıx əlaqəlidir. Birinci tərəf beynəlxalq hüququn mahiyyəti və məzmunu ilə bağlıdır. İkinci tərəf isə onun təşkilatalr tərəfindən funksionallaşması dərəcəsi ilə əlaqəlidir.

Lakin ikinci tərəfdə bir mühüm məqamı da öncə Heydər Əliyev, sonra isə İlham Əliyev vurğulamışlar. Ulu öndər 1994 və 1995-ci illərdə BMT-dəki çıxışı zamanı dünyanın böyük güclərini büynəlxalq hüquqa əməl etməyə və münaqişələrin həmin çərçivədə həll edilməsinə çalışmağa səsləmişdi. Heydər Əliyev demişdi ki, bu, baş verməsə bütün dünyanı ciddi geosiyasi və siyasi problemlər gözləyir. XXI əsrin ilk onillikləri bu uzaqgörən proqnozu tam təsdiqləmişdir. Çünki indi dünya həqiqi mənada həlli görünməyən ciddi geosiyasi, siyasi və hərbi problemlərlə üz-üzədir.

İlham Əliyevin müxtəlif beynəlxalq və regional təşkilatlarda irəli sürdüyü təkliflər və etdiyi təşəbbüslər də onu göstərir ki, Azərbaycan rəhbərliyi yaranmış vəziyyətə dünyanın böyük güclərinin müdaxilə etməsini vacib sayır. O cümlədən Prezident İlham Əliyev bir neçə dəfə vurğulamışdır ki, indi dünya hüquqla deyil, güc tətbiqi ilə idarə edilməyə çalışılır. Dövlətlər hüquqa deyil, güc işlətməyə üstünlük verirlər və vəziyyətin ümumi mənzərəsi belədir: "kim güclüdürsə, o da haqlıdır"!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***



# Somali ilə əməkdaşlıq ortaq maraqlara əsaslanır

**Afrika qitəsinin şərqində yerləşən Somali İslam Əməkdaşlıq Təşkilatının (İƏT) və Qoşulmama Hərəkatının üzvüdür. Bu müsəlman ölkəsi İƏT və Qoşulmama Hərəkatı çərçivəsində Azərbaycanla qarşılıqlı hörmətə, dəstəyə və həmrəyliyə əsaslanan mühüm əməkdaşlıq əlaqələrinə malikdir.**

Azərbaycan – Somali diplomatik əlaqələri 2004-cü il mart ayının 22-də qurulub. İki ölkə arasında münasibətlərin möhkəmlənməsinə ötən dövr ərzində, xüsusilə son illərdə Azərbaycan–Somali təmaslarının artması mühüm təsir göstərib. Dövlətlər arasında bir sıra istiqamətlər, o cümlədən kənd təsərrüfatı, balıqçılıq, neft və qaz sənayesi, "yaşıl" enerji, təhsil sahələri üzrə əməkdaşlığın inkişafı üçün kifayət qədər geniş potensial mövcuddur. Bu istiqamətlərdə qarşılıqlı təmasların və təcrübə mübadilələrinin aparılması xüsusi əhəmiyyətə malikdir.

Somali Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyən ölkələrdən biridir. Bundan əlavə, Somali –Türkiyə münasibətləri Azərbaycanın maraqlarına uyğun şəkildə inkişaf edir, çünki Türkiyə Azərbaycan üçün strateji tərəfdaşdır və onun Afrika ilə əməkdaşlığında mühüm rol oynayır.

Uzun illər müstəmləkəçilikdən əziyyət çəkmiş bu qitə bu gün də bəzi hallarda iqtisadi və siyasi asılılıqdan qurtulmaq üçün mübarizə aparır. Bununla yanaşı, sürətli urbanizasiya, texnologiya və infrastruktur sahələrində inkişaf Afrikanın dünya iqtisadiyyatında daha böyük rol oynamağa başlamasına imkan yaradır.

Bütün bunlar barədə Azərbaycan Prezidenti İlham Əliyevlə  ölkəmizə rəsmi səfər edən Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmud arasında  keçirilən görüşlərdə, mətbuata bəyanatlarda ətraflı bəhs edilib. Eyni zamanda, Somali rəhbərinin respublikamıza rəsmi səfərinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin tarixində bir ilk olduğu, bununla sıx dostluq münasibətlərində yeni səhifə açıldığı vurğulanıb.

Azərbaycan liderinin bəyanatında iki ölkə arasında mühüm önəm daşıyan bir sıra məqamlar diqqətə çatdırılıb, imzalanmış sənədlərin ikitərəfli əlaqələri bir çox sahələrdə inkişaf etdirməkdə  əhəmiyyətli rol oynayacağına əminlik ifadə olunub. Dövlət başçılarının görüşlərində regionlarımızda mövcud geosiyasi vəziyyət, ölkələrimizin üzləşdiyi çağırışlar geniş şəkildə müzakirə edilib, ərazi bütövlüyünə və suverenliyinə qarşılıqlı dəstək məsələləri, eləcə də terrorçuluğa və ekstremizmə qarşı birgə mübarizə tədbirləri barədə ətraflı danışılıb. Prezident İlham Əliyevin bəyanatında  bu məqamın əhəmiyyətini belə xarakterizə edilib: "Əlbəttə, hər bir ölkə üçün siyasi sabitlik inkişafı təmin edən ilkin şərtdir. Mən 1990-cı illərdən və bu əsrin əvvəlindən tutmuş beynəlxalq səviyyədə tanınmış ərazilərimizin erməni işğalından azad edilməsinə qədər Azərbaycanın üzləşdiyi ağır dövr barədə cənab Prezidentə məlumat verdim. Mən, həmçinin Azərbaycana sərmayələrin cəlb edilməsində və müsbət işgüzar mühitin yaradılmasında təcrübəmizi bölüşdüm".

Prezidentlərin görüşlərində Somalidə sərmayə imkanları da müzakirə edilib və ölkələr arasında müdafiə əməkdaşlığının mühüm sahələrdən biri olduğu bildirilib. Eyni zamanda, Azərbaycan müdafiə avadanlığının əksər hissəsini istehsal edərək, güclü müdafiə sənayesi potensialını yaratması diqqətə çatdırılıb.

Prezident İlham Əliyevin bəyanatında həmin avadanlığın həm ölkəmiz üçün mühüm əhəmiyyətə malik olduğu, həm də respublikamıza 10-a yaxın ölkənin mühüm ixracatçısına çevrilmək imkanı verdiyi qeyd edilib: "İkinci Qarabağ müharibəsi və sonradan antiterror əməliyyatı hərbi qulluqçularımızın yüksək peşəkarlığını nümayiş etdirdi... Düşünürəm ki, müdafiə sahəsində əməkdaşlıq, təlimlər və potensial qaydada müdafiə avadanlığının birgə istehsalı, Azərbaycandan Somaliyə onun təchizatı əməkdaşlığımızın mühüm sahələrindən biri olmalıdır".

Görüşlərdə iki ölkənin dövlət xidmətləri sahəsində işbirliyinin əhəmiyyəti də vurğulanıb və imzalanmış razılaşmalardan biri məhz həmin sahəni – Azərbaycanda artıq uğurla işləyən ASAN dövlət xidmətləri sistemini əhatə edib. Bildirilib ki, bu sistem bir çox beynəlxalq mükafatlara layiq görülüb. Dövlətimizin başçısının sözləri ilə desək, ən mühüm mükafat isə Azərbaycan xalqının verdiyi qiymətdir. Çünki Azərbaycanda ASAN xidmətlərin bəyənilmə reytinqi 100 faizə yaxındır. Bu, həqiqətən göstərir ki, həmin xidmət insanların həyatını daha da asanlaşdırır.

Səfər zamanı hər iki ölkənin tərəfdaşlığında beynəlxalq təsisatlarda qarşılıqlı dəstəyin mövcudluğu yüksək qiymərləndirilib. BMT, İslam Əməkdaşlığı Təşkilatı və digər beynəlxalq qurumlarda hər iki ölkənin dəstəyinin birmənalı olaraq davam etdirəcəyinə əminlik ifadə olunub.

***V.BAYRAMOV***
***XQ***

# Azərbaycanın Daimi Arbitraj Məhkəməsinə müraciəti

**Fevralın 12-də Azərbaycan tərəfi Haaqa şəhərində yerləşən Daimi Arbitraj Məhkəməsinin mənzil-qərargahında 1979-cu il tarixli "Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında" Konvensiya ("Bern Konvensiyası") əsasında Ermənistana qarşı arbitraj işi üzrə iddia sənədini təqdim edib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, iddia sənədində Ermənistanın "Bern Konvensiyası"na dair hüquqi öhdəliklərinin çoxsaylı pozuntuları ətraflı şəkildə öz əksini tapıb. Azərbaycan öz ərazilərini azad etməklə Ermənistanın ətraf mühiti məhv etməsinə və dünyanın ən zəngin biomüxtəliflik ocaqlarından birində yaşayış mühiti və növlərini qoruya bilmədiyinə dair dəhşətli sübutlar aşkar edib. Ermənistanın hərəkətlərinin bölgədəki canlı təbiətə və növlərinə dönməz şəkildə ciddi ziyan vurduğu müəyyənləşdirilib.

Qeyd edək ki, 2023-cü il yanvarın 18-də Azərbaycan sözügedən dəlillərə əsaslanaraq arbitraj prosesinin başlanması üçün Ermənistana arbitraj bildirişi göndərib. 2023-cü il sentyabrın 15-də arbitraj məhkəməsinin tərkibi təsdiqlənərək 2024-cü il aprelin 12-də Haaqadakı Sülh Sarayında Azərbaycan ilə Ermənistan arasında ilk prosedur iclası keçirilib. Azərbaycanın Ermənistana qarşı məhkəmə iddiası Bern Konvensiyası əsasında indiyədək məlum olan ilk dövlətlərarası arbitraj prosesidir.

Azərbaycan Ermənistan tərəfindən yaşayış yerlərinin və canlı təbiətin kütləvi şəkildə məhv edilməsinə görə bu ölkədən tam təzminat tələb edir. Buraya Azərbaycan ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən işğalı zamanı əraziyə aid olan yüzlərlə vəhşi təbiət növünə və yaşayış yerlərinə mənfi təsir göstərən addımlar, o cümlədən meşələrin genişmiqyaslı qırılması, ekoloji cəhətdən səmərəsiz şəkildə ağacların kəsilməsi, mədənçilik və su elektrik stansiyalarının tikintisi daxildir.

Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) yaşı 2000-dən çox olan qədim ağacların olduğu Azərbaycanda minlərlə hektar xüsusi mühafizə olunan və qiymətli meşənin zərər gördüyünü bildirib. Bu qoruqlardan bəziləri Bəsitçay vadisindəki Şərq çinarı meşəsi kimi nadir və kövrək ekosistemləri qorumaq üçün yaradılmışdı. UNEP hesabatında Oxçuçayda yüzlərlə balığın ölü tapıldığını əlavə edərək əvvəllər işğal olunmuş ərazilərdə mədənçiliyin "suyun, torpağın və biomüxtəlifliyin kimyəvi çirklənməsinə" səbəb olduğunu sənədləşdirib. İşğal zamanı Ermənistan tərəfindən törədilən hərəkətlər hələ də bir neçə qorunan balıq və amfibiya növünü təhdid edir.

Azərbaycan ədalətin təmini istiqamətində fəaliyyətini davam etdirəcək və Ermənistanın qanunsuz işğalı zamanı ətraf mühitin, heyvan növlərinin və yaşayış yerlərinin məhvi və qorunmaması ilə bağlı bu ölkəni beynəlxalq məsuliyyətə cəlb edəcək.

***XQ***

# USAID-in “media və QHT ovu”nun cinayətkar izləri

## *Ağ evin yeni rəhbərliyi bu ləkəni təmizləməyə çalışır*

**Əvvəlcə onu xatırladaq ki, ABŞ Beynəlxalq İnkişaf Agentliyi adlandırılan bu qurum Amerika Birləşmiş Ştatları hökumətinin müstəqil agentliyi kimi fəaliyyət göstərib. Əsas məqsədi mülki xarici yardımın tənzimlənməsi və inkişaf etməkdə olan ölkələrə köməyin idarə edilməsi idi.**

27 milyard dollardan çox büdcəsi olan USAID dünyanın ən böyük rəsmi yardım agentliklərindən biri kimi ABŞ-ın bütün xarici yardımının yarısından çoxunu təşkil edirdi.

Bildirilir ki, Konqres 1961-ci il sentyabrın 4-də ABŞ-ın xarici yardım proqramlarını yenidən təşkil edən və iqtisadi yardımı idarə etmək üçün bir agentliyin yaradılmasını tələb edən Xarici Yardım Aktını qəbul etmişdi. Sonradan bir neçə mövcud xarici yardım təşkilatını və proqramlarını bir agentlik altında birləşdirməyə çalışan Prezident Con Kennedinin sərəncamı ilə USAID yaradılmışdı. Bu qurum ABŞ-ın əsas diqqəti uzunmüddətli sosial-iqtisadi inkişafa yönəldən ilk xarici yardım təşkilatı idi.

Göründüyü kimi, pis məramla yaradılmamışdı. Ancaq zaman keçdikcə bu qurum nəinki “əməkdaşlıq etdiyi” ölkələrdə çox ciddi fəsadlar yaratmış, hətta təmsil etdiyi dövlətin də üz qarasına çevrilmişdi.

Fikrimizi dünya mediasının yaydığı bir neçə materialdan seçdiyimiz faktlarla əsaslandıraq. Məsələn, Qazaxıstan mətbuatı ölkə rəsmilərinə istinadən yazır ki, bu ölkədə cəmi 2 təmsilçisi olan, üstəlik, heç yerdə rəsmi qeydiyyatdan keçməyən feminist təşkilat qısa müddətdə USAID-dən 3 milyon dollara yaxın vəsait almışdır. Sual yaranır: “Xeyir ola, küçədən pul tapmısınız ki, cəmi 2 qadına milyonlarla dollar “yardım edirsiniz?”

Bu sualın cavabını başqa bir materialda tapırıq. Belə ki, ABŞ xarici siyasətinin tənqidçisi, jurnalist Uilyam Blum bir neçə il əvvəl bəyan etmişdi ki, 1960-cı illərdə və 1970-ci illərin əvvəllərində USAID “Mərkəzi Kəşfiyyat İdarəsi ilə sıx əlaqə saxlayıb və agentliyin rəsmiləri çox vaxt xaricdə USAID-in pərdəsi altında fəaliyyət göstəriblər”. 1960-cı illərdə USAID-in indi dağılmış bölməsi olan İctimai Təhlükəsizlik İdarəsi buna misal olaraq xatırlanır. O, xarici ölkələrdə polisə etirazçılarla mübarizə üsulları (o cümlədən işgəncə üsulları) üzrə təlim keçmək üçün cəbhə rolunu oynamışdır.




Yaxud Azərbaycan mətbuatında 11 il əvvəl verilmiş başqa bir materialın sərlövhəsinə diqqət yetirin: “USAID Azərbaycandakı fəaliyyətini qeyri-şəffaf və gizli əsaslarda qurur”. Həmin yazıda bildirilirdi ki, USAID layihələrinin icrasında gizliliyin səbəbi bu qurumun fəaliyyətinin ölkənin qanunlarını pozması, dövlətçiliyə, milli maraqlara qarşı yönəlməsi ilə izah oluna bilər: “Bu yaxınlarda (söhbət 2014-cü ilin iyul ayından gedir) ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) Azərbaycanda müstəqil medianın inkişafı üçün olduqca böyük həcmdə – 2,4 milyon ABŞ dolları məbləğində qrant elan edib. Bununla bağlı mətbuatda yayılan məlumatlarda elanın müddətinin çox qısa olduğu, yəni bu ilin 30 iyun – 7 iyul tarixlərini əhatə etdiyi bildirilir”.

Xüsusilə diqqətçəkən məqamlardan biri də odur ki, layihədə iştirak üçün müraciətlərə faktiki olaraq cəmi bir həftə vaxtın ayrılması bir çox potensial iştirakçıların layihədən kənarda qalması deməkdir. Çünki ayrılan müddət ərzində belə böyük qrant layihəsi üçün tələblərə cavab verən, normal layihənin hazırlanması mümkün deyil. Yəni həmin elan əvvəlcədən seçdikləri QHT-lərin “qalib gəlməsinə” hesablanmış, sırf riyakar xarakterli sənəd idi.

Son zamanların məlumatlarına görə isə, 2024-cü maliyyə ilində USAID layihələri üçün 36 milyard dollara yaxın vəsait ayrılıb. Bir daha sual yaranır: Xeyir ola? Siz dünya ölkələrini bu qədər sevirsinizmi? Hələ bu harasıdır? Bildirilir ki, son 9 ildə USAID xətti ilə 335 milyard dollar vəsait xərclənib. 335 milyard dollar az vəsait deyil. Ancaq bu vəsaitin xərclənməsindən hansı kasıb ölkə, hansı ehtiyac içərisində yaşayan xalq səmərə görüb? Heç bir ölkə, heç bir xalq. Bu qəbildən olan cavabsız suallar bir deyil, beş deyil. Sayını bilən yoxdur.

Amma sayı bilinən çox məqamlar var. Məsələn, məlumdur ki, dünyanın 100-dən artıq ölkəsində nümayəndəliyi və 10 mindən artıq əməkdaşı olan USAID, guya, ehtiyacı olan ölkələrə humanitar yardım, iqtisadiyyat, səhiyyə, təhsil, demokratiya sahələrinə dəstəklə məşğul olsa da, əslində, onun fəaliyyəti bütün dünya üzrə QHT və medianı qanunsuz maliyyələşdirməklə ölkələrin daxili işlərinə qarışmağa, ictimai rəyə təsir imkanları qazanmağa və bu güclü vasitədən təzyiq və hətta dövlət çevrilişləri üçün istifadə etməyə, müstəqil dövlətlərdə qanuni seçilmiş hakimiyyətləri və konstitusion quruluşu devirməyə yönəlib.

Ancaq bu, o demək deyil ki, biz USAID-in fəaliyyətini tənqid etməklə Ağ ev rəhbərliyinə hansısa irad tutmaq fikrindəyik. Qətiyyən belə deyil. Çünki Ağ ev rəhbərliyi özü də son zamanlar USAID-in fəaliyyətindən şikayətçi olan dünya ictimaiyyətinin mövqeyindən çıxış edir. Bu ölkənin yeni prezidenti Donald Tramp və onun əsas silahdaşlarından olan İlon Maskın USAID-lə bağlı açıqlamaları dünyanın, demək olar ki, bütün ölkələrində alqışlanır. Məlum olduğu kimi, cənab Tramp USAID-i “görünməmiş miqyasda korrupsiyada” ittiham edib, Mask isə USAID-in “cinayətkar təşkilat” olduğunu söyləyib və bildirib ki, bu qurumun “ölməyinin vaxtıdır”.

Ekspertlər yazırlar ki, qurumun cinayətkar fəaliyyətinin qalereyası “Əl-Qaidə” təşkilatı ilə əməkdaşlıq, Kolumbiyada transgender operası, Peruda transgender komiksləri, İrlandiyada LGBT myüzikli, Serbiyada işçi kollektivlərdə və işgüzar dairələrdə bərabərliyin və inklüzivliyin irəliləməsi, Qvatemalada cinsin dəyişdirilməsi, LGBT fəallığı və digər proqramlarla zənginləşdirilmişdir.

Dünya mətbuatı USAID-in ifşası zamanı üzə çıxan faktların bəzilərini artıq ictimailəşdirib. Bildirilir ki, bu korrupsiyalaşmış qurumun dünya üzrə maliyyələşdirdiyi nüfuzlu media vasitələri sırasında “The New York Times” (2024-cü ildə 3,1 milyon dollar ayrılıb), “Politico” (8 milyon dollar), “Associated Press” (19 milyon dollar), BBC (2,6 milyon funtsterlinq), “Reuters” (9 milyon dollar), “Frans-Press” (447 min dollar) kimi nüfuzlu xəbər mənbələri də var. Elə isə biz həmin xəbər mənbələrinə necə inanmalıyıq?

Yeri gəlmişkən, həmin mətbuat vasitələrinin hamısı uzun illər boyu Azərbaycana və bizimlə eyni vaxtda müstəqillik əldə etmiş ölkələrə “azad mətbuat”, “söz azadlığı” adıyla dərs keçməyə çalışıblar. Halbuki, önların özləri korrupsiyalaşmış bir qurumun əlində alətə çevriliblərmiş.

Fikrimizcə, əsas fəaliyyəti ölkələrdə media vasitələrini ələ almaq, bu alınmadıqda, özünün “müstəqil media”larını yaratmaq (Meydan TV, “Abzaz”, Toplum TV və s.), nəzarətində olan media vasitələrini “yeganə müstəqil media” kimi təqdim etmək və qanunsuz fəaliyyətə qarşı dövlət sanksiyalarını “söz azadlığı və müstəqil mətbuatın boğulması” kimi qələmə verməkdən ibarət olan bu qurumun məhz Ağ evdə cinayətkar adlandırılması beynəlxalq ictimaiyyətin Tramp administrasiyasına olan inam və etimadını artırır.

Hamı görəcək ki, USAID-in Cənubi Qafqazdakı fəaliyyəti – Azərbaycana qarşı böhtan və şantaj, Ermənistanda hakimiyyətə yaxın təşkilatların maliyyələşdirilməsi, Gürcüstanda hakimiyyətə təzyiq və lazım gəlsə, çevriliş edə biləcək qüvvələrin təşkilatlanması və maliyyələşdirilməsi sırf qərəz, məkr, xəyanət və ən başlıcası cinayət əməlidir.

Onların Azərbaycan rəhbərliyini hədəfə alması isə sırasında 120 dövlətin olduğu Qoşulmama Hərəkatının fəaliyyətinə kölgə salmaq kimi qiymətləndirilməlidir. Təbii ki, buna nail ola bilmirdilər. Bu danılmaz ifşadan sonra USAID-in bəraət qazanması mümkün deyil.

***İttifaq MİRZƏBƏYLİ***

# USAID - kəşfiyyat orqanlarının himayəsi

## *Agentliyin destruktiv fəaliyyəti milyonlarla insana ziyan vurub*

**Elə bir gün yoxdur ki, ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) barədə qalmaqallı xəbərlər dünya mediasında peyda olmasın. Ötən gün belə bir məlumat yayıldı ki, Livandakı “Hizbullah” silah anbarında USAID-in yardım paketləri tapılıb. İsrail hərbçilərinə istinadən “New York Post” qəzeti bildirir ki, israilli əsgərlər Livanda bir kənddə patrul xidməti apararkən “Hizbullah”ın dayaq məntəqisini aşkarlayıblar. Orada hərbçilər USAID paketləri ilə birlikdə snayper tüfəngləri, tank əleyhinə raketlər və partlayıcı maddələr aşkar ediblər. Bu fakt bir daha onu göstərir ki, USAID nizamnaməsindən kənar fəaliyyət göstərib və heç də həmişə dünyaya sülh, demokratiya və azadlıq gətirməyib.**




USAID-in ABŞ-ın xarici siyasət aləti olması barədə çox yazılıb. “Yumşaq güc” kimi istifadə edilən bu qurum uzun illər ərzində digər ölkələrin daxili işlərinə qarışması ilə məşğul olub. Demokratiya və azadlıq devizləri altında USAID-in hətta dövlət çevrilişlərində də əli olduğu məlumdur. Bu günlərdə Macarıstanın Baş naziri Viktor Orban bildirib ki, agentlik yardım adı altında ABŞ-ın siyasi təsirini təşviq etməklə və xüsusən Macarıstanda hökumətin devrilməsi üçün hazırlıq işlərini maliyyələşdirməklə məşğul olub: “ABŞ Prezidenti son illərdə Birləşmiş Ştatların müxtəlif dövlət qurumları tərəfindən kimə və nə qədər pul ayrıldığını ictimaiyyətə açıqlamaq qərarına gəlib. Belə çıxır ki, liberal qlobal elita ABŞ büdcəsindən və hökumətindən amerikalıları bütün dünyada öz monetar və ideoloji məqsədlərini maliyyələşdirməyə sövq edir. Yardım kimi təqdim edilib, amma, əslində, bu, siyasi təsir vasitəsidir”.

Cənab Orban həm də vurğulayıb ki, USAID-in ABŞ-dakı fəaliyyəti ilə bağlı məlumatların açıqlanmasından sonra böyük qalmaqal yaranıb. Onun sözlərinə görə, bir tərəfdən amerikalı milyarder Corc Sorosun fondlarından gələn pullar, digər tərəfdən isə ABŞ büdcəsi hesabına bütün dünyada “icmaların məhv edilməsi, miqrasiyaya dəstək, ailələrə qarşı və gender problemlərinin maliyyələşdirilməsi üçün” layihələr həyata keçirilib. Belə ki, agentlik xüsusi olaraq yalnız sol partiyalara aid mövzuları dəstəkləyib, müvafiq media qurumlarını, media platformalarını, onlayn kommunikasiyaları və vətəndaş cəmiyyəti təşkilatlarını maliyyələşdirib. “Bütün bunlar solçuların gücünü artırıb və onların hamısı bu pulu hökuməti devirmək məqsədilə alıb. Başqa sözlə, müxalifət partiyalarını gücləndirmək və Macarıstan hökumətini devirmək üçün vəsait xərcləyiblər”, – deyə Macarıstanın Baş naziri bildirib.

Baş nazir Orbanın sözlərinə görə, “Tramp tornado yaradıb və təmizləyici dəyişiklik küləyi gətirib” və indi bəzi sirlər açılır və ABŞ-ın kimə və nəyə pul xərclədiyi aydınlaşır: “Əvvəlki administrasiyanın (Co Baydenin – S.E.) şkafından o qədər çox “skelet” tökülür ki, artıq oradan sərbəst keçmək mümkün deyil. Dünyanın hər yerində liberal elita öz məqsədlərinə amerikalılar hesabına çatmağa və bunun üçün xarici yardımdan istifadə etməyə çalışıb ki, bu da, əslində, siyasi alət idi”. V.Orban hesab edir ki, bu, bir sıra Mərkəzi Avropa ölkələrində, o cümlədən Serbiya, Slovakiya və Macarıstanda baş verib, burada bəzi QHT və media vasitələri xaricdən maliyyələşib, müxalif siyasətçilərə dəstək olub, indiki hakimiyyəti gözdən salmağa çalışıblar. “Amerikada onları xarici agent adlandırardılar, çünki onlar öz ölkələrinə xidmət etmirlər, lakin başqa dövlətdən pul qəbul edirlər”, - baş nazir vurğulayıb. O, bu tərifi xüsusilə bəyənmədiyini, lakin hər halda onların xaricdən maliyələşən insanlar və təşkilatlar olduğunu deyib. Həmçinin əlavə edib ki, belə təşkilatların işi Macarıstan hökumətini devirməkdən ibarət olub.

Baş nazir Orbanın fikrincə, bu cür təcrübələr milli suverenliyi təhdid edir və Macarıstanda dayandırılmalıdır: “Amerikadan gələn vəsaitlərin istifadəsi ilə bağlı bütün faktlar açıqlanmalıdır və onları alanlar hüquqi nəticələrlə üzləşəcəklər. Xaricdən gələn heç bir pul Macarıstan siyasətinə təsir etmək üçün istifadə oluna bilməz. Bu, qanuna uyğun şəkildə təmin olunacaq”. Qeyd etmək yerinə düşər ki, 2023-cü ilin dekabrından Macarıstanda siyasi partiyaların xaricdən maliyyələşdirilməsini cinayət hesab edən və üç ilə qədər həbs cəzası nəzərdə tutan qanun qüvvədədir. Milli Suverenliyin Müdafiəsi İdarəsinə qadağaya əməl olunmasına nəzarət etmək və potensial pozucular haqqında məlumat toplamaq tapşırılıb.

Xatırladaq ki, ötən həftə cənab Orban USAID-i bağladığına görə ABŞ Prezidenti Donald Trampa təşəkkür edib. O, agentliyin Macarıstandan maliyyələşdirdiyi fəal təşkilatlar şəbəkəsini “süpürmək” və Budapeştin siyasətinə təsir göstərmək məqsədilə xaricdən pul alanlara qarşı sanksiyalar tətbiq etməyin lazım olduğunu bildirib. Bundan əvvəl rəsmi Budapeşt ABŞ Demokratlar Partiyasına yaxın strukturları Macarıstanın daxili işlərinə qarışdıqlarına görə dəfələrlə tənqid edib. Xüsusilə, 2024-cü ilin oktyabrında Macarıstan diplomatiyasının rəhbəri Peter Siyarto ABŞ-ın 2022-ci ildə keçirilən parlament seçkilərinə müdaxilə etməsi barədə məlumat vermişdi.

Moldovanın sabiq prezidenti Vladimir Voronin də USAID-i dövlət çevrilişinə cəhddə iştirakda ittiham edib. O deyib ki, bu, təxminən, 2009-cu ilə təsadüf edir, o zaman Kommunist Partiyasının parlament seçkilərindəki qələbəsindən narazı olan Avropayönlü müxalifətin tərəfdarları Kişinyovun mərkəzində etiraz aksiyaları keçirmişdilər. Baxmayaraq ki, beynəlxalq müşahidəçilər səsvermənin düzgün olduğunu qəbul etmişdilər. Moldovalı jurnalist Georgi Gontsa ilə YouTube-da müsahibəsində V.Voronin deyib ki, onların iştirakı haqqında məlumatı olub: “Bu məsələlərdə səlahiyyətli şəxslərdən və bilavasitə Kişinyovda bütün bunları təşkil edənlərdən müvafiq məlumatımız var idi. Lakin onları saxlaya və məsuliyyətə cəlb edə bilmədik. Onların diplomatik pasportları, həmçinin ABŞ, Rumıniya və digər ölkələrin vətəndaşlarının pasportları var idi”.

Xatırladaq ki, 2009-cu ilin aprelində Kommunist Partiyasının parlament seçkilərindəki qələbəsindən narazı olan Avropapərəst müxalifətin tərəfdarları Aİ və qonşu Rumıniyanın bayraqlarının asıldığı parlamenti və prezident iqamətgahını dağıdaraq yandırmışdılar. Sabiq prezident Voroninin göstərişi ilə polis iğtişaşçılara qarşı silahdan istifadə etməmişdi. Bununla belə, iğtişaşlar zamanı 100-ə yaxın polis də daxil olmaqla 270 nəfər xəsarət almış, 1 nəfərin isə həlak olduğu bildirilmişdi. Kommunist Partiyası erkən seçkilər keçirməyə məcbur olmuş və nəticədə, Moldovada hakimiyyət dəyişikliyi baş vermişdi.

Öz nizamnaməsinə görə, USAID iqtisadiyyat, səhiyyə, təhsil və təcili humanitar yardımı dəstəkləməlidir. Amma faktiki olaraq agentlik 100-dən çox ölkədə ofisləri və illik büdcəsi 50-60 milyard dollar olan əsl cinayətkar şəbəkəyə çevrilib. USAID həm də mülki fəalların, seçki müşahidəçilərinin və jurnalistlərin hazırlanmasına yönəlmiş layihə və proqramları maliyyələşdirməklə dünya ölkələrində dövlət çevrilişləri hazırlamaqda və təşkil etməkdə təqsirkardır. USAID-in fəaliyyəti, demək olar ki, yarandığı gündən tənqid olunur. Agentlik yalnız maliyyə xarakterli deyil, müxtəlif qalmaqallarla da əlaqələndirilib. USAID-in Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) agentlərini ört-basdır etdiyi və qurumun özünün ABŞ-a düşmən olan hökumətlərə qarşı gizli əməliyyatlar apardığı tez-tez qeyd olunub. Bu faktı amerikalı siyasətçilər də etiraf edirlər. Məsələn, oğul Robert Kennedi USAID-i “MKİ-nin himayəsi” adlandırıb. “USAID və MKİ, əslində, demokratiya ilə məşğul deyillər: “Bilirsiniz, MKİ 1947-1997-ci illər arasında, məncə, 83 hökuməti devirib. Bu, Yer üzündəki hökumətlərin üçdə biri deməkdir və onların əksəriyyəti demokratik idi”.

USAID-in analoji əməliyyatları xüsusilə Latın Amerikasında yaxşı tanınır. Onlardan biri 2014-cü ildə Kubada yerli repçilərə dəstək adı altında hökumət əleyhinə gənclər hərəkatının yaradılmasıdır. Bundan əlavə, 2010-cu illərdə USAID Kuba sosial şəbəkəsi ZunZuneo-nu idarə edib və burada da ölkə hökumətinə qarşı etirazları qızışdırmağa cəhd göstərib. Bu, bütün dünyada USAID-in müdaxilə təcrübəsinin daha geniş modelinin bir hissəsidir. Venesuelada agentlik ölkədə sabitliyin pozulmasına töhfə verən Nikolas Maduro hökumətinə qarşı çıxan müxalifət hərəkatlarının maliyyələşdirilməsində fəal iştirak edib. USAID-in fəaliyyəti siyasi gərginliyi və daxili parçalanmaları artıraraq Venesuelanı daha da parçalanmış vəziyyətə salıb. Ölkə xarici müdaxilələr nəticəsində hələ də iqtisadi və siyasi böhranlardan qurtula bilmir.

ABŞ-ın xarici siyasətinin tanınmış tənqidçisi Noam Çomskinin fikrincə, USAID “Amerika imperializminin “humanitar yardım” adı altında ABŞ maraqlarını təşviq etmək üçün nəzərdə tutulmuş alətindən başqa bir şey deyil”. O deyir ki, agentliyin fəaliyyəti çox vaxt məhsuldar olmur, siyasi qeyri-sabitliyi gücləndirir və ölkələrdə demokratik təsisatları sarsıdır.

Cənab Çomskinin tənqidini digər ekspertlər də bölüşürlər və onlar agentliyin müxalifət hərəkatlarını maliyyələşdirdiyini, seçkilərə müdaxilə etdiyini və xarici hökumətlərin sabitliyini pozduğunu qeyd edirlər. ABŞ Hökumətinin Hesabatlılıq Ofisinin 2014-cü il hesabatına əsasən, 2001-2013-cü illər arasında USAID-ə 70 milyard dollardan çox pul verilib ki, bunun da böyük hissəsi məqsədlərinə çata bilməyən layihələrə gedib. Bundan əlavə, qurumun lazımi nəzarəti həyata keçirməməsi vəsaitlərin sui-istifadəsinə, korrupsiyaya və israfçılığa səbəb olub.

Bu qədər faktlarla tanış olduqdan sonra demək olarmı ki, belə bir qurumun gələcəyi yoxdur? ABŞ-ın indiki administrasiyası USAID barədə kifayət qədər tənqidi fikirlər səsləndirib və bu, belə güman etməyə əsas verir ki, Ağ ev Birləşmiş Ştatların maraqlarına zidd fəaliyyət göstərən təşkilatın gələcəyini görmür. Okeanın o tayında da alma qurduna bənzədilən USAID-in fəaliyyətinin bərpası xeyli çətin görünür.

***S.ELAY***
***XQ***

# Avropa İttifaqı səlahiyyətini aşıb

## *Bu qurum regionda açıq təxribatla məşğuldur*



**Avropa İttifaqının (Aİ) Azərbaycanla sərhəddə yerləşdirilmiş müşahidəçiləri yenidən fəallaşıblar. Bu dəfə 2-si hərbçi, 4-ü mülki şəxs olmaqla, ümumilikdə, 6 nəfər Ermənistanın Keşişkənd rayonunun Arpa yaşayış məntəqəsi istiqamətində yerləşən erməni silahlı qüvvələrinin döyüş mövqeyinə gəlib. Azərbaycan sərhədində müşahidə apardıqdan sonra onlar digər döyüş mövqelərində də olublar. Bldirilir ki, Azərbaycan mövqeləri istiqamətində foto və video çəkilişlər aparılıb. Missiyanın təxribatçı fəaliyyəti Azərbaycan tərəfindən qeydə alınıb.**

Onu da qeyd edək ki, missiyanın əməkdaşları ötən müddət ərzində də dəfələrlə Azərbaycan sərhədinə gələrək mövqelərimizin foto və video çəkilişlərini aparıblar. Guya, atəşkəsə nəzarət edir, münaqişədən təsirlənmiş ərazilərdə insanların təhlükəsizliyinə töhfə verir, Ermənistan və Azərbaycan arasında etimadın yaradılmasını dəstəkləyirlər. Əslində isə, onlar Azərbaycanın sərhəd təhlükəsizliyi və nəzarət sisteminin qurulması istiqamətində gördüyü işlər barədə məlumat toplamaqla pozuculuq fəaliyyəti ilə məşğul olurlar. Bu məlumatın erməni hərbçilərinə ötürülməyəcəyinə zəmanət haradandır? Axı hələ sülh müqaviləsi imzalanmayıb.

Sülh müqaviləsinin imzalanmasına isə Qərbin müxtəlif strukturları, o cümlədən Brüsseldə oturan siyasətçilər mane olurlar. Ermənistana müxtəlif vədlər verməklə, silahlandırmaqla ümidləndirirlər. Bu səbəbdən də hər vəchlə bölgədə təxribatçı, gərginliyə yönəlik addım və tədbirlərə əl atırlar. Guya ki, fəaliyyətləri Ermənistanın təhlükəsizliyinin möhkəmləndirilməsinə yönəlib. Bu ölkənin təhlükəsizliyini isə heç kim pozmaq niyyətində deyil. Göründən odur ki, bu addımın arxasında Aİ-nin məkrli planları gizlənir.

Ona görə də belə çıxır ki, bu missiya Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinin yerləşməsi və fəaliyyəti barədə səhra məlumatlarını toplamaqla ölkəmizin sərhəd təhlükəsizliyi sistemi üçün risklər yaradır. Bununla bağlı kifayət qədər məlumatlar da var. Məsələn, Aİ-nin kortejinin sərhədin Ermənistan silahlı qüvvələrinin mühəndis işləri apardığı Azərbaycanın Fərəhli kəndi yaxınlığında işlərini "müşahidə etməsi"nin özü açıq şəkildə göstərir ki, onlar öz mandatlarından kənara çıxıblar. Əslində, nəinki mühəndislik və möhkəmləndirmə işlərinə nəzarət edir, həm də necə və nə etməli olduqlarını başa salırlar.

Ötən ilin payızında isə həmin missiyanın 8 nəfərdən ibarət heyəti erməni hərbçilərlə birlikdə Azərbaycanın şərti sərhədinə yaxınlaşaraq ərazilərimizin müşahidəsini aparıb və bundan bir neçə gün sonra, həmin istiqamətdə Ermənistan tərəfdən ora hərbçilərin toplanması, silah və texnika gətirilməsi müşahidə edilib. Yəni onlar prosesdə birbaşa iştirak edir, təlimatçı kimi haylara kömək göstərirlər. Həm vəziyyəti gərginləşdirir, həm də fəaliyyətləri ilə Azərbaycan əleyhinə təbliğat aparırlar.

Digər tərəfdən, Azərbaycanla Ermənistan arasında aparılan ikitərəfli danışıqlarda artıq razılaşdırılmış və demarkasiya olunmuş sərhədin həmin hissəsində avropalı müşahidəçilərin peyda olması haqlı suallar doğurur. Bu missiyaya nə ehtiyac vardı?

Hayastan isə Aİ-nin Ermənistandakı missiyasının çətiri altında gizlənmək, məkrli siyasətini bundan sonra da davam etdirmək istəyir. Daha doğrusu, vaxt qazanmaqla yenidən silahlanaraq Azərbaycana qarşı müharibəyə hazırlaşır. Aİ-nin Ermənistandakı missiyasının mandatının daha iki il müddətinə uzadılması da bu məqsədə xidmət edir. Məlumata görə, İrəvan missiyanın uzadılmasında daha israrlı olub.

Onu da qeyd edək ki, missiyanın fəaliyyətinin daha iki il uzadılması İrəvanda sevinclə qarşılanıb. Bu barədə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan "X" sosial şəbəkəsində yazıb: "Missiya regionda sabitliyin dayaqlarından biri olduğunu sübut edib. Biz hər bir Aİ üzv dövlətinin dəstəyini və iştirakını yüksək qiymətləndiririk".



Onu da qeyd edək ki, bu, Azərbaycan tərəfindən sərt qarşılanıb. Qərarla bağlı Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirib ki, "bir şeydən (sülhdən) danışıb, başqa addım atan Ermənistan bizimlə eyni anda bir masanın arxasında oturmaq istəyir".

Seyidov açıqlamasında haqlıdır. Ermənistan sülhdən danışır, amma bir tərəfdən Qərbin çətiri altında silahlanır. Hayastan 2021-ci ildə 600 milyon dollarlıq hərbi büdcəsini 2024-cü ildə 1 milyard 700 milyon dollardan yuxarı qaldırıb. Fransa, Hindistan və digər ölkələr tərəfindən sürətlə silahlandırılır. Bugünlərdə Ermənistanın müdafiə naziri Suren Papikyan Hindistanda keçirilən sərgidə iştirak edib. Onun uzaqmənzilli hücum silahları almaqla bağlı imzaladığı müqavilələr də bundan xəbər verir. Məqsəd Azərbaycanın ərazilərinə uzaq məsafəli zərbələr endirə biləcək hücum silahları əldə etməkdir. Fransa da kənarda qalmır. Verilən son məlumatlara görə, Fransa Ermənistana veriləcək 26 ədəd "Bastion" zirehli transportyorundan 10 ədədinin istehsalını başa çatdırıb. Onların yaxın günlərdə Ermənistana tədarükü gözlənilir. Həmçinin, Paris artıq İrəvana 12 ədəd "Sezar" artilleriya qurğusu ötürüb. İlin sonunadək isə daha 24 belə silahın Ermənistana verilməsi gözlənilir. Göründüyü kimi, Ermənistan təxribatlar üçün zəmin formalaşdırır. Bütün bunlar onu deməyə əsas verir ki, biz yaxın vaxtlarda Ermənistan tərəfindən növbəti təxribatların şahidi olacağıq. Bu təxribatların arxasında dayanan əsas ilhamverici güc də Avropa İttifaqının müşahidə missiyasıdır.

**Politoloq Yeganə Hacıyeva** ilə söhbətimiz də bu mövzu ilə bağlıdır. Onun sözlərinə görə, Ermənistan rəsmiləri və şəxsən Nikol Paşinyanın sülh açıqlamalarına baxmayaraq, haylar "sülhpərvər patrullar"dan əl çəkmək niyyətində deyillər: "Son hadisələr Aİ-nin "sülhpərvər patrullar"nın Ermənistandakı missiyası Cənubi Qafqazda əbədi lövbər salmaq niyyətindən xəbər verir.

Üstəlik, Aİ Şurası müşahidə missiyasına bu dövr üçün 44 milyon avrodan çox büdcə ayırdı. Bu, 44 milyonluq vəsait Aİ-nin daxili vergi ödəyicilərinin hesabına hayların müdafiə sənayesinə hədiyyə edilib. Onu bu ölkənin müdafiə sənayesinə sərmayə kimi dəyərləndirmək daha doğru olardı. Aİ regionda nüfuzunu genişləndirmək üçün hər fürsətdən istifadə edir. Ermənistan da bunu bildiyi üçün gərginliyi artırmaqda qərarlıdır. Bununla da bölgəni ciddi təhlükə qarşısında qoyur.

Xatırlatmaq yerinə düşər ki, Aİ-nin Ermənistana göndərdiyi müşahidəçi missiyasının "sülhpərvər patrulları" öz işinə başlayandan dərhal bir gün sonra – 2023 cü il fevralın 21-də Azərbaycan Ordusunun mövqeləri bir neçə istiqamətdən atəşə tutulub. Sonrakı dövrlərdə də eyni ssenari davam edib və Avropa İttifaqı Ermənistanda "Azərbaycanla bağlı vəziyyətin həllinə kömək etməli olan mülki missiyası"nın müddətinin yekunlaşmasına az qalmış sərhəddə gərginlik fonu yaradıb. Diqqəti çəkən əsas məqam Ermənistanda Aİ-nin "sülhpərvər patrullar"nın reydlərində intensivliyin artmasıdır. Bununla, İrəvan Ermənistan –Azərbaycan sərhədində hansısa bir prosesin getdiyi görüntüsü yaratmaqla missiyanın büdcəsini və mandatını genişləndirmək məqsədi güdür.

Ermənistanın silahlanmasına gəlincə, deyim ki, ona sərf olunan vəsait sosial məqsədlərə yönəldilsəydi daha effektli olardı. Çünki haylar nə qədər silahlansalar da, Azərbaycan Ordusunun qarşısında acizdilər. Qısa müddətdə ağır məğlubiyyətdən qaça bilməyəcəklər".

Beləliklə, Ermənistan bir əlində iki qarpız tutmağa çalışır. Mümkün deyil. Aİ-nin müşahidə missiyasının bu günəqədərki fəaliyyətinə gəlincə, deməliyik ki, ancaq təxribatlarla məşğul olurlar.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Ruben Vardanyanın təqsirləndirildiyi cinayət işinin məhkəmə baxışı davam etdirilib

**Fevralın 13-də Ermənistan vətəndaşı olan, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və digər maddələri ilə təqsirləndirilən Ruben Vardanyanın barəsində olan cinayət işi üzrə məhkəmə prosesinin baxış iclası davam etdirilib.**





Bakı Məhkəmə Kompleksində yerləşən Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün vəkillər ilə təmin olunub.

Məhkəmə iclasında zərərçəkmiş şəxslər, onların hüquqi varisləri və nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar, habelə Azərbaycan dövləti adından zərərçəkmişin nümayəndəsi qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iştirak ediblər.

İclasın əvvəlində Ruben Vardanyan və onun hüquqlarını müdafiə edən vəkil Avraam Berman konfidensial görüş üçün şərait yaradılmasını məhkəmədən xahiş edib.

Məhkəmə vəsatəti təmin edib və konfidensial görüş üçün fasilə elan olunub.

Fasilədən sonra Ruben Vardanyan ona dövlət tərəfindən təyin olunan müdafiəçi Azər Məhərrəmovdan imtina etdiyini və hüquqlarının müdafiəsinin müqavilə üzrə vəkili Avraam Berman tərəfindən davam etdiriləcəyini bildirib.

İttiham tərəfi və zərərçəkmiş şəxsin nümayəndəsi vəsatətə etiraz etməyib.

Məhkəmə yerində müşavirə edərək vəsatəti təmin edib.

Sonra iclas dövlət ittihamını müdafiə edən prokurorlar tərəfindən ittiham aktının nəticəvi hissəsinin elan olunması ilə davam edib.

Budəfəki məhkəmə iclasında ittiham aktının Ermənistan dövlətinin onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində Azərbaycan Ordusunun müdafiə arsenalına, Azərbaycan Respublikasının ekologiyasına və təbiətə vurulmuş ziyan, Azərbaycanın işğal altında olan suveren ərazilərinin minalanmasına dair epizodlar, Ruben Vardanyana irəli sürülmüş konkret ittihamlar, habelə öldürülmüş və öldürülməsinə cəhd olunmuş mülki şəxs və hərbi qulluqçuların sayı elan edilib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli Ermənistan tərəfindən aparılan təcavüzkar müharibənin gedişində iştirak edən cinayətkar təşkilat tərəfindən Azərbaycan Ordusunun müdafiə arsenalına, Azərbaycanın ekologiyasına və təbiətə vurulmuş ziyanı, habelə öldürülmüş və öldürülməsinə cəhd göstərilmiş mülki şəxs və hərbi qulluqçuların sayını elan edib.

Bildirilib ki, 1980-ci illərin sonlarından 2023-cü il sentyabrın 20-dək Azərbaycanın işğal olunmuş ərazilərində ağacları, kolları və digər yaşıllıqları məhv etməklə, su mənbələrini, su hövzələrini və su anbarlarını çirkləndirməklə, eləcə də kənd təsərrüfatı təyinatlı torpaqları dağıtmaqla Azərbaycan Respublikasının ekologiyasına və təbiətə, ümumilikdə, 13,4 milyard manatdan artıq məbləğdə maddi ziyan vurulub.

1988–2024-cü illər ərzində, ümumilikdə, 3053 nəfəri mülki, 15 min 298 nəfəri hərbi qulluqçu, 17 min 607 nəfəri kişi, 744 nəfəri qadın, onlardan 401 nəfəri uşaq olmaqla, cəmi 18 min 351 şəxs qəsdən öldürülüb, ümumilikdə, 3710 nəfəri mülki, 51 min 467 nəfəri hərbi qulluqçu, 54 min 103 nəfəri kişi, 1074 nəfəri qadın, onlardan 457 nəfəri uşaq olmaqla, cəmi 55 min 177 şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilib.

Azərbaycan Respublikasına qarşı aparılmış təcavüzkar müharibə dövründə Azərbaycan Ordusunun müdafiə arsenalına 908 milyon manatdan artıq məbləğdə qəsdən maddi ziyan vurulmaqla hərbi əmlakları məhv edilib, yararsız hala salınıb və ələ keçirilib.

Daha sonra Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov təqsirləndirilən şəxs Ruben Vardanyana irəli sürülmüş konkret ittihamları elan edib.

O cümlədən bildirilib ki, ittiham aktına əsasən, Ruben Vardanyan 2022-ci ilin sentyabrında Azərbaycan Respublikasının dövlət sərhədini dövlətin nəzarət-buraxılış məntəqələrindən kənar Ermənistan Respublikasının ərazisindən Laçın rayonu istiqamətində qanunsuz keçərək Azərbaycan ərazisinə daxil olub, Azərbaycanın Qarabağ iqtisadi rayonunda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazidə məskunlaşıb.

O, özünə və müxtəlif xarici ölkələrin vətəndaşlarına aid pul vəsaitlərini həmtəsisçisi olduğu "humanitar məqsədli" pərdəsi altında fəaliyyət göstərən "Avrora" fondu, "Biz - dağlarımızıq" təşkilatı və sair yardım aksiyaları adı altında toplayaraq həmin vəsaitlər hesabına Azərbaycan qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları maddi cəhətdən təmin, əsgəri ləvazimatla təchiz edib, hərbi silah və texnikanı qanunsuz əldə edərək Azərbaycana qanunsuz gətirməklə əvvəlcədən xüsusi təşkil etdiyi hərbi anbarlarda saxlayıb.

Bundan başqa, Azərbaycan qanunvericiliyi ilə nəzərdə tutulmayan "yerli özünümüdafiə dəstələri" adlandırdığı, habelə əsasən peşəkar hərbçilərdən ibarət digər silahlı dəstə və qrupların üzvlərinə aylıq muzd ayıraraq verib. Həmçinin "VoMa" adlı terror təşkilatının yaradıcısı Vartanov Vladimir (Vova) Levanoviçlə sövdələşərək həmin təşkilatın təlimatçıları tərəfindən Azərbaycan vətəndaşlarına qarşı terrorçuluq əməllərinin törədilməsi məqsədilə təlimlərin keçirilməsinin təşkili edilməsi üçün pul vəsaitlərini verib.

Habelə Azərbaycanın işğal altında olan suveren ərazilərində mülki və hərbi obyektlərə qarşı istifadə edilməsi üçün idarəolunan zenit raketlərinin və komplekslərinin, hədəflərin aşkarlanması stansiyalarının, akkumulyator və radioötürücü blokların, digər qurğuların kütləvi istehsalının qurulması, bununla əlaqədar birgə müəssisənin yaradılması məqsədilə Rusiya Federasiyası ərazisində fəaliyyət göstərən "AKVA" şirkətinin məsul şəxsləri ilə danışıqlar aparmaqla sövdələşib. Həmçinin Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz silahlı birləşmələr tərəfindən istifadəsi nəzərdə tutulan helikopter tipli pilotsuz uçuş aparatlarının (PUA) alınması və onların istehsal edəcək zavodun inşa edilməsinə, habelə radioelektron mübarizə sisteminin alınaraq qanunsuz silahlı birləşmələrə çatdırılmasına dair danışıqlar apararaq müvafiq tapşırıqlar verib.

Eyni zamanda, Ruben Vardanyan şəxsən tərtib etdiyi fəaliyyət planında Azərbaycanın xarici ölkələrdə olan diplomatik korpusunun nümayəndələri, xidməti vəzifələrini və ictimai borcunu yerinə yetirən vətəndaşlarına qarşı terrorçuluq törədilməsi üçün "Nemezis-2" terror əməliyyatının başlanılması təşəbbüsünü irəli sürüb.

İttihamın elan olunmasını davam etdirən Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev, həmçinin dövlət ittihamçıları Fuad Musayev, Vüsal Abdullayev və Tərana Məmmədova Ermənistan dövləti tərəfindən işğal edilmiş Azərbaycanın suveren ərazilərinin minalanması və bu yolla hərbi təcavüzün davam etdirilməsi faktlarını səsləndirib. Xüsusilə vurğulanıb ki, işğal olunmuş ərazilərdə basdırılan minaların bir hissəsi Ermənistanda istehsal olunub.

İttiham aktının həcminin böyük olması nəzərə alınaraq, elan edilməsinin növbəti prosesdə davam etdiriləcəyi bildirilib.

Məhkəmənin növbəti iclası fevralın 17-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, aparma), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə) əməllərinin törədilməsində təqsirləndirilib.

Həmçinin o, həmin məcəllənin 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma), 318-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələrində nəzərdə tutulan əməllərin törədilməsində ittiham olunur.

*XQ*

# Azərbaycan amili, yoxsa ABŞ – Ermənistan xartiyası?



(əvvəli 1-ci səhifədə)

Stratfor Amerika Kəşfiyyat və Analitik Mərkəzinin (RANE) Avrasiya məsələləri üzrə analitiki Metyu Orr erməni mediasına açıqlamasında deyib ki, yeni administrasiya İrana qarşı daha sərtdir və bu səbəbdən Türkiyəni və Azərbaycanı regionda Tehranı dayandıra biləcək ölkələr qismində görür. Başqa sözlə desək, ABŞ üçün Türkiyə kimi Azərbaycanla da yaxşı münasibətlər saxlamaq çox vacibdir və belə yanaşma soyuq geosiyasi hesablamalardan qaynaqlanır. O hesablamalardan ki, orada Ermənistan amili bir o qədər əhəmiyyət daşımır.

Digər tərəfdən, nəzərə alaq ki, ABŞ – Ermənistan Strateji Tərəfdaşlıq Xartiyası regionda güclü eskalasiyanın mövcudluğu şəraitində birincinin proseslərə ciddi müdaxiləsini nəzərdə tutmayan sənəddir. Hərçənd, xartiya maraq və mənafelərdən asılı olaraq, istənilən interpretasiyaya açıqdır. Ermənistanın hazırda çalışdığı budur ki, sözügedən açıqlıq əməli iş müstəvisində də özünü göstərsin. Bunun üçün isə İrəvan Vaşinqtondan təminat almalıdır. Elə Paşinyanın Birləşmiş Ştatlara səfəri də belə bir təminatın alınması məqsədini daşıyırdı. Lakin, ortada nəticə yoxdur. Üstəlik, qeyd etdik ki, Tramp Administrasiyası xartiyanın təftişinə girişəcək.

Heç şübhəsiz, N.Paşinyanın ABŞ-a səfərinin təşəbbüskarı Fransa prezidenti Emmanuel Makrondur. Əslində, Makron Fransası hazırda tələsdadır. Ona görə ki, Trampın Rusiya – Ukrayna müharibəsi ilə bağlı tutduğu mövqe Baydenin yanaşmasından köklü şəkildə fərqlənir. Ağ evin yeni şefi, necə deyərlər, Avropadan əlini daşın altına qoymağı tələb edir. Yəni Ukraynanı təkcə Birləşmiş Ştatlar maliyyələşdirməməlidir.

ABŞ-ın yanaşması "Köhnə qitə"nin, ümumən kollektiv Qərbin Cənubi Qafqaz köklənişinin də sarsılacağı ehtimalını yüksəldir. Bu, həm də o deməkdir ki, Fransa regionda erməni avantürizmini diri saxlamaq yolunda tək addımlamalıdır. Əlbəttə ki, pararlel olaraq Ukraynaya dəstəyi gücləndirməklə. Deməli, Paşinyan ABŞ-a, eyni zamanda, Cənubi Qafqazdakı erməni avantürizminin davamının olub-olmayacağı barədə direktiv almaq üçün yollanmışdı. Amma...

Məlum olduğu kimi, N.Paşinyan ABŞ-dan sonra Fransaya getdi. Əslində, ora səfər Nikolun Makrona Birləşmiş Ştatlardakı təmasları ilə əlaqədar məlumat vermək məqsədi daşıyıb. Makron – Paşinyan görüşü ilə əlaqədar rəsmi məlumatlardan isə bu qənaət yaranır ki, Ermənistan Cənubi Qafqazda sülh baxımından "Dünyanın kəsişməsi" avantürasını əsas tutur. Bu, o deməkdir ki, İrəvan Bakının Zəngəzur dəhlizi ideyasına qarşı çıxmaqda israrlıdır.

Tramp İrana qarşı sərt mövqedədirsə, o zaman dəhlizin İslam respublikasından keçməsini istəməz. Azərbaycana gəldikdə, ona Naxçıvana quru yolu, hər bir halda, lazımdır. Özü də təkcə ölkəmizə yox, Türkiyəyə də. Daha qlobal miqyasda yanaşsaq, yolun Çin və Rusiya, ümumən dünya üçün də müstəsna əhəmiyyəti var. Nəzərə alaq ki, ABŞ Avropanı daha yemləmək istəmir. O zaman "Köhnə qitə" də Zəngəzur dəhlizinin reallaşmasında maraqlı olmalıdır. Hazırda Fransa istəyir ki, həmin maraq "Dünyanın kəsişməsi" avantürasının gerçəkləşməsi ilə ödənsin. Yəni Ermənistan Cənubi Qafqazda başlıca fiqur rolunu oynasın.

Əlbəttə, Azərbaycan buna imkan verməyəcək. ABŞ və dünya üçün isə əsas olan qlobal marşrutun reallaşmasıdır. Burada Azərbaycanla Ermənistan arasında seçimdə birinciyə üstünlük vermək həm də prinsipial məsələdən kənar əlavə problem axtarmamaq baxımından vacibdir. İkincinin bu məqamı düşünməsi şərtdir. Paşinyan administrasiyası onu da dərk etməlidir ki, dünya, böyük ölçüdə, güclünün tərəfindədir. Əlbəttə, indiki halda söhbət ölkəmizin timsalındakı ədalətli gücdən gedir.

Bütün bunlara görə Stratforun analitiki cənab Orr birbaşa bildirir ki, ABŞ-Ermənistan strateji tərəfdaşlıq xartiyası Bakı və İrəvan arasında hərbi eskalasiya baş verəcəyi təqdirdə, Birləşmiş Ştatların güclü müdaxiləsini nəzərdə tutmur. "Yeni administrasiya həm Türkiyə, həm də Azərbaycanla münasibətləri əvvəlki administrasiyadan daha yaxşı saxlamaq istədiyi üçün, düşünürəm ki, qətiyyətlə müdaxilə etməyəcək", – deyən analitikin açıqlamasından sonra ortaya suallar çıxır. Bakı ilə Vaşinqton arasında münasibətlər necə inkişaf edəcək və İrəvan durumdan hansı nəticəni çıxarmalıdır? ABŞ – Azərbaycan münasibətlərinin inkişafı Ermənistanı Azərbaycanla sülh sazişinə doğru daha sürətlə irəliləməyə sövq edəcəkmi?

Əvvəldə də bildirdik ki, ABŞ-ın hazırkı administrasiyası anti-İran ovqatlıdır. Azərbaycan amili ona bu səbəbdən vacibdir. Amma, bu, heç də o demək deyil ki, ölkəmiz İrana qarşı Birləşmiş Ştatların plasdarmı rolunda çıxış edəcək, yaxud edə bilər. Məlumdur ki, rəsmi Bakı illərdir belə ampluada olmağa razılıq verməyib. Əslində, Azərbaycan indi də eyni kursu davam etdirir. Sadəcə, İran ölkəmizin mövqeyinə praqmatik yanaşmağı bacarmalıdır. Əsas məqam bu bacarığın olub-olmaması ilə bağlıdır. Məsələn, son vaxtlar İran rəsmilərinin Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin pozulmasının, regionda sərhədlərin dəyişməsinin yolverilməzliyinə dair açıqlamalarının sayı artmaqdadır. Görəsən, rəsmi İrəvanın mövqeyinin müdafiəsi, daha doğrusu, Paşinyan iqtidarının Bakı ilə barışmazlığının leksikonu təsiri bağışlayan bu tərz nə deməkdir? Axı Azərbaycan da bildirir ki, Zəngəzur dəhlizi Ermənistanın sərhəd toxunulmazlığının inkarı anlamına gəlmir. Ölkəmiz, sadəcə, Naxçıvana maneəsiz yolda israrlıdır və həmin yolun məqbulluğunu istər hazırkı şərait, istər İrəvanın 44 günlük müharibənin məğlubu kimi üzərinə götürdüyü öhdəliyinin icrası, istərsə də tarixi ədalətin qismən bərpası baxımından əsaslandırır və baxışında haqlıdır. Prinsipcə, Tehrana buna qarşı çıxmaq vacib deyil. Həm də ona görə ki, Zəngəzur dəhlizinin reallaşmasında İran – Ermənistan sərhəd xəttinin, yəni İslam respublikasının düşüncə mərkəzlərinin vurğuladıqları kimi, ənənəvi yolun aradan qalxması kimi bir durum yoxdur. Yəni Azərbaycanın erməni avantürizminin perspektivinə əngəl törətmək potensialını özündə daşıyan təklifi mütərəqqidir. Hətta o qədər mütərəqqidir ki, Ermənistanın özünün də Zəngəzur dəhlizindən faydalanmasını nəzərdə tutur. Baxmayaraq ki, ölkə işğalçı keçmişini təmizləmək üçün heç nə etməyib, bəraət almayıb. Başlıca suallardan biri isə budur ki, Ermənistana Azərbaycanın təklif etdiyi Zəngəzur dəhlizindən fayda götürmək lazımdır, yoxsa Bayden administrasiyasının kortəbii şəkildə qol qoyduğu ABŞ – Ermənistan xartiyası?

Uzun sözün qısası, Azərbaycan amili bütün qütblər üçün vacibdir. Bu baxımdan ABŞ-ın yanaşmasının praqmatizmi rəhbər tutacağını bildirənlər var. Məsələn, amerikalı analitik və publisist Samson Katsman "Caliber.Az"a açıqlamasında Azərbaycan amilinə sözügedən xartiya xüsusunda münasibət bildirərkən deyib ki, Tramp Administrasiyası ideoloji yanaşmadan kənardır. Ona görə də sənədə yenidən baxacaq. Ən əsası isə Azərbaycan o qədər vacib regional oyunçudur ki, Trampın məqsədlərinə uyğun olaraq ölkənin unikal coğrafi mövqeyindən və imkanlarından istifadə etməməsi mümkünsüzdür: "Deyə bilərəm ki, iki ölkə (ABŞ və Azərbaycan) arasında müəyyən qarşılıqlı fəaliyyət artıq həyata keçirilir".

Sonda onu da deyək ki, indidən ABŞ-ın Cənubi Qafqaz siyasəti ilə bağlı bütün məqamlara aydınlığın gəlməsi mümkünsüzdür. Ancaq bildirdiklərimiz Birləşmiş Ştatların Trampa qədərki administrasiyasının Ermənistanla imzaladığı strateji tərəfdaşlıq xartiyasının artıq indidən heç bir önəm daşımayacağını söyləməyə imkan verir. Hətta onu da bildirmək mümkündür ki, sənəd Bayden və komandasının Ukrayna istiqamətində olduğu kimi, Cənubi Qafqaz müstəvisində də yeni Prezident üçün problem yaratmaq niyyətinə hesablanmış hikkəsindən başqa bir şey deyil. Tramp və tərəfdarları hazırda özlərini, ilk növbədə, köhnənin problemlərindən yaxa qurtarmağa kökləyiblər. Onlar sonra nə edəcəklər, bunu zaman göstərəcək.

**Ə.RÜSTƏMOV**
**XQ**

**Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun açıqlaması, əslində, Xarici işlər nazirinin müavini Mixail Qaluzinin bir neçə gün əvvəl "İsvestiya"ya müsahibəsində bildirdiklərinin bir növ təkrarıdır. O mənada ki, Qaluzin vasitəçilikdən danışmışdı, Peskov da ondan söz açır. Birinci Azərbaycan və Ermənistan arasında Qərb vasitəçiliyini, ikinci Rusiyanın Bakı – İrəvan normallaşmasına dəstəyini qabardır. Daha dəqiq desək, Qaluzin Qərbin təşəbbüsünün ziyanlı ola biləcəyini diqqətə çatdırmışdı, Peskov isə ölkəsinin vasitəçiliyə hazır olmasını vurğulayır. Ancaq bu iki şəxsin bildirdiklərində bir oxşarlıq var.**

# İrəvan Moskvanın vasitəçiliyini qəbul etmir

## *Qaluzinin və Peskovun fikirlərində oxşarlıq*

Bəli, Rusiya XİN rəhbərinin müavini Qərb vasitəçiliyini, bir növ, süngü ilə qarşılamışdı, hətta bildirmişdi ki, Bakı ilə İrəvan arasında tələm-tələsik imzalanacaq sülh müqaviləsi regionun gələcəyi altına qoyulmuş bombadır. Prezidentin mətbuat katibi isə Ermənistan parlamentinin spikeri Alen Simonyanın fikirlərinə münasibət bildirərkən deyib: "İrəvandan müxtəlif səviyyələrdə bəyanatlar verilib ki, vasitəçilərə ehtiyac yoxdur, İrəvan və Bakı bu prosesi özləri başa çatdırmağa qadirdirlər. Əlimizdən gələn hər cür yardımı göstərməyə



hazır olsaq da, onların səylərini alqışlayırıq. Əsas odur ki, region – Cənubi Qafqaz proqnozlaşdırıla bilən, sülhsevər qalsın, tərəqqi və əməkdaşlıq məkanına çevrilsin".

Qeyd edək ki, A.Simonyan ölkəsinin Azərbaycan – Ermənistan münasibətlərinin nizamlamasında Rusiyanın vasitəçiliyinə imkan verilməyəcəyini açıqlayıb. Peskov tərəflərin anlaşması nəticəsində Cənubi Qafqazın proqnozlaşdırıla bilən məkana çevrilməsinin vacibliyindən söz açıb və dolayısı ilə onların müstəqil səylərinin belə bir durumu yaratmaq üçün yetərsizliyinə də diqqət yönəldib. Başqa sözlə desək, "Rusiyasız sülh mümkünsüzdür" mesajını verib. Qaluzin isə Cənubi Qafqaz üçün, belə demək mümkünsə, bomba perspektivi məntiqi ilə həm sülhün Rusiyasız ola bilməyəcəyini, həm də mövcud istiqamətdəki Qərb vasitəçiliyinin səmərəsizliyini vurğulayıb.

Azərbaycan bir ildən çoxdur bəyan edib ki, Bakı – İrəvan münasibətlərində vasitəçilərə ehtiyac yoxdur. Ermənistan rəsmiləri bunu açıq şəkildə bildirməsələr də, aydındır ki, onlar Rusiyanın prosesdə yer almasını istəmirlər. Ancaq indi Simonyanın fikirləri İrəvan üçün Kremlin vasitəçiliyindən tamamilə imtina edilməsinə işarədir. Əlbəttə, bu, hələ o demək deyil ki, erməni hakim komandası Qərbin vasitəçiliyindən də üz döndərəcək.

Qeyd edək ki, M.Qaluzin müsahibəsində Azərbaycan, Ermənistan və Rusiya baş nazirləri müavinlərinin birgə işçi qrupunun fəaliyyətindən, o cümlədən İrəvanın həmin qrupun işini pozmasından söz açmışdı. Simonyanın dilə gətirdikləri bu platformanın da sıradan çıxması anlamına gəlir. Deməli, artıq Rusiya nə sülh sazişi, nə sərhədlər üzrə, nə də kommunikasiyaların açılması danışıqlarında iştirakçıdır.

Əlbəttə, Rusiya məsələnin belə qoyuluşu ilə razılaşmayacaq. D.Peskovun açıqlaması zahirən durumla barışılması təsiri bağışlasa da, əslində, Kremlin rahat dayanmayacağını ehtimal etmək mümkündür. Rusiyanın Ermənistanla münasibətləri yaxşı deyil, Azərbaycanla pisləşib, Gürcüstanla problemlər var. Belə bir durumda ölkənin Cənubi Qafqazdan yapışmaq üçün hansısa rıçaqı yoxmuş kimi görünür. Məsələyə mövcud kontekstdən yanaşsaq, Rusiya Prezidentinin mətbuat katibinin "biz normallaşmaya hər cür dəstək verməyə hazırıq" kəlməsindənsə, "tərəflərin müstəqil işləmək istədiklərinə hörmətlə yanaşırıq" fikri daha rasional səslənir. Təbii ki, əgər Moskva rasionallığı qorusa, onu siyasət praqmatizmi baxımından dəyərləndirsə.

Bəs Rusiyanın Azərbaycan – Ermənistan münasibətlərinə qarışmaq, Cənubi Qafqazda söz sahibi olduğunu göstərmək üçün ata biləcəyi hansısa addımlar varmı? Daha doğrusu, ölkə belə bir təsir gücünə malikdirmi? Axı Qaluzinin və Peskovun sözlərindən bu qənaətə gəlmək mümkündür ki, Moskva, necə deyərlər, müqəddəs yerin boş qalmasının yolverilməzliyini anlayır. Əlbəttə, Kreml arxayın ola bilər ki, Azərbaycan regionu əməkdaşlıq məkanına çevirəcək, yəni boşluğun avantürizmlə doldurulmasına, eləcə də bölgənin Qərbin plasdarmına çevrilməsinə imkan verməyəcək. Amma Rusiya bu ehtimallarla kifayətlənəcəkmi?

İnanmırıq ki, kifayətlənsin. Rusiya Qərbin Ermənistanı regional alət kimi istifadəsinə ümid bəsləyəcək. Hərçənd, ABŞ-da Donald Trampın hakimiyyətə gəlişi ilə Qərbin də Cənubi Qafqaz planlarında dəyişikliyə gedəcəyi, erməni avantürizminə siyasi sərmayə yatırmaq istəklərinin iflasa uğrayacağı aşkardır. Fransa isə İrəvan üçün təkbaşına təəssübkeşlik baxımından çox zəifdir. Hərçənd, bu zəiflik hələ heç nə demək deyil. Çünki İrəvan regional sülh baxımından "Dünyanın kəsişməsi" təşəbbüsünü rəhbər tutduğunu açıqlayır və nəyəsə ümid bəsləyir.

Azərbaycan "Dünyanın kəsişməsi"nə razı deyil və özünün Zəngəzur dəhlizi gündəmində israrlıdır. Belə bir durumda Cənubi Qafqazda gərginlik ehtimalı artır. Nəzərə alaq ki, bölgədə Moskvanın "əlavə qıcıqlandırıcılar" adlandırdığı Avropa İttifaqının tərkibi alman polislərindən və fransız jandarmlarından ibarət mülki müşahidə missiyası var. O missiya ki, onun NATO təsisatına çevrilməsi barədə fikirlər aktuallaşır. NATO-nun adının çəkildiyi istənilən ərazi isə Rusiya tərəfindən qanuni hədəf qismində qiymətləndirilir. Deməli, hazırda Moskvanın ümid bəsləyəcəyi bir durum var ki, o da regionda gərginliyin yüksəlməsidir.

Əlbəttə, Rusiya Cənubi Qafqazdakı mövcudluğunu leqallaşdırmaq baxımından başqa vasitələr də axtara bilər. Yəni, ölkənin hansısa vəziyyəti əsas götürüb regionla əlaqəsinin olduğunu ön plana çəkməsi və hərəkətə keçməsi mümkündür. Axı onun üçün müxtəlif bəhanələr tapmaq elə də asan iş deyil. Hətta, illər ərzində ölkə bütün rıçaqlarını və bəhanələrini xərcləsə də. Nəzərə alaq ki, tam mümkünsüzlük şəraitində Moskvanın yeganə çıxış yolu var. Ermənistan iqtidarını devirmək. Ermənistanda ruspərəstlərin mövqeləri əvvəlki illərdəkindən xeyli zəif olsa da, Kreml dairələrinin nələrisə, o cümlədən siyasi terroru düşünmələri mümkündür.

**R.ƏVƏZ**
**XQ**

**Ermənistanda çoxsaylı müxalifət düşərgəsinə çevrilmiş "Qarabağ klanı" nə reallığı qəbul etmək istəyir, nə də hökumətlə yola gedir. Əksinə, Hayastan isteblişmentinin Bakının tarixin arxivinə göndərdiyi Qarabağ münaqişəsinin sona çatdığı və geriyədönüşün mümkünsüzlüyü barədə bəyanatları onlarda qıcıq yaratmaqda davam edir. Misal üçün, bu günlərdə Ermənistan parlamentinin sədri Alen Simonyanın jurnalistlərlə söhbəti zamanı səsləndirdiyi ittihamlar İrəvan hakimiyyəti ilə Qarabağı könüllü tərk etmiş separatçı tör-töküntüsü arasında yeni ictimai münaqişəyə gətirib çıxarıb. Buna səbəb əslən qarabağlı hay jurnalistin parlamentin sədrinə ünvanladığı "Ermənilər Qarabağa nə vaxt qayıda biləcəklər?" sualına gözlədiyi cavabı ala bimaməsi olub.**

# İrəvanda ehtiraslar soyumaq bilmir

## *Qarabağdan köçən ermənilər "bəlkə də qaytardılar" xülyasına ümid edirlər*

Suala "Ora nə vaxt təhlükəsiz olarsa, o zaman" formasında məntiqi cavab verən Simonyan ardınca açıq mətnlə Qarabağ ermənilərini cəsarətsizlikdə ittiham edərək Azərbaycan Ordusunun 2023-cü ilin sentyabrında həyata keçirdiyi lokal antiterror tədbirləri zamanı "yetərli müqavimət göstərmədiklərini" deməsi ehtirasları coşdurub. Bu azmış kimi, Alen Simonyan keçmiş qarabağlı soydaşlarına belə bir xatırlatma da edib: "Sonra təhlükəli olduğuna görə oranı tərk etdiniz".



Yəni, spiker demək istəyir ki, onlar Azərbaycanın Qarabağ iqtisadi rayonunda qalıb, Xankəndidəki separatçı rejimlə birgə sona qədər mübarizə apara bilsələr də, çıxıb gediblər: "Siz hər şeyi atdınız – Ermənistanın verdiyi silahları, mülkünüzü və Qarabağı tərk etdiniz. Hər şeyinizi atıb qaçdınız. Amma mən demirəm ki, "qarabağlılardan" heç biri Qarabağ uğrunda döyüşməyib".

***

Bununla da kifayətlənməyən A.Simonyan növbəti açıqlaması ilə 2023-cü ilin sentyabrında Xankəndidə yaşananların həqiqi mənzərəsini gözlərimiz önündə canlandırıb: "Yəni oradan bizə zəng edib dedilər ki, biz gedirik, daha burada qala bilmərik. Sərhədləri açın, gedirik! Biz isə onlara cavab verdik ki, hamınız getsəniz, bəs orada kim döyüşəcək? Qalan əsgərlər? Cavabında ancaq üstümüzə qışqırdılar: Yox, yox, yox! Sərhədi açın, hamımız gedirik! Dedilər ki, sərhəddə atəş səslərini eşidən kimi Sünikdəkilərin hamısı yığışıb qaçacaq. Ona görə deyirəm ki, hamınız qalıb sona qədər mübarizə aparmalıydınız".

Parlament sədrinin "bəlkə də qaytardılar" xəyalından əl çəkə bilməyən hayların ünvanına səsləndirdiyi ittihamları sosial şəbəkələrin erməni seqmentində kin və qəzəb dalğasına, şiddətli tənqidlərə və təhqirlərə səbəb olub. Qarabağ separatçıları Alen Simonyanı "əxlaqsızlıqda və iradəsizlikdə" ittiham ediblər.

Azərbaycanın Qarabağ bölgəsində törətdiyi cinayət əməllərinə görə hazırda Bakıda məhkəməsi davam edən separatçı David Manukyanın qardaşı, parlamentdəki "Ermənistan" müxalifət fraksiyasının deputatı Qeqam Manukyan Azərbaycan Ordusunun antiterror əməliyyatı zamanı məhv edilmiş qanunsuz erməni silahlı birləşmələrinin hərbi qulluqçularının siyahısını dərc edib. O, A.Simonyandan "əsassız ittihamlar" səsləndirmək əvəzinə bu siyahını ucadan oxumağa çağırıb.

Bu arada Hayastan parlamentinin spikerinin məlum bəyanatından sonra ləğv edilmiş separatçı rejimin sonuncu "lideri", özünü hələ də "DQR prezidenti" adlandıran Samvel Şahramanyan ictimai səhnədə peyda olub. O, parlament sədrini Qarabağ ermənilərindən "ictimai şəkildə üzr istəməyə" çağırıb, həmçinin Simonyandan həlak olan Qarabağ ermənilərinin adlarının açıqlanmasını tələb edib.

***

Köçəryan–Sarkisyan düşərgəsindən olan digər deputat Tiqran Abramyan isə təhlükəsizlik şurasının katibi, martunili Armen Qriqoryanın dövlət rəsmiləri tərəfindən Qarabağ ermənilərinə qarşı "təhqir və nifrətin qızışdırılmasına" reaksiya verməməsindən hiddətləndiyini deyib.

Onun sözlərinə görə, Qriqoryan nəinki "təhqir və istehzanı" pisləmir, həm də Ermənistan hakimiyyətinin hazırkı şüarının – "Qarabağ Azərbaycandır və nöqtə!"nın tərəfdarlarından birinə çevrilib. Doğrudur, Ermənistanın hakimiyyət nümayəndələri ilə Qarabağı könüllü tərk etmiş separatçılar arasında ictimai qarşıdurmalar əvvəllər də qeydə alınıb.

Xüsusilə, baş nazir Nikol Paşinyanın çıxışlarının birində "Qarabağ xalqı iki milyard dollarlıq silahı buraxıb və 24 saat ərzində təslim aktına imza atıb" bəyanatından sonra daxildə siyasi atmosfer gərginləşmiş, keşiş Baqratın başçılığı ilə paytaxt İrəvanı və bölgələri etiraz dalğası bürümüşdü. Etirazçıların hökumətə cavab olaraq gətirdikləri "arqument" ondan ibarət olub ki, Ermənistan hakimiyyəti keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti"ni Azərbaycanın bir hissəsi kimi rəsmən tanıyaraq onlara, sadəcə, seçim imkanı qoymayıb.

Qarabağ separatçılarını "sona qədər döyüşməməkdə və silahlarını təhvil verməkdə" ittiham edən Ermənistan parlamentinin sədrinin açıqlamasından sonra qarşıdurma daha da kəskinləşib. O da sirr deyil ki, hay cəmiyyətinin daxilində mövcud iqtidara qarşı etiraz dalğasını körükləndirməyə hazır kifayət qədər "təşəbbüskar" var.

**İ.HƏSƏNQALA**
**XQ**

Günün müzakirəsi

# Bilik tərəqqi qaynağı, kitab bilik xəzinəsidir

*Lakin "elektron yürüş" bu sərvətin üstündən ötüb keçir*

**Bu gün Beynəlxalq Kitab Bağışlama Günüdür. Kitab insanın düşüncə və təfəkkür sərhədlərini genişləndirən, mənəvi dünyasını zənginləşdirən qaynaqdır. Tarix boyu kitab biliyin, mədəniyyətin və müdrikliyin daşıyıcısı olub, insanları birləşdirən vasitə sayılıb. Hər kəsin həyatında istər bədii-publisistik, istərsə də elmi, texniki kitabların, dərsliklərin özünəməxsus yeri var. Kitab Bağışlama Günü isə bu əvəzsiz sərvəti paylaşmaq və bilik, bilgi xəzinəsindən bol-bol bəhrələnmək üçün gözəl fürsətdir.**

Təəssüf ki, bəsirət gözünü işıqlandıran, fərqli həyat təcrübələrini bir araya gətirib insanları kamilləşdirən kitaba münasibət dəyişkən xarakterlidir. Müasir dövrün ən böyük problemlərindən biri də informasiya texnologiyalarının "yürüşü" səbəbindən bir çox yerlərdə, elə Azərbaycanda da kitabların nisbətən az oxunması və yeni nəsillərin mütaliəyə bir növ lazımi önəm verməməsidir. Bəziləri kitaba, sanki, ehtiyac duyulmayan köhnə əşya kimi baxır, ona evlərində yer tapmır. Əvəzində isə elektron cihazları – mobil telefonları, "İpHone"ləri, sosial media və qısa məlumatlandırma platformalarını daha "əziz" tuturlar.

Belə bir yanlış tendensiya yaranıb ki, informasiya almaq üçün saatlarla kitab oxumağa deyil, tez və anında əldə edilən məlumatlara üstünlük verilir. Elektron kitabların və audiokitabların artan populyarlığı da bu dəyişimə təkan verir. Əslində isə kitab mütaliəsi, sadəcə, zövq məsələsi deyil, həm də cəmiyyətin intellektual, emosional və mənəvi inkişafı üçün son dərəcə vacib amildir.

Kitab Bağışlama Günü ərəfəsində "Xalq qəzeti" redaksiyasında bu sahənin mütəxəssisləri ilə "dəyirmi masa" ətrafında fikir mübadiləsini də elə kitaba hörmət bəsləməyə, mütaliəyə, bununla bağlı problemlərə və çıxış yollarına həsr etmişdik.

**"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov qonaqları salamlayaraq bildirdi ki, son vaxtlar redaksiyadan mütəxəssislərin iştirakı ilə müxtəlif sahələrlə bağlı "dəyirmi masa"lar təşkil edilir:**

– Bugünkü mövzumuz isə kitablarla bağlıdır. Ümumiyyətlə, ölkəmizdə kitab lazımınca oxunurmu? Oxunmursa, səbəb nədir? Ötən günlərin birində işə gələrkən zibil yeşiklərinin yanında, təxminən, yarım maşın kitabın atıldığını, ətrafa səpələndiyini gördüm. Birinin vərəqləri çevrilib, digəri başı aşağı qalıb, o biri zibil yeşiyinin içərisində, başqa birinin üzərindən maşınlar keçib... Elə bil, kitablar ağlayırdı. Acınacaqlı deyilmi? Axı kitab belə münasibətə layiq deyil. Bəs bu nadanlıq haradan qaynaqlanır?

Keçən ilin dekabrında Türkiyədə olarkən kitab mağazalarına da baş çəkdim. 30–40 nəfər kitab almaq üçün növbəyə dayanmışdı. Əvvəl elə zənn etdim ki, kassa işləmir. Sonra gördüm ki, satıcı sürətlə işləyir və növbələr daha da artır. Deyilənə görə, ötən əsrin 40–50-ci illərində Türkiyədə kitab oxuyan az imiş. Müasir dövrdə qardaş ölkə kitaba qayıdıb. Ümid edirik ki, ölkəmizdə, hətta işğaldan azad edilmiş ərazilərimizdə kitaba qayıdış da bərpa olunacaq. Artıq Şuşada, Laçında, Füzulidə kitabxanalar açılıb.

**Tahir Aydınoğlu, "Xalq qəzeti"nin redaktor müavini:**

– Müşahidələr göstərir ki, ölkəmizdə latın qrafikasına keçiddən sonra gələn nəsil kiril əlifbalı kitablara, nədənsə, dəyər vermir. Axı nəinki kiril əlifbalı nəşrlər, orta əsrin əlyazmaları da, ötən dövrlərin kitabları da yaxşı mənada köhnə olmaları ilə daha yüksək dəyər daşıyır. Çünki onlar daha yaranmır. Sual oluna bilər, kiril qrafikalı kitablar, doğrudanmı daha lazım deyil? Məgər kiril əlifbası ilə çıxmış bütün bədii, elmi kitablar latın qrafikasına çevrilibmi? Əlbəttə, yox. Bir müşkül də budur ki, özəlləşmə nəticəsində kitab mağazalarının çoxu, eləcə də kütləvi kitabxanaların da bəziləri sıradan çıxarıldı. Oxucuların kitabdan "soyumasının" bir səbəbi də, bax, budur.

**Əli Nəcəfxanlı, "Xalq qəzeti"nin humanitar siyasət şöbəsinin müdiri:**

Nizami Gəncəvinin məşhur bəndi var:

**Dünyada nə qədər kitab var belə,**
**Çalışıb-vuruşub gətirdim ələ.**
**Oxudum, oxudum, sonra da vardım,**
**Hər gizli xəznədən bir dürr qopardım.**

İndi bəziləri kitaba nə xəzinə kimi baxır, nə də dürr kimi. Telefonlar gənclərimizə oxumaq imkanı vermir. Avtobusda, metroda qəzet oxuyana belə nadir hallarda rast gəlirik. Elə bil, kitab kirpidir, tikanı var, əlinə batar. Gəlin, kitaba olan marağın azalma səbəblərinə nəzər salaq, adamları tutarlı arqumentlərlə elə maarifləndirək ki, bir daha kitabları zibilliklərdə, ağacların dibində tullantı kimi görməyək. Özü də nə vaxtsa həsrətini çəkdiyimiz, dəyərli kitablar da atılır. Ən faciəlisi də budur ki, atılan kitabların arasında müəllif avtoqrafı ilə hədiyyə olaraq kiməsə bağışlananlar da az deyil. Hədiyyəyə, mənəvi əmanətə belə yanaşılarmı?

Ata rəhmətə gedib, övlad kitab oxumur və bu "kağız kərpiclər" evdə darısqallıq yaradır. Çıxış yolunu o kitabları atmaqda görürlər. Əlbəttə, ürək ağrıdan mənzərədir. Ömrünü-gününü kitaba həsr edən mötəbər qələm sahibləri, naşirlər kimi, qonaqlarımızın fikirlərini dinləmək, qəzet səhifələrinə çıxarıb oxucuları maarifləndirmək, geniş müzakirə açmaq üçün neyləmək lazımdır?

**Kərim Tahirov, Azərbaycan Milli Kitabxanasının direktoru, professor:**

– Bəli, kitab mövzusunu qabartmalıyıq, bu barədə daim danışmalıyıq. Baxın, 90-cı illərin əvvələrinə kimi Türkiyədə kitab oxunmurdu. Amma indi qardaş ölkədə tamamilə əksinədir. O zaman ölkəmizdə olan univermaqlarda satılan kitablar Türkiyədən qonaq gəlmiş elm adamlarını təəccübləndirirdi. Qardaş ölkə bizə o vaxt həsəd aparırdı, indi, əksinə, biz onların kitab oxumalarına arzu aparırıq.



Zibil yeşiklərinə kitabların atılmasından danışıldı. Razıyam, belə mənzərəyə bəzən mən də şahidlik edirəm. Neçə ildir mətbuatda səsləndirirəm ki, kitabları tullamayın. Əgər evinizdə artıqlıq edirsə, sizə maneə yaradırsa, gətirin Milli Kitabxanaya. Bizdə Açıq Kitabxana da fəaliyyət göstərir, "Kitabları yaşadaq" layihəmiz də var. Devizi budur: "Mən oxudum, sən də oxu". Bu, bir çağırışdır. Açıq ərazidir, kitabları ora qoyun, heç kimə heç nə demədən, heç bir sənədə imza atmadan, hesabat vermədən gedin. Zibilxanaya atmayın, günahdır. "Qurani-Kərim" də kitabdır. Kitab əlçatmaz olmalıdır, onu laqeydcəsinə tullamaq, ən azı, mədəniyyətsizlikdir.

Bizim Açıq Kitabxanaya qoyulan kitablara kimin ehtiyacı varsa, götürür, yerinə yeni kitablar gətirilir. Kim hansı kitabı istəyir, oradan lap həmişəlik, özü də havayı aparsın, çünki biz onu ödənişlə almamışıq. Biri qoyur, digəri götürür. Məqsədimiz odur ki, kitablar atılmasın.

Onu da deyim ki, gənclərimizin kitaba həvəsi o qədər də az deyil. Bizim də vəzifəmiz bu marağı daha da artırmaqdır. Gənclərin hamısını nəzərdə tutub "kitab oxumurlar" deməyək. Bizim 700 nəfərlik zallarımızda boş yer olmur. Onlar pilləkənlərdə əyləşib kitab oxuyurlar. Gənclərə şərait yaradırıq. Onlar başqa kitabxanalara ona görə getmirlər ki, şərait yoxdur, yeni kitablar azdır.

Çünki nəşriyyatlarımız "Kitabxana işi haqqında" Qanuna tam əməl etmirlər. Onlar yeni nəşr olunan hər bir kitabdan 4 nüsxəsini Milli Kitabxanaya təhvil verməlidirlər. Amma böyük çətinliklə ala bilirik. Deyir vermirəm, xərc çəkmişəm. Qanunu tətbiq edəndə də olursan pis adam. Başa sala bilmirsən ki, bu, qanunun tələbidir. Arxivdə, dəyərindən asılı olmayaraq, bütün kitablar olmalıdır ki, nəsillərə seçim imkanı yaransın. Təəssüf ki, müasir dövrdə çap olunan yeni kitabların 60 faizini bir araya toplaya bilmirik.

Təbliğat aparmalıyıq. "Xalq qəzeti"nin bu "dəyirmi masa"sı da bir çağırışdır. Biz ziyalılar, alimlər, ictimaiyyət bu işə zaman ayırmalıyıq. Kitabçılıq reklamları ürəkaçan səviyyədə deyil. Bunu etiraf etməliyik. Kitab mənəvi tələbatdır. Kitab yemək, paltar kimi zəruri tələbat sayılmır. Lakin bu ehtiyacı insanlara hiss etdirməliyik. Deyirlər, kitaba çağırışı universitetlərdən başlayaq. Mən düşünürəm ki, bu işi bağçalardan başlamalıyıq. Biz gecikirik. Sonra deyirik ki, uşaqlar oxumur. Valideynlər dünyasını dəyişəndə kitablar da yiyəsiz qalır. Deyirəm, atmayın, kitabları qoruyaq, ehtiyacı olanlara verək. Hətta maşın göndərirəm ki, küliyyat məhv edilməsin, kitabxanamıza daşınsın.

Kitab atmaq xalqımızın mentalitetinə ziddir. Hindistanın səfiri ilə söhbətimiz zamanı məlum oldu ki, bu ölkənin kitabxanalarında Nizami Gəncəvinin 1400 əlyazması var. Bizim öz kitabxanalarımızda dahi şairin heç 30 əlyazması yoxdur. Biz onları ölkəmizə gətirmək istəyirik. Bunun üçün xüsusi layihə işləmişik. 120-sini rəngli çap edə bilmişik. Maraqla qarşılanır, oxunur.

Hansısa yolla kitaba rəğbət yaradaq. Kitabı çölə, zibil yeşiyinə atmayaq. Kitabxanaya, dostlarımıza bağışlayaq. Əgər kitab küçəyə, zibil yeşiyinə tökülürsə, burada hamımızın günahı var. Biz insanlara izah edək, kitabın oxunmasının vacibliyini diqqətə çatdıraq.

**Əliağa Cəfərov, "Akademikkitab"ın direktoru, filologiya elmləri doktoru, professor:**

– Əvvəlcə, belə "dəyirmi masa" təşkil etdiyi üçün "Xalq qəzeti"nə təşəkkürümü bildirirəm. Bu masa ətrafında kitab üçün yanan, özünü fəda edən, ömrünü-gününü kitaba həsr edən insanlar toplaşıblar. Həqiqətən də, kitabın yayılması, mütaliəsi bizdə böyük problemə çevrilib. Sovet dövründə də bizdə kitabın oxunması problemi olub.

Bir vaxt Moskvada aspiranturada oxuduğum zaman Azərbaycanda kitab ticarətinin vəziyyəti haqqında araşdırma yazımda hazırladığım statistikaya əsasən SSRİ-nin 15 müttəfiq respublikası arasında kitabların alıcılıq qabiliyyətinə görə Azərbaycan 13-cü yerdə idi. Adambaşına ildə satılan kitabların maddi dəyəri 3 manat 50 qəpik idi. Pribaltika respublikalarında bu rəqəm 28 manat, Rusiyada 22 manat idi. Söz yox, o zamanlar kitabın funksiyası da fərqli idi. İdeoloji cəbhənin məhsulu kimi daha çox populyar idi. Bu gün tamamilə başqa mənzərədir, əsasən, milli və mənəvi maraqla bağlıdır.

2000-ci ilə qədər Bakıda 127 kitab mağazası var idi. Kitablar sovet quruluşunun ideoloji cəbhəsi sayıldığından mağazaların hamısı şəhərin ən görkəmli yerlərində qərar tutmuşdu. Çünki oradan xarici qonalar da ötürdü. O mağazalara sıradan adamlar rəhbərlik etmirdi. Mağaza rəhbərlərini kitabxananın yerləşdiyi rayonun partiya komitəsi təsdiqləməli olurdu. O rəhbərlər artıq ideoloji cəbhənin işçisinə çevrilirdilər. Partiya təşkilatları kitab evlərinə ciddi nəzarət edirdilər. Sonra "Azərkitab" adlı böyük təşkilat və 127 kitab mağazası sıradan çıxarıldı. İşbazları kitab mağazalarının yerləşdiyi ərazilər cəlb etməyə başladı. O səbəbdən də ərazilər özəlləşdirildi və kitab mağazaları aradan qaldırıldı...

O vaxt təklif edirdik ki, kitabı əhaliyə yaxınlaşdırmaq üçün şəhərətrafı ərazilərdə də mağazalar açmaq lazımdır. Bu da olmadı. Hazırkı vəziyyətdə elektron kitablar oxucuları ənənəvi kitablardan bir qədər də uzaq salıb. Qonşu ölkələrdə kitabın tirajı on minlərlə, yüz minlərlə olur, hamısı da satılır. Bizim yazıçıların 100–200 ədəd tirajla çap edilən kitabını isə şəhərin 3–5 mağazasının rəflərində toz basır.

Bir sosial məsələyə də toxunum: cinayətkarlıq, quldurluq halları da mütaliəsizlikdən yaranır. Kitab oxuyan, mütaliə ilə məşğul olan adam cinayətə əl atmaz, əyri yola getməz. Etiraf edək ki, biz kitabın təbliği, reklamı, tanıtımı ilə az məşğul oluruq. Reklam işləri baha olduğu üçün bunu edə bilmirik. Televiziyalar verdikləri efir vaxtına görə yüksək məbləğdə pul tələb edirlər. Telekanallara müraciət edilməlidir ki, kitabların tanıtımına yer ayırsınlar. Mətbuat Şurasına müraciət edək ki, qəzet rəhbərlərindən xahiş edilsin, kitabın təbliğinə ayda 1–2 səhifə yer ayırsınlar. Yeni nəşrlər barədə məlumat versinlər.

**Əli Nəcəfxanlı:**

– "Xalq qəzeti"ndə bu iş mütəmadi davam etdirilir. Kitabların təbliğinə geniş yer ayrılır. Yeni kitablarla bağlı "Kitab rəfi", "Hər kitab bir dünyadır" adlı rubrikalarımız var. Tələb qoyulmadan belə təəssübkeşlik ortaya qoyuruq, imkanlarımız daxilində kitab təbliğatı aparırıq. Amma bunu gərək bütün qəzetlər eləsin.

**Etibar Əliyev, hüquq üzrə elmlər doktoru, professor:**

– Kitab, əslində, bibliofil və biblioman olmaqla iki obraz yaradır. Bibliofil odur ki, funksional kitabxana yaradır, özü oxuyur, qeydlərini yazır. Sonra övladına ötürür ki, kitabxanası qorunsun. Böyük Avstriya yazıçısı Elias Kanetti yazır ki, faşistlər bizi ölkəmizdən qovanda anamla birtəhər 1000 kitabı salamat apara bildik. İnsanlar canının hayında olanda sonradan Nobel mükafatı alacaq Elias Kanetti anası ilə kitabları xilas edirdi. Budur, onu Nobel zirvəsinə aparan! Biblioman isə kitabxanasını gizli saxlayır. Onda, məsələn, tək nüsxəsi qalmış 18-ci əsrin "Qurani-Kərim"i, Qutenberq dövrünün "Biblia"sı var, amma kimsəyə göstərməz...

Kitab yaddaşdır. Elektron kitab ənənəvi nəşrlərin yerini tuta bilmir, onun zövqünü vermir. Kitab olan otağa girəndə özünü, sanki, klassiklərin sırasında hiss edirsən. Mən tez-tez akademiya şəhəciyində yerləşən "Akademikkitab"a gedirəm. Orada hansısa alimi, müəllimi görmürəm. Halbuki kitabxananın əhatəsində Elmlər Akademiyası, akademiyanın 20-yə yaxın institutu, bir neçə ali məktəb yerləşir. Əraziyə yaxın olan "Libraf"da da alim, yazıçı gözə dəymir. Gənclər isə görünürlər. Onlarla söhbətlərim zamanı tövsiyə edirəm ki, Əhməd bəy Ağaoğlunu, Əli bəy Hüseynzadəni oxusunlar.

Dedektiv janrda əsərlərə maraqları çox olmasın, orada cinayətkarlıq təbliğ edilir. Facebook səhifəmdə 500 kitabın təbliğatına söz vermişəm. Hazırda 149-cu kitabdayam. Baxırsan ki, bunlara da alimlər diqqət vermirlər. Bəla budur. Kitab festivallarında bəzən elə adamlar mükafatlandırılır ki, heç kitab dükanlarında olmayıb, sadəcə, kiminsə dostudur. Belə təbliğat ziyana işləyir.

Yəhudi dahiliyi, doğrudan da, var və bir çox cəhətdən kitabla, mütaliə ilə bağlıdır. Landau 21 yaşında akademik olub. Qan qrupunu kəşf edən Landşteyn 17 yaşında professor idi. 7 yaşında Yanada konsert verən Maler 17 il simfonik orkestrə rəhbərlik edib. Bəli, bu dahiliyin bir səbəbi ana genidirsə, digəri kitabdır. Çünki anaları son dərəcədə savadlı olublar.

Alman əsilli İsveçrə şairi, yazıçısı və rəssamı Herman Hesse "Sən haranı bitirmisən?" – sualına cavab olaraq deyib ki, "Babamın kitabxanasını". O kitabxanada Kant haqqında 5 kitab olub. Hesse onları zibil yeşiyinə atmayıb, daim oxuyub.

Bizdə yeni maarifçilik ideyasına ehtiyac var. İdeyaların paylaşımı vasitəsi olan intellektual konfrans – "TEDx" mühazirələri çox təşkil olunmalıdır. Mənə "TEDx" mühazirəsi veriləndə Kamal Talıbzadənin "Abbas Səhət", Laura Ferminin "Atom bizim evimizdədir" kitabları ilə səhnəyə çıxmışdım. Auditoriyaya çatdırdım ki, "ipHone" dövründə 1956–1958-ci ilin kitabları ilə səhnəyə çıxmışam. Çünki bunların hesabına biliyə marağım yaranıb. İndi elektron bizim evimizdədir. Atomdan elektrona qədər çox şey dəyişib? Təfəkkür də dəyişməlidir, yoxsa, xeyri olmaz.

Mən bir universitetdə kitabxanaya girib dedim ki, fizika, kimya və biologiya fakültələrindəki kartotekaları gətirin. Baxıb gördüm ki, axırıncı adam 1992-ci ildə kitab götürüb. Bəzən təhsil işçisi, müəllim, alim buradan kitab götürmür, kitabxanaya girmir, mağazadan da kitab almır.

Bizdə tərcümə problemləri də var. Vacib kitabların bir qismi ana dilimizə tərcümə olunmayıb. Bizdə kirillə olan kitabları haqlı olaraq latın qrafikasına çevirdilər. Amma alıcısı azdır. "Xalq qəzeti"nə təşəkkür edirəm ki, XXI əsrin 25-ci ilində toplaşıb bu məsələni müzakirəyə çıxarır. Əminəm ki, kitab heç vaxt ölməyəcək. ABŞ-da 50 faiz insan ənənəvi kitaba qayıdıb. Çünki elektronda oxuyanda yaddaşda qalmır. Vizual kitabla təmas başqa şeydir. Biz kitabxanalardan üz döndərməməliyik. Kitabı hiss etməliyik, duymalıyıq.

**Mustafa Çəmənli, Əməkdar mədəniyyət işçisi, yazıçı-publisist:**

– 45 ildən çoxdur ki, nəşriyyat sistemində işləyirəm, 14 il "Gənclik" nəşriyyatının baş redaktoru olmuşam. Həyatım kitabların içərisində keçib. Qənaətim budur ki, kitab oxumaq da vərdişdir. Mən kompüter ekranından deyil, çap edilən kitabı oxuyanda, sanki, hadisələrin içində oluram. Əsərin rejissoru da, aktyoru da özüm oluram, bütün personajları özüm düşünürəm, xəyalımda canlandıra bilirəm. Bu, mütaliəyə sevgidir. Çünki kitabla təmasda göz yaddaşı da öz rolunu oynayır.

İndi kitabdan aralı düşənlər ucuz məişət mövzularında filmlərlə, sensasion videolarla, sosial şəbəkənin bekar fəallarının yazdıqları cəfəngiyatlarla başlarını qatırlar. Nəticədə, adam öldürmək, qan tökmək, oğurluq kimi mənfi cəhətlər təlqin olunur. Kitabla, yazılı mətbuatla ünsiyyət isə insanı nümunəvi şəxs kimi yetişdirir. Yeri gəlmişkən, sizin qəzet bu gün çox gözəl çıxır. Amma, təəssüf ki, onu da əldə edib oxuyan, dəyərləndirən azdır. Adamın çəkilən zəhmətə heyfi gəlir.

Bəzi özəl televiziyalar isə pul qazanmaq xatirinə insanların əxlaqını pozmağa yönələn proqramlar, verilişlər hazırlayıb cəmiyyətə ötürürlər. Bax, bunun da qarşısı qətiyyətlə alınmalıdır ki, vətəndaşlar, ən azı, kitabdan, mütaliədən yadırğamasınlar.

Biz adamlarda daim oxumaq, maariflənmək vərdişi formalaşdırmalıyıq. Düzdür, AzTV və İctimai Televiziya kanallarında kitab maarifləndirməsinə qismən yer verilir. Amma bu tanıtımlar artırılmalıdır. Bizdə elə dəyərli kitablar var ki, reklamı olmadığına görə üzə çıxmır.

Regionlara kitabların çatdırılmasında problemlər var. 300 tirajla çap olunan yazıçının kitabı Bakıda qalır, rayonlara gedə bilmir. Bizdə nə qədər nəşriyyat, poliqrafiya müəssisələri var. Amma bir nəfər kitab ticarəti şəbəkəsi yaratmır ki, Bakıda çıxan kitabların Yevlaxda, Qusarda və digər rayonlarda satışını həyata keçirsin.

Bir vaxt mənim ilk kitabım 10 min tirajla çıxmışdı və satışı da ümumi qaydada hər bölgədə təşkil olunmuşdu. O zamanlar "Azərkitab"la bərabər, "Kəndkitab" da var idi. Bütün rayonlara, kəndlərə kitablar çatdırılırdı. İndi heç qəzetlər də vaxtlı-vaxtında abunəçiyə gedib çatmır. Laqeydlik, biganəlik sonda az bilgili, siyasi, ədəbi gündəmdən xəbərsiz adamların sayının artması ilə nəticələnə bilər. Gərək buna imkan verməyək.

Mən inanıram ki, bizim bu dediklərimiz təsirsiz qalmayacaq, ziyalılarımız, kitabsevərlər geniş müzakirəyə qoşulub kitab adlı misilsiz mənəvi xəzinəmizin dəyərini cəmiyyətə duyduracaq, anladacaqlar. Bununla yol verilmiş nöqsanları da aradan qaldırmaq zərurəti yaranacaq.

**Şəmistan Nəzirli, tədqiqatçı jurnalist, Prezidentin fərdi təqaüdçüsü:**

– Görün, dahilərdən biri nə deyib: "Ağıllı olmaq üçün 10 kitab oxumaq bəs edir, amma o 10 kitabı tapmaq üçün yüzlərlə kitab oxumaq lazımdır". Belə bir obrazlı fikir də var: "Kitablar zamanın dalğaları ilə səyahət edən və nəsildən-nəslə öz qiymətli yükünü ehtiyatla aparan fikir gəmiləridir". Baxın, nə qədər ibrətamizdir!

Mən kitab oxuyanda mütləq yaxşı cümlələrin altından xətt çəkirəm, hələ bir yanına "müsbət" işarəsi də qoyuram. Bu yaşımda belə həftənin müəyyən günlərində Milli Kitabxanaya gedirəm, oxuyuram, araşdırmalar aparıram. Evlərə gedirəm, kitablar görürəm. Soruşuram ki, oxuyursunuzmu? Görürəm, oxumurlar, sadəcə, bəzək üçün oradadır.

Amma kitabların üstündə əsənlər də var. Bir dəfə ADPU-nun yaxınlığındakı bir ünvana dəvət edilmişdim. Evin sahibi 92 yaşlı Ofelya xanım çağırmışdı ki, onda nadir və qədim kitablar, şəkillər var, bəlkə, lazım olar. Getdim, ev başdan-başa kitab idi– çoxu da klassiklərin əsərləri. Elə bilirdim, bu qədər kitab təkcə mənim evimdə var. Sən demə, Ofelya xanım məndən də "varlı" imiş. Zarafatla dedim ki, ay xanım, bunları niyə saxlayırsan? Vaxtı keçib. Cavabında qayıtdı ki, sizə hörmətim var, elə deməyin. Məndən sonra qızım qoruyub saxlayacaq.

Mən ondakı nadir şəkillərin üzünü çıxarmaq üçün Ofelya xanımın qızı ilə bərabər bir fotoqrafın yanına apardım. Orada şəkillərin surətini çıxartdırıb götürdüm. Baxın, belə kitabsevərlər də var. Gərək, çalışaq, daha da çox olsun. Məsələn, məndə "Görkəmli adamların həyatı" seriyasından 1000-dən çox kitab var. "Şəxsi kitabxana" ifadəsinə indi, təəssüf ki, az-az rast gəlirik.

**Əflatun Amaşov:**

– Bəli, bütün dövrlərin həqiqəti bu gün də dəyişməyib: Biliksiz tərəqqi, kitabsız bilik yoxdur. Biz də inanırıq ki, kitaba, çap məhsillarına, elə bizim buraxdığımız qəzetlərə oxucu marağı yenidən artacaq. Əsrin "elektron yürüş"ünün bu mənəvi xəzinənin üstündən ötüb keçməsi isə tezliklə dayanacaq. Onda biz kitabları mağazaların toz basmış rəflərində, zibilliklərdə görməyəcəyik.

Qədirbilən oxucularımızı bugünkü aktual müzakirəni cəmiyyət miqyasında davam etdirməyə səsləyirik.

***XQ-nin humanitar siyasət şöbəsi***

# Şimal-Cənub nəqliyyat dəhlizi ölkəmizin qazancını artıracaq

## *Beynəlxalq yüklərin 28,3 faizi bu yolun payına düşür*

**Prezident İlham Əliyevin 11 fevral 2025-ci il tarixli fərmanı ilə "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə tranzit yük daşımalarının inkişafı məqsədilə əməkdaşlıq haqqında Saziş" təsdiq edilib.**

Azərbaycan Prezidentinin son 3 ay ərzində "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün Fəaliyyət Planı", "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı" və nəhayət, bu sazişi təsdiq etməsi nəqliyyat sektoruna dövlət qayğısını və bu



sahədən gözləntilərin artmasını göstərir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri Aqil Əsədov "Xalq qəzeti"nə təqdim etdiyi məqalədə daha sonra bildirib: "Hələ illər öncə "Neft sektorundan sonra nəqliyyat ölkə üçün ən mühüm sahədir və burada inkişaf perspektivləri çox gözəldir. Biz bütün imkanlarımızdan istifadə edərək nəqliyyat sektorunu daha sürətlə inkişaf etdirəcəyik", – deyən dövlət başçısının uzaqgörən, müdrik siyasəti bu gün öz bəhrəsini verməkdədir.

Artıq Azərbaycan nəqliyyat–transit–logistika xidmətləri ilə nəinki regionun, eləcə də Avropanın aparıcı dövlətinə çevrilir və bu istiqamətdə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi xüsusi önəm kəsb edir".

Müəllif qeyd edir ki, 2000-ci ildə Sankt-Peterburqda Rusiya, İran və Hindistan arasında imzalanmış müqavilə ilə start verilən Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinə Azərbaycan Respublikası 2005-ci ildən qoşulub. Hazırda Rusiya və Azərbaycanın əməkdaşlığı, ikitərəfli iqtisadi münasibətlərin inkişafı istiqamətində önəmli rol oynayan, Qərbi Avropanı Asiya ilə birləşdirən bu dəhliz ilə daşımaların artırılması, dəhliz boyunca infrastruktur təminatının təkmilləşdirilməsi, sərhəd –keçid prosedurlarının sadələşdirilməsi və digər məsələlər hər iki ölkənin prioritetlərinə daxildir. Bu isə nəqliyyat–tranzit əlaqələrinin uzunmüddətli perspektivə malik olduğunu ifadə edir. Bu layihənin uğurla reallaşması sayəsində 2022-ci ilədək yükdaşımaların həcmi 8 dəfə artıb. 2023-cü ildə dəhliz üzrə 9,3 milyon ton yük daşınıb və dövriyyə 2,5 milyon ton/kilometr təşkil edib.

Ölkəmizin qoşulduğu beynəlxalq nəqliyyat dəhlizləri üzrə isə, ümumilikdə, 2023-cü ildə 32,8 milyon ton yük daşınıb. Bunun 28,3 faizi Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin payına düşür. O cümlədən beynəlxalq nəqliyyat dəhlizləri üzrə yük dövriyyəsi 12 milyard 874 milyon ton/kilometr təşkil edib ki, bunun da 19,4 faizi Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsinə aiddir. 2024-cü ildə isə adıçəkilən dəhlizlə Azərbaycan ərazisindən 814 min ton tranzit yük daşınıb ki, bu da əvvəlki illə müqayisədə 28 faiz çoxdur.

Aqil Əsədovun sözlərinə görə, layihə çərçivəsində Bakıdan Rusiya ilə sərhədə qədər yeni 4 zolaqlı magistral yolun, sərhədyanı Samur çayı üzərində birgə körpünün istifadəyə verilməsi dəhlizin imkanlarını daha da genişləndirəcək. Azərbaycan ərazisində sözügedən nəqliyyat dəhlizinin həm dəmir yolu, həm də avtomobil yolu marşrutları üzərində işlər tam yekunlaşıb və davamlı təkmilləşdirici addımlar atılır. Gələcəkdə dəhlizin ötürücülük qabiliyyətinin 15 milyon ton və daha çox olması hədəflənir.

"Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün Fəaliyyət Planı"nda da bu nəqliyyat dəhlizinin potensial imkanlarını artıracaq çoxsaylı tədbirlər nəzərdə tutulub. Sərhəd-keçid məntəqələrinin infrastruktur təminatının təkmilləşdirilməsi, rəqəmsallaşmanın tətbiqi, yeni buraxılış məntəqələrinin yaradılması, gömrük xidməti ilə dəmir yolu qurumları arasında koordinasiyalı fəaliyyətin təşkili və s. nəqliyyat dəhlizinin imkanlarını reallaşdırmağa və artırmağa kömək edəcək.

Təqribən 10 il öncə, Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı İlham Əliyevin qeyd etdiyi "Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi bizə çox böyük iqtisadi mənfəət gətirəcək. Azərbaycandan keçən bu yol milyonlarla əlavə yükün bizim ərazimizdən daşınması deməkdir. Bu da həm siyasi, həm iqtisadi gəlirlər gətirəcək" – fikirləri artıq reallığa çevrilməkdədir.

"Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında adıçəkilən beynəlxalq nəqliyyat dəhlizi ilə tranzit yük daşımalarının inkişafı məqsədilə əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi isə dəhlizlə bağlı qarşıya qoyulmuş hədəflərə daha tez və səmərəli çatmağa şərait yaradacaq. Sazişin məqsədi nəqliyyat əlaqələrinin səmərəliliyini yüksəltmək və dəhlizin Qərb marşrutunun (quru yol ilə daşımalar) potensialını artırmaq, eləcə də, dəmir yolu nəqliyyatı ilə yüklərin daşıma həcminin artmasını stimullaşdırmaq və daşıma həcmlərinin artım tempi ilə dəmir yolu nəqliyyatı infrastrukturunun inkişafı arasında balansı təmin etməkdir.

Qərb dövlətlərinin Rusiyaya qarşı sanksiyalar tətbiq etdiyi indiki dövrdə sözügedən beynəlxalq nəqliyyat layihəsi bir ümid dəhlizinə çevrilib. Sanksiyaların qüvvədə olduğu müddətdə Rusiyanın xarici bazarlara çıxışı, Rusiya məhsullarının dəhlizlə Azərbaycan üzərindən Fars körfəzinə daşınması həyati əhəmiyyət kəsb edir. Bu baxımdan hazırda nəqliyyat dəhlizi Azərbaycan–Rusiya iqtisadi bağlantılarında əsas həlqələrdən birinə çevrilib.

Əslində bu gün əldə edilən uğurlar uzun illər öncədən qəbul edilmiş doğru qərarlara əsaslanır. Məlumat üçün qeyd edək ki, Prezident İlham Əliyevin "Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında" 7 dekabr 2015-ci il tarixli Sərəncamına uyğun olaraq Astara (Azərbaycan) – Astara (İran) dəmir yolu xəttinin Astaraçay üzərindəki körpüyə qədər 8,3 kilometr yeni yol tikilib, Astaraçay üzərində dəmir yolu körpüsü inşa olunub, İran ərazisində yaradılmış yük terminalına qədər 1,4 kilometr yol çəkilib. Bütövlükdə isə dəhlizin tam gücü ilə fəaliyyətə başlaması gələcəkdə Azərbaycanın da tranzit gəlirlərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq.

İlkin hesablamalara görə, ölkəmiz Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə tranzit yüklərin daşınmasından ildə 2,5-3 milyard dollara yaxın vəsait əldə edəcək. Nəzərə alsaq ki, digər istiqamətlərdə, xüsusilə Trans-Xəzər Beynəlxalq nəqliyyat dəhlizi (Orta Dəhliz) ilə də daşımaların davamlı artırılması istiqamətində ardıcıl layihələr icra edilməkdədir, onda tam əminliklə qeyd etmək olar ki, yaxın gələcəkdə beynəlxalq daşımalardan əldə olunan vəsait dövlət büdcəsinin əsas gəlir mənbələrindən birinə çevriləcək, neft sektorundan sonra nəqliyyatın ölkə üçün ən mühüm sahə olduğu konkret rəqəmlərlə də öz təsdiqini tapacaq.

# Qida təhlükəsizliyi təkmilləşdirilir

**Prezident İlham Əliyev "Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Fərman imzalayıb.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Monitorinq və qiymətləndirmə şöbəsinin müdir müavini Səbinə Cumazadə fərmanı şərh edərək bildirib ki, Əsasnamənin təsdiq edilməsi ilə yeni avtomatlaşdırılmış informasiya sisteminin ölkəmizdə tətbiqi qida təhlükəsizliyinin gücləndirilməsində böyük rol oynayacaq. Onun fikrincə, bu qərar 2019-2025-ci illəri əhatə edən Dövlət Proqramının icrasını dəstəkləməklə, qida təhlükəsizliyi sahəsində şəffaflığın, hesabatlılığın və dövlət nəzarətinin gücləndirilməsinə xidmət edir. Yeni sistemin tətbiqi ölkədə qida təhlükəsizliyinin təmin edilməsində mühüm mərhələ olmaqla bir sıra vacib yenilikləri ehtiva edir.



S.Cumazadə qeyd edir ki, bu innovativ avtomatlaşdırılmış sistem qida məhsullarına nəzarət prosesini optimallaşdıraraq dövlət qurumları arasında məlumat mübadiləsini sürətləndirəcək və inteqrasiyanı gücləndirəcək. Nəticədə vətəndaşların daha təhlükəsiz və keyfiyyətli ərzaq məhsullarına çıxışı təmin olunacaq. Sistem qida təhlükəsizliyi sahəsində rəqəmsallaşmanı və şəffaflığı artırmaqla yanaşı, nəzarət mexanizmlərini təkmilləşdirəcək və sənədləşmə proseslərini daha effektiv edəcək. Eyni zamanda, dövlət nəzarətinin gücləndirilməsi və dövlət qurumları arasında koordinasiyanın artırılması sayəsində qida təhlükəsizliyi ilə bağlı operativ və optimal qərarların qəbulu sürətlənəcək. Bundan əlavə, sistem qida məhsullarına dair məlumatların vahid elektron bazada mərkəzləşdirilməsini təmin edəcək. Bu məlumatlar real vaxt rejimində toplanacaq və analitik üsullarla təhlil ediləcək ki, bu da potensial risklərin daha tez aşkarlanmasına və operativ idarəetmənin gücləndirilməsinə imkan yaradacaq.

Qeyd edək ki, Azərbaycan Respublikasında qida təhlükəsizliyinin yeni texnoloji həllər vasitəsilə təmin edilməsi ölkənin ərzaq sektorunda keyfiyyət standartlarının yüksəldilməsinə və istehlakçıların sağlamlığının qorunmasına mühüm töhfə verəcək.

**Bakıda "Vergi xidməti – 25: Davamlı inkişaf və effektiv transformasiya" forumu keçirilib. Toplantıda Azərbaycan Prezidenti İlham Əliyevin iştirakçılara müraciəti səsləndirilib. İqtisadiyyat naziri Mikayıl Cabbarov forumda çıxış edərək qlobal çağırışlar və regional reallıqların şaxələndirmə prosesini sürətləndirdiyini bildirib. O, indiki şəraitdə "yaşıl" enerji sahəsində ölkəmizin pozitiv beynəlxalq mövqeyə sahib olduğunu vurğulayıb. İqtisadiyyat naziri, eyni zamanda, ölkəmizdə dayanıqlı iqtisadi inkişafın təmin edilməsində vergi sisteminin önəmli rol oynadığını xatırladaraq bu sahədə indiyə qədər aparılan islahatların, əldə edilən nəticələrin yalnız iqtisadiyyatı deyil, ümumilikdə, cəmiyyətin tərəqqisi baxımından mühüm önəm daşıdığını diqqətə çatdırıb.**

# Azərbaycanın yeni vergi strategiyası



M.Cabbarov qeyd edib ki, vergi siyasəti iqtisadi səmərəliliyə hər zaman böyük təsir göstərib. Bu sistem iqtisadi tənzimləmələr, sosial bərabərsizliyin azaldılması və ümumi iqtisadi inkişafın təşviqində mühüm rol oynayıb. 2019-cu ildən vergi sistemində həyata keçirilən islahatlar nəticəsində Azərbaycanda əmək münasibətlərinin leqallaşdırılması istiqamətində ciddi irəliləyişə nail olunub. Əmək bazarında təşviq mexanizminə əsaslanan vergi islahatlarının nəticələri ABŞ-ın nüfuzlu Harvard Universitetinin ekspertləri tərəfindən də yüksək dəyərləndirilib. Universitet tərəfindən aparılan təhlillər də göstərir ki, islahatlar iqtisadiyyatın "ağardılması", bizneslərin leqallaşması baxımından səmərəli olub, eyni zamanda, qeyri-neft sektorunda iqtisadi aktivliyi stimullaşdırıb. Azərbaycan eyni məsələlərlə qarşılaşan digər ölkələr üçün uğurlu nümunə hesab edilib.

Azərbaycan iqtisadiyyatı üçün prioritet sahələrdə ciddi vergi güzəştlərinin tətbiq olunduğunu deyən nazir diqqətə çatdırıb ki, işğaldan azad edilmiş ərazilərimizin reinteqrasiyasına görə təşviqlər, həssas sosial təbəqələr üçün güzəştlər, özəl sektoru stimullaşdıran addımlar, sənaye parklarında rezidentlər üçün azadolmalar, startaplar üçün stimullar, ekoloji mühiti inkişaf etdirən vergi güzəştləri qeyd olunmalıdır: "Bunlar ölkəmizdə iqtisadi aktivliyə, sosial rifaha və qeyri-neft sektorunun inkişafına təkan verən mühüm islahatlar paketini təşkil edir. Vergi sistemində islahatlar və qanunvericilikdə dəyişikliklər "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın hədəfləri ilə uzlaşır. Rəqəmsal alətlər vergi xidmətləri üzrə keyfiyyətin artmasına və biznes proseslərinin asanlaşdırılmasına yardım edir. Texnologiyaların inkişafı insanların vaxt itkisini aradan qaldırmağa xidmət edir".

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli forumda bildirib ki, bu gün dünyada vergi sistemləri yalnız dövlətin maliyyə mənbələrini toplamaqla kifayətlənmir. Onlar, eyni zamanda, iqtisadiyyatı dəstəkləyir, ədalətliliyi təmin edir və biznesin inkişafına şərait yaradır. O qeyd edib ki, əsas strateji hədəf vergi idarəçiliyində şəffaflığı, ədalətliliyi və effektivliyi artırmaqdır. Bu isə rəqəmsal texnologiyaların və innovasiyaların tətbiqi ilə gerçəkləşir. Vergi ödəyiciləri ilə qarşılıqlı münasibətləri daha da asanlaşdırmaq, vergi yığımı proseslərini sürətləndirmək və vergilərin doğru və vaxtında ödənməsini təmin etmək əsas məqsədlərdən biridir.

O.Nəzərli bildirib ki, "Dövlət Vergi Xidmətinin 2025–2028-ci illər üzrə Strategiyası" hazırlanıb. Bu strategiya vergi işçilərinin missiyasını, gələcəyə baxışını və strateji fəaliyyət istiqamətlərini müəyyənləşdirir. Dürüstlük, peşəkarlıq, innovativlik, təşəbbüskarlıq və əməkdaşlıq kimi dəyərlərə söykənərək Dövlət Vergi Xidməti insan mərkəzli və innovativ xidmətlərlə könüllü əməletməni sadə və əlçatan edən etibarlı tərəfdaş olmağı hədəfləyir.

Bu istiqamətdə əsas fəaliyyət güclü insan kapitalının formalaşdırılması, könüllü əməletmənin təbliği, vergidən yayınma ilə inamlı mübarizə, davamlı və dayanıqlı inkişaf olacaq. Əsas missiya olaraq ölkəmizin sosial-iqtisadi inkişafını təmin etmək üçün vergilərin effektivliyə və dürüstlüyə əsaslanan prinsiplərlə tam və vaxtında yığılması, "kölgə iqtisadiyyatı" ilə mübarizə aparmaqla haqlı rəqabətin təmin edilməsi daim diqqət mərkəzində saxlanılacaq.

# "Yaşıl kart"ın əhatə dairəsi genişlənir

## *Bu sistemlə 50 mindən çox müqavilə rəsmiləşdirilib*

**"İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqı (İSB) "Yaşıl kart" sistemi ilə ixtisaslaşdırılmış təşkilat funksiyalarını uğurla davam etdirib. İSB-nin bu barədə yaydığı məlumata görə, 2024-cü ildə qurum "Yaşıl kart" sistemi çərçivəsində 50 min 207 müvafiq müqavilə rəsmiləşdirib. Ümumilikdə, 7 milyon 215 min 431 manat sığorta haqqı toplanıb.**



Bu müqavilələrin 40 min 38-i Azərbaycanda qeydiyyatdan keçən nəqliyyat vasitələri üzrə olub və 2 milyon 507 min 573 manat sığorta haqqı yığılıb. Xaricdə – Gürcüstan və Qazaxıstanda qeydiyyatdan keçən nəqliyyat vasitələri üzrə 10 min 169 "Yaşıl kart" müqaviləsi rəsmiləşdirilərək 4 milyon 707 min 858 manat sığorta haqqı toplanıb. Həmçinin 2024-cü ildə Azərbaycan "Yaşıl kart" sahiblərinin təqsiri səbəbindən Rusiya, Türkiyə, Latviya, Polşa, Belarus, Rumıniya, Estoniya, Niderland və Belçikada, ümumilikdə, 314 yol-nəqliyyat hadisəsi baş verib. Bu hadisələr üzrə 1 milyon 226 min 847 manat sığorta ödənişi həyata keçirilib. Bir sığorta hadisəsi üzrə orta sığorta ödənişi 3907 manat olub.

Ötən il Gürcüstan və Qazaxıstanda qeydiyyatdan keçən nəqliyyat vasitələrinin iştirakı ilə xarici ölkələrdə baş vermiş 154 hadisə üzrə 1 milyon 280 min 397 manat sığorta ödənişi həyata keçirilib. Bir hadisə üzrə orta sığorta ödənişi 8314 manat olub. Ümumilikdə, ötən il "Yaşıl kart" sistemi çərçivəsində xarici ölkələrdə baş vermiş 468 yol-nəqliyyat hadisəsi üzrə 2 milyon 507 min 244 manat sığorta ödənişi həyata keçirilib.

2024-cü ildə Türkiyə, Ukrayna, Rusiya, Çexiya, Moldova, Macarıstan və Polşada qeydiyyatdan keçmiş nəqliyyat vasitələrinin ölkəmizdə törətdiyi 49 yol-nəqliyyat hadisəsinə görə, ümumilikdə, 96 min 667 manat sığorta ödənişi edilib.

Xatırladaq ki, İSB "Yaşıl kart" sistemi üzrə əlaqələndirici, ixtisaslaşmış təşkilat kimi fəaliyyət göstərməklə Beynəlxalq "Yaşıl kart" Sistemində Azərbaycanı təmsil edir. 2023-cü ildən etibarən Gürcüstan və Qazaxıstan Respublikasında qeydiyyatdan keçmiş nəqliyyat vasitələrinə Azərbaycan "yaşıl" kartlarının satılması həyata keçirilir.

# "Qobu" 3 ildə ölkəyə 6 milyard kilovat-saat enerji verib

**"Qobu" modul tipli elektrik stansiyasında istismara verildiyi tarixdən fevralın 1-dək 6,3 milyard kilovat-saat elektrik enerjisi istehsal edilib.**

Energetika Nazirliyinin məlumatına görə, elektrik stansiyası 2022-ci il fevralın 11-dən Abşeron rayonunun Qobu qəsəbəsində fəaliyyət göstərir. Ümumi gücü 385 meqavatlıq stansiyada hər biri 18,32 meqavat gücündə olan 21 qaz porşen aqreqatı istismar olunur.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# MDB-nin yeni idman paytaxtı – Gəncə!

Gəncə adi şəhərlərdən deyil. Onu təqdim etməyə də bir o qədər ehtiyac yoxdur. Nəinki MDB məkanında, bütün dünyada tanınır Gəncə! Bir Nizamisi yetər ki, desin:

***Gəncə - Harut sehirli Babil deyil, bəs nədir?***
***Ürəyim - ulduzlara nur saçan bir Zöhrədir.***
***Zöhrə təki ucalıb Mizan bürcünə Gəncə,***
***Onu belə ucaldan ülvi sözümdür, məncə.***

Gəncə müqəddəs şəhərdir. Gəncə milliyyətindən, irqindən asılı olmayaraq onu sevənləri daim bağrına basıb, öz övladı kimi qoruyub, qonağına "əzizimsən", düşməninə "nankorsan" deyib. Söz düşmüşkən, Gəncəni dünyaya bir də 2020-ci ilin oktyabr günlərində qonşu dediyimiz o nankorlar "tanıdıb". Öz iyrənc, xain əməlləri ilə.

Amma zaman və tarix hər işi yerbəyer eləyir. Bir də xalqın iradəsi, əzəməti, ədalətli olmasına inamı yetər ki, bütün dünya kimin kim olduğunu bilsin!

...Ötən ilin son ayının ortaları idi. Şəhər icra hakimiyyətində Niyazi Bayramovla görüşdüm. Sevinci-fərəhi üz gözündən oxunurdu, hər cümləsində "Gəncə daha gözəl olacaq" deyirdi. İlk soruşduğum bu oldu ki, "yollarımız düzələcək?" Qayıtdı ki, nəinki yol, Gəncədə, bütövlüklə, infrastruktur yenilənəcək, yeni obyektlər istifadəyə veriləcək, elektrik təsərrüfatı, su-kanalizasiya sistemi, nəqliyyat yenilənəcək". Sonra da əlavə etdi: "Cənab Prezidentimiz bir daha göstərdi ki, o, Gəncəni nə qədər sevir, inkişafı üçün əlindən gələni edir"

Bilirsiniz nəyə görə  ilk olaraq yollarımız barədə soruşmuşdum şəhər rəhbərindən? Çünki sakinlərin ən çox gileyləndiyi məsələ yolların həddindən artıq bərbad vəziyyətdə olması idi. Doğrudur, şəhərdə işlər gedirdi, yeni asfalt yollar salınırdı, təmir olunurdu. Lakin bunlar kifayət deyildi. Buna görə daha çox şəhər rəhbəri tənqid olunurdu. Amma ədalət naminə demək lazımdır ki, bu işlərdə sürətlə bütün küçələri əhatə etmək, Gəncənin başçısından asılı deyildi. Qısaca qeyd edim ki, şəhərin su və kanalizasiya sisteminn yenidən qurulması ilə bağlı 10-12 il qabaq başlanmış işin yarımçıq qalması, yaxud həddindən artıq ləng aparılması yolların bərpasına, nizama salınmasına mane olurdu. Yəni bu işlər paralel aparılmasa, onun başa çatdırılması mümkün olası iş deyil!

Amma yenə, artıq neçənci dəfə, Gəncənin köməyinə cənab Prezidentimiz çatdı. "Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" deyən dövlət başçımız  bu ilin yanvarında Davosda qarşı tərəfin müraciəti əsasında Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Odile Reno-Basso ilə görüşdü. Azərbaycan Respublikası ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında "Gəncə şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması üçün kredit sazişi" imzalandı. Gəncədə su təchizatının modernləşdirilməsi, kanalizasiya və yağış sularının idarə edilməsinin yaxşılaşdırılması, həmçinin sutəmizləyici qurğuların tikintisi üçün 35 milyon avro suveren kredit ayrılıb. Layihənin ümumi dəyəri isə 410 milyon avro təşkil edir və təbii ki, mərhələlərlə veriləcək.

Elə fikirləşməyin ki, yazının mövzusundan kənara çıxmışıq, xeyr. Gəncə MDB-nin İdman Paytaxrı elan olunubsa, demək şəhər də nümunəvi olmalıdır, özü də bütün sahələrdə.  Prezidentimiz 2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışı zamanı dedi: "Gəncə şəhəri MDB Oyunlarının mərkəzi olacaq. Gəncədə yeni stadion inşa edilir və Oyunlara qədər istismara verilməlidir. Eyni zamanda, bir neçə ay bundan əvvəl Gəncədə ölkəmizin böyük Olimpiya İdman Kompleksi açılıb. Hətta Bakı şəhərində bu boyda və bu qədər funksional standartlara cavab verən Olimpiya Kompleksi olmayıb. Üçüncü MDB Oyunlarında 7 min idmançının iştirakı gözlənilir. Əgər biz 2015-ci ilin Avropa Oyunları ilə müqayisə etsək, o vaxt təqribən 5000-5500 iştirakçı var idi".

*Azərbaycana 7 min nəfərədək idmançının gəlməsi gözlənilir, bu, Bakıdakı Avropa Oyunlarında iştirak edənlərin sayından xeyli çoxdur*



İndi özünüz fikirləşin, 7 min iştirakçını, onların komandalarını, heyətlərini qəbul etmək asanmı məsələdir? Bunun üçün, təbii ki, şərait olmaldır, yollar, obyektlər, idman qurğuları və digər işlər qaydaya salınmalıdır. Gəncəlilərin bu narahatlığına da cənab Prezidentimiz aydınlıq gətirməklə hamını sevindirib: "Gələn ildən başlayaraq Gəncə şəhərində çox böyük təmir-bərpa işləri aparılacaq. Həm şəhər infrastrukturu yenilənəcək, şəhər nəqliyyatı tamamilə yenilənəcək, tarixi binaların bərpası və digər infrastruktur layihələrimiz icra ediləcək ki, bizim qədim şəhərimiz olan, Nizami yurdu olan Gəncə bütün MDB məkanına və daha geniş coğrafiyaya öz gözəlliyini, eyni zamanda, tarixi simasını və müasirliyini təqdim etsin. Əlbəttə ki, biz təbii olaraq bu Oyunlara da hazırlaşırıq. Əminəm ki, bu Oyunların ev sahibi kimi Azərbaycan idmançıları, gənc idmançılar yaxşı nəticələr göstərəcəklər".

Gəncədə idman qurğularının vəziyyəti, hazırda bu sahədə görülən işlərdən, böyük tədbirə hazırlıqlardan danışmazdan əvvəl şəhər nəqliyyatının indiki durumuna aydınlıq gətirmək istərdik. İctimai nəqliyyat, taksi xidməti şəhərdə ən geri qalan sahələrdən biridir. Avtobusların, demək olar ki, 70-80 faizi gündəlik tələbata uyğun deyil və köhnəlmiş, sınıq-salxaq, necə deyərlər, "inqilabdan qalmış", nəqliyyat vasitələridir. Sürücülərin işinə nəzarət aşağı səviyyədədir. Mədəni xidmət hələ müasirlikdən çox uzaqdadır. Üzü tüklü, səliqəsiz geyimli, bəzən kobud davranışlı sürücülər də tapılır. Bəli, Gəncəyə yeni nəqliyyat vasitələri gətiriləcək, vəziyyət MDB oyunlarına qədər, yəqin ki, yaxşılaşdırılacaq. Amma ölkə başçımız "şəhər nəqliyyatı tamamilə yenilənəcək" deyərkən bu sahəyə cavabdeh məsul şəxslər, heç şübhəsiz, normal xidmətin də yenilənməsinə nail olmalı, tələbata cavab verən sürücü kadrları barədə düşünməli, iş aparmalıdır.

Mehmanxanalar – hərçənd onların sayı azlıq edir – indidən bu böyük tədbirə hazır olmalıdır. Bütövlükdə, digər 6 şəhərin də otellərində, qonaq evlərində, hətta fərdi evlərdə idmançıların razı qalması üçün müvafiq tədbirlər görülməlidir. Göygöl rayonunda müasir otel xidmətçiləri hazırlayan peşələrə xeyli oğlan və qız cəlb olunub ki, bu işlər alqışa layiqdir və təşəbbüs geniş yayılmalıdır. Eyni sözlər bizim ictimai iaşə müəssisələrinə, restoranlara və kafelərə də aiddir. Ölkə Prezidentinin sərəncamı ilə təşkilat komitəsi yaradılıb və bugünlərdə onun ilk iclası keçirilib. Bir sıra şəhər və rayonların icra hakimiyyəti başçılarının müavinləri o tərkibə daxil ediliblər. Yəni məsul şəxslərin tədbirlər planında bütün bunlar öz əksini tapmalıdır.

Keçək MDB paytaxtı seçilən Gəncə şəhərinin idman infrastrukturunun vəziyyətinə. Desək ki, bu obyektlər kifayət qədərdir və hamısı idealdır, bizi qınayarsınız. Çünki bu sahədə görüləsi işlər çoxdur. Lakin ümid verən odur ki, Gəncədə idmanın maddi-texniki bazasının inkişafı ölkə Prezidentinin nəzarəti altındadır. Son vaxtlar Gəncədə elə obyektlər istifadəyə verilib ki, dövlət başçımızın dediyi kimi, heç Bakı şəhərində yoxdur. Onlardan biri keçən ilin aprelində istifadəyə verilən Gəncə İdman Sarayıdır.







Ümumi sahəsi 40 min kvadratmetrə yaxın olan idman sarayında bütün zəruri infrastruktur yaradılıb. Böyük zalda beynəlxalq standartlara uyğun olaraq basketbol, voleybol, həndbol, minifutbol və atletika oyunlarının keçirilməsi nəzərdə tutulub. Bu zalda 2200 nəfərlik sabit oturacaq yeri olan tribuna, 850 nəfərlik mobil oturacaq və fiziki məhdudiyyəti olan tamaşaçılar üçün 20 yer ayrılıb. Burada, həmçinin VIP bölmə, idmançılar və hakimlər üçün müxtəlif təyinatlı sahələr və konfrans zalı yaradılıb. İdman sarayındakı üzgüçülük hovuzu Beynəlxalq Üzgüçülük Federasiyasının standartlarına cavab verir. Zalda üzgüçülük yarışlarını 1400-dən çox tamaşaçı izləyə biləcək. Fiziki məhdudiyyəti olan tamaşaçılar üçün isə 16 yerlik ərazi təşkil olunub. Üzgüçülük hovuzu da VIP bölmə, idmançılar və hakimlər üçün müxtəlif təyinatlı sahələrdən ibarətdir. Gəncə İdman Sarayının kiçik zalı müvafiq olaraq 2, 3 və 4 yerə bölünmək imkanına malikdir. Burada ağır atletika, güləş, cüdo və boks zalları, müxtəlif təyinatlı otaqlar fəaliyyət göstərir və idmanın ayrı-ayrı sahələri tədris olunur. Nəhəng idman qurğusunda Beynəlxalq İdman Atıcılığı Federasiyasının standartlarına uyğun zal, həmçinin müxtəlif ölçülü yoqa, pilates, atletika, fitnes, boulinq, masaüstü tennis, şahmat, kross-fit zalları, SPA mərkəzi, bilyard masası, uşaq otağı, 3 konfrans zalı, böyük restoran, kofe-breyk bölmələri və marketlər var. Gəncə İdman Sarayının əhəmiyyətini artıran cəhətlərdən biri də burada müasir mehmanxananın yaradılmasıdır. 80 nömrəsi olan mehmanxanada 160 idmançının qalması və istirahəti üçün hər cür imkan yaradılıb.

Şəhər stadionu da pis vəziyyətdə idi və artıq yararsız hala düşmüşdü.  Buna görə də Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli sərəncamına əsasən stadionun yenidən qurulması qərara alındı.  İndi stadionun ərazisi genişləndirilərək 10 hektara çatdırılıb. UEFA-nın 4-cü kateqoriya standartlarına uyğun inşa edilən bu nəhəng idman qurğusunun  tamaşaçı tutumu layihə üzrə 15 min 464 yerlikdir. Stadionda VVIP, VIP, SKY-box, media nümayəndələri və fiziki imkanları məhdud tamaşaçılar üçün müvafiq sayda oturacaq sahələri, futbolçular üçün soyunub-geyinmə, konfrans, tibb, hakimlər, texniki heyət üçün otaqlar və sair zəruri sahələr nəzərdə tutulur. Eyni zamanda, layihəyə əsasən stadionun daxilində bilet satışı, eləcə də müxtəlif ictimai iaşə obyektləri, yerüstü avtodayanacaqlar, nəzarət-buraxılış məntəqələri yaradılacaq. Stadion UEFA tələblərinə uyğun işıqlandırma, səs, yayım, internet, təhlükəsizlik, giriş-çıxış sistemləri ilə təchiz olunacaq. Bir sözlə, stadionun istifadəyə verilməsi istər yerli, istərsə də beynəlxalq yarışların keçirilməsinə hərtərəfli şərait yaradacaq.

Son üç ayda 2 dəfə iş gedən bu ərazidə olmuşuq. Əgər noyabrda tikintidə hər gün 80-100 nəfər çalışırdısa, hazırda onların sayı 350-400 nəfər, bəlkə də daha çoxdur. Texnikanın sayı-hesabı yoxdur. Hər yerdə iş gedir, tamaşaçı tribunalarından tutmuş, idmançıların soyunub-geyinmə otaqlarına kimi. Qeyd edək ki, ötən ilin aprelində təməli Prezidentimiz tərəfindən qoyulan stadion unikal bir obyekt olacaq və Gəncəyə xüsusi yaraşıq verəcək. Kəpəz PFK İdarə heyətinin sədri İlqar Nadiri çoxminli Gəncə azarkeşləri, idmansevərlər, şəhər ictimaiyyəti və PFK İdarə Heyəti üzvləri adından cənab Prezidentimizə hədsiz minnətdarlığımızı bildirdi. Dövlətimizin başçısını əmin edirik ki, etimadı, diqqət və qayğını əməli işimizlə doğruldacaq və futbolun inkişafı üçün əlimizdən gələni əsirgəməyəcəyik. Gəncənin MDB-nin İdman Paytaxtı elan edilməsi isə hər bir şəhər sakininə qürur verir".

Təhsil Respublika İdman Mərkəzi Gəncə şəhər 1 nömrəli Uşaq Gənclər İdman Şahmat Məktəbi PHŞ üçün inşa edilən yeni bina da öz gözəlliyi və yaradılan şəraiti ilə hamının diqqətini cəlb edəcək. Möhtəşəm obyekt 6,4 hektar ərazidə yerləşir. Burada 4-ü yeni (üzgüçülük, atıcılıq, gimnastika, qılıncoynatma) olmaqla, ümumilikdə,

> ***Gələn ildən başlayaraq, Gəncə şəhərində çox böyük təmir-bərpa işləri aparılacaq. Şəhər infrastrukturu yenilənəcək, şəhər nəqliyyatı tamamilə yenilənəcək, tarixi binaların bərpası və digər infrastruktur layihələrimiz icra ediləcək ki, bizim qədim şəhərimiz olan, Nizami yurdu olan Gəncə bütün MDB məkanına və daha geniş coğrafiyaya öz gözəlliyini, eyni zamanda, tarixi simasını və müasirliyini təqdim etsin.***
>
> ***İlham ƏLİYEV,***
> ***Azərbaycan Respublikasının***
> ***Prezidenti***

19 idman növü üzrə tədris aparılacaq. 850 nəfər tamaşaçı tutumuna malik futbol meydançası, məşqlər üçün nəzərdə tutulmuş 90 metrlik futbol meydançası, bağlı mini meydança, 520 yerlik tamaşaçı tutumuna malik basketbol meydançası, 520 yerlik tamaşaçı tutumuna malik tennis meydançası – kort, 168x48 kvadratmetr ölçüdə 10 ədəd idman zalı, 1080 nəfərlik universal zal, 1 ədəd 350 yerlik tamaşaçı tutumuna malik üzgüçülük zalı tikilmişdir. Ərazidə, həmçinin şəhərə qonaq gələn idmançıların yerləşdirilməsi üçün 80 nəfərlik otel də inşa edilir.

Qeyd edək ki, Gəncə Olimpiya İdman Kompleksinin də bu ay təmirə bağlanması planlaşdırılır. 2002-ci ilin sentyabr ayında ulu öndər Heydər Əliyevin açılışını etdiyi bu kompleks son illərdə Gəncədə çox məşhur, dünya və Avropa səviyyəli idmançıların yetişməsinə böyük köməyi olmuşdur.

...Bugünlər Gəncədə hamı sevinir. Bir tərəfdən son illər ölkə rəhbərliyinin qayğısı ilə xeyli inkişaf edən və gözəlləşən Nizami yurdunun bundan sonra da tanınmaz dərəcədə dəyişəcəyinə, digər tərəfdən belə bir möhtəşəm tədbirin Gəncə şəhərinə etibar edilməsindən hədsiz qürur hissinə görə. Prezident Administrasiyasına, Gənclər və İdman Nazirliyinə, icra hakimiyyətinə, qəzetimizin Gəncədəki müxbir məntəqəsinə saysız hesabsız məktublar daxil olur. Məsələn, şəhər sakini Elçin Cavadov yazır. "Hörmətli cənab Prezident. Sizin, doğma Azərbaycanımızın inkişafı və dünyada tanınması uğrunda apardığınız işlər əvəzsizdir. Xalqımızın firavan yaşaması, torpaqlarımızın azad olunması, Qarabağda, eləcə də digər regionlarda gedən abadlıq-quruculuq işləri Sizin apardığınız məqsədyönlü siyasətin nəticəsidir.

Möhtərəm Prezident, Azərbaycanın regionlarının inkişafı, heç vaxt Sizin diqqətinizdən kənarda qalmır. Üçüncü MDB Oyunlarının əsas hissəsinin qədim tarixə malik Gəncə şəhərində keçirilməsi ilə əlaqədar burada genişmiqyaslı quruculuq və bərpa işləri aparılır. Nizami yurdu olan Gəncə bütün MDB məkanına öz gözəlliyini, eyni zamanda, tarixi simasını və müasirliyini təqdim edəcək. Gəncə şəhərində təmir-bərpa işlərinin aparılması barədə göstəriş verdiyinizə görə Sizə öz adımdan və Gəncə şəhəri sakinləri adından dərin minnətdarlığımı bildirirəm. Sizi əmin edirik ki, Gəncə əhalisi siyasətinizi daimi dəstəkləyərək həmişə Sizinlədir."

Hələ ötən ilin oktyabrında Azərbaycan Prezidenti İlham Əliyev Rusiyada Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının iclasında çıxış edərək bildirmişdi: "Gəncə idman paytaxtı olacaq. Növbəti ildə Azərbaycanda III MDB Oyunları keçiriləcək. Gəncə şəhəri idman paytaxtına çevriləcək..."

İndi budur, Gəncədə və Azərbaycanın bir çox yerlərində möhtəşəm idman bayramına böyük hazırlıqlar başlanıb. Qədim Gəncə bu hazırlqların, bu imtahanın, bu sınağın önündə gedir. Uğur olsun, Gəncə!

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri,***

**Gəncə**

Etimologiya, toponimika

# İrəvan xanlığı və onun mahalları

**Tarixi Azərbaycan diyarı olan İrəvan xanlığının əsası 1747-ci ildə Mirmehdi xan Əfşar tərəfindən qoyulub. İrəvan şəhəri xanlığın mərkəzi olmaqla eyni adı daşıyıb. Rusiya işğalından sonra I Nikolayın 21 mart 1828-ci il tarixli fərmanına əsasən, İrəvan və Naxçıvan xanlıqları ləğv edilib.**

**İrəvan** toponiminin etimologiyası haqqında dilçilərin fikirləri müxtəlifdir. Budaq Budaqovun və Qiyasəddin Qeybullayevin qənaətincə, İrəvan toponimi türk mənşəli ir və fars mənşəli van sözlərinin birləşməsindən əmələ gəlib. İr – dalğavari dağ zirvəsi / dağın gün düşən tərəfi, van isə yer mənasını bildirir.

Bu toponimin fərqli səsləniş biçimləri olan Erivan / Arevan / Ervan / İrvan / Errevant / İrivan formalarının tərkib hissələri qismində çıxış edən ar / er / ir hissəciklərinin türk dilində er / ər / kişi/ igid kimi mənalar ifadə etdiyini qeyd edə bilərik. Digər görüşə əsasən, İrəvan fars mənşəli rəvan sözünün dialektlərdə r samiti ilə başlayan sözlərin önünə i saitinin artırılması ilə əmələ gəlib. Fars dilində rəvan – abad yer mənasını bildirir.

XIX əsrin rus tədqiqatçısı M.Nikolski İrəvan toponiminin burada yaşamış eri tayfasından əmələ gəlməsi, onların yaşadığı yer olaraq adlandırılması qənaətində olub. Digər bir yanaşmaya görə, toponim qədim urartu dilində mövcud olmuş ölkə / kənd / yer / şəhər mənalarını bildirən ebani / abani sözündən tarixi zaman kəsiyində b samitinin v ilə əvəzlənməsi ilə abani / avan / avvan / əvan formasında dəyişib.

Bu fikrin tərəfdarları İrəvan sözünün II komponenti qismində rəvan hissəciyini qəbul etməyərək onun urartu dilində yer / ölkə mənalarını verən avvan / avan sözündən törəməsi qənaətindədirlər. Dolayısı ilə qeyd etdiyimiz görüşlərdən belə bir nəticə hasil olur ki, İrəvan toponimi hazırda sadə quruluşlu görünsə də, tarixi zaman kəsiyində ir / er və ebani / avvan / avan hissəciklərinin birləşməsi ilə əmələ gəlmiş mürəkkəb quruluşlu etnotoponim olub. Belə ki, qədim türk dillərində ir / er – yer / ölkə / ərazi mənası ilə bərabər kişi / igid / ər və avan – ölkə / kənd / yer / şəhər sözlərinin birləşməsi ilə əmələ gəlmiş igidlər ölkəsi mənasını bildirir.




İrəvan xanlığı Qarabağ, Naxçıvan, Gəncə, Maku xanlıqları, Osmanlı imperiyası, Kartli-Kaxetiya çarlıqları ilə qonşu idi. Xanlıq Ağrı düzənliyi, Dərələyəz və Göyçə gölü arasında geniş bir ərazini əhatə edirdi. İrəvan xanlığı keçmiş Çuxursəd bəylərbəyliyinin ərazisinin böyük bir hissəsini əhatə etmişdir. İrəvan xanlığı 15 mahaldan: Göyçə, Zəngibasar, Vedibasar, Dərələyəz, Gərnibasar, Qırxbulaq, Talin, Karbi, Abaran, Şörəyel, Ağbaba, Sərdarabad, Dərəçiçək, Pəmbək və Lorudan ibarət olmuşdur.

**Göyçə** İrəvan xanlığının ən böyük mahalllarından biri olub. Bu ada ilk dəfə XIV əsrə aid "Zeynə tarixil güzidə" əsərində rast gəlinir. Mahalın adı eyni adlı göldən götürülüb. Hidronom göy (suyunun rəngi, saflığı və duruluğuna görə adlandırılıb) və göl sözlərindən əmələ gəlib, zamanla Göyçaydan – Göyçə formasına dönüşüb. Ermənilər tərəfindən sev (qara) və vank (kilsə) sözlərinin birləşməsi ilə ərazidə albanlar tərəfindən qara daşdan tikilmiş kilsəyə uyğun olaraq dəyişdirilərək Sevvank, hazırda isə Sevan formasını alıb.

**Zəngəzur** etnotoponimi dərə mənasını bildirən zur və yarğan məfhumunu ifadə edən car / zar / zər sözlərindən əmələ gəlib. Digər görüşə görə, toponim türk mənşəli zəngilər tayfasının adı ilə bağlıdır. Faruk Sümər onları Əlcəzair və Suriyanın hakimləri olaraq qeyd edir.

**Karbi mahalı** türk mənşəli kar sözünə ilə –pi şəkilçisinin artırılması ilə əmələ gəlib. Öz növbəsində, kar – möhkəm yer / qala sözü –p / –pi / –pe vahidi ilə birləşərək el / tayfa / qəbilə mənasını bildirir. 1930-cu ildə adı dəyişrilib və Aştarak olub.

**Abaran mahalının** adı türk mənşəli apar sözünə –an cəm şəkilçisinin artırılması ilə yaranıb, avarların yaşadığı yer mənasını bildirib. Alimlərin qənaətinə görə, bu toponim XVI əsrdə İrəvan ərazisində mövcud olmuş Abaranoğlu kəndinin adı ilə bağlıdır. bu ad 1930-cu ildə ermənilər tərəfindən Apran olaraq dəyişdirilib.



**Zəngibasar** hidrotoponim olmaqla adını ərazisindən axan Zəngiçaydan götürüb. Bu çayın daşıb mövcud ərazini basması ilə mahal Zəngibasar adlandırılıb. Bir digər görüşə görə, etnotoponim olmaqla adı zəngi tayfaları ilə bağlıdır. 1950-ci ildə adı erməniləşdirilərək Masis olub. Zəngibasar rayonu, həmçinin onun inzibati mərkəzi olan Uluxanlı ərazi vahidinin də adı Masis olaraq erməniləşdirilib. Masis sözünün kökü ermənicə mas – sahə / hissə mənasını bildirir. Masis sözü, eyni zamanda, qədim pəhləvi dilində ən böyük, proto Hind-Avropa dillərində dağ mənasını bildirir.

**Vedibasar** toponimi ərəb dilindəki یداو [vadi] və basar sözlərindən əmələ gəlib. 1968-ci ildə adı Ararat olaraq dəyişdirilib. Ararat adı isə b.e.ə. IX əsrdə yaşamış urartulular tərəfindən Arardu / Urartu formasında yüksək dağ mənasını bildirib. Hazırda ermənilər Türkiyə ərazisindəki Ağrı dağını da Ararat adlandırırlar.

**Dərələyəz mahalı** eyni adlı dağ silsiləsi ilə Arpaçay və Naxçıvançay arasında yer alan tarixi toponimlərimizdən biridir. İ.Bayramovun qənaətincə, toponim dərə və alagöz etnonimlərinin birləşməsindən əmələ gəlib. Dərələyəz oykoniminə Göygöl və Xocalı rayonlarının tərkibində də rast gəlinir. Hazırda adı erməniləşdirilərək Vayotsdzor adlandırılır. Həmçinin, qeyd edilməlidir ki, Dərələyəz mahalında yerləşən Kəlyataq, Boyadərə, Gəncək, Boğacıq və s. kimi yaşayış məskənlərinin adları da ermənilər tərəfindən təhrifə məruz qalaraq dəyişdirilib.

**Gərnibasar mahalı** hidrotoponim olmaqla adını ərazidən axan Gərni çayından alıb. Gərni sözü urartu dilində qala mənasını bildirir. 1935-ci ildə Gərnibasar mahalına daxil olan Məsimli, Bayraməli qışlağı, İmamverdi qalası məntəqələrinin, 1945-ci ildə mahalın adı erməniləşdirilərək Artaşat olaraq dəyişdirilib.

**Qırxbulaq mahalının** adı ərazidən axan eyni adlı çaydan alınıb. Qırxbulaq adına Qərbi Azərbaycanda nahiyə, kənd, çay, Şəkidə oykonim olaraq rast gəlinir. Adı öncə Ellər, daha sonra Abovyan olaraq erməniləşdirilib. Eyni adlı kəndin isə 1935-ci ildə öncə Razdan, daha sonra – 1967-ci ildə Gexaşen olaraq təhrif edilib.

**Talin mahalı** qədim ərazi vahidlərindən olmaqla, adı mürəkkəb quruluşlu fitotoponimdir. Toponim türk mənşəli tal ilə in sözlərinin birləşməsindən əmələ gəlib. Tal sözü türk dilində söyüd / söyüd kolu, in isə daxma / koma / mağara mənalarını bildirir. Adı erməniləşdirilərək Araqatsotn olub.

**Şörəyel mahalı** Şörəyel / Şürəyel sultanlığının ərazisini təşkil edirdi. İrəvan quberniyasının Şirakel nahiyəsində eyni adı daşıyan kəndin olduğu məlumdur. Həmçinin kəndin bir digər adı Boğazkəsən olub. Türk mənşəli toponim insan boğazı formalı yer / dar keçid mənalarını bildirir. Adı erməniləşdirilərək Şirak olub.

**Ağbaba mahalı** adını Türkiyə ilə sərhəddə yerləşən eyni adlı dağdan alıb ki, o da ərazidə yerləşən pirin adından götürülüb. Toponim اباب یخا [əxi baba] ifadəsinin təhrif edilmiş formasıdır. Ermənilər buranı Şiraka çeviriblər.

**Sərdarabad mahalı** sərdar – dövləti, vilayəti idarə edən hakim və abad (hazırda ifadə etdiyi məna ilə eynidir) sözlərinin birləşməsindən əmələ gəlməklə sərdarın abad etdiyi / sərdarın saldığı kənd / sərdarın əsasını qoyduğu kənd mənalarını bildirir. Öz növbəsində sərdar – İrəvan xanının adını ifadə edirdi. 1935-ci ildə toponim Oktemberyan olaraq erməniləşdirilib.

**Dərəçiçək mahalının** adı ərazidə yerləşən eyni adlı dərədən götürülüb. 1935-ci ildə mahalın ərazisində yerləşən Eşşək quduran, Əlipapaq, Qonaqgörməz toponimləri erməniləşdirilib, 1946-cı ildə Dərəçiçək adı Tsakadzor, 1959-cu ildə isə Hrazdan olaraq dəyişdirilib.

**Pəmbək mahalı** qədim türk dillərində dar keçid mənasını bildirən paam / baam ilə təpəlik / zirvə məhfumunu ifadə edən bak / bək hissəciklərinin birləşməsindən əmələ gəlib. Toponim dar keçid yanındakı təpəlik / yüksəklikdə olan kənd mənalarını bildirir. Mahal ərazisindən eyni adlı çayın axdığını nəzərə alan bəzi tədqiqatçılar bu oykonimi hidrotoponim olaraq qəbul edir. Adı Lori olaraq erməniləşdirilib.

**Loru mahalı** Borçalı nahiyəsinin dağlıq cənub hisssəsində yerləşdiyindən Dağ Borçalı olaraq adlandırılıb. 1918-ci ildə ermənilərin hücumu, 1922-ci ildə isə bolşevik hökumətinin qərarı ilə ilhaq edilib.

Ermənilərin adlarına "düzəliş" etdiyi İrəvan xanlığının mahalları, toponimlərinin leksik-etimoloji təhlili onların türk yurdu olduğunu sübuta yetirir. Haylar tərəfindən adları dəyişdirilsə də, istər tarixi qaynaqlar, istərsə də qoyulan saxta adların gerçəkliklə bağlılığının, tarixi kökünün olmaması İrəvan torpağının əsl sahiblərinin azərbaycanlılar olduğunun sübutudur.

***Elnurə HÜSEYNOVA,***
***AMEA Dilçilik İnstitutunun***
***böyük elmi işçisi, fəlsəfə doktoru***



# Qayıdışın "sülh dəhlizi"

**Azərbaycan türklərinin aborigen sakinlər kimi Qərbi Azərbaycana geri dönüşü ideyası cəmiyyətimizdə həmişə olub. Bu ideyanı konsepsiya halına gətirmək üçün 2000-ci ildə Azərbaycan ziyalıları təşəbbüs göstərdilər. Bu işi indi Qərbi Azərbaycan İcması planlı şəkildə davam etdirir. Kim bu istiqamətdə, xırda da olsa, bir iş görürsə, təqdir edilməlidir. Hay mediasını mütəmadi izləyirəm, hazırda Ermənistanda ən çox ehtiyat edilən məsələ məhz budur. Azərbaycanlıların doğma yurdlarına qayıdışını Ermənistan dövləti üçün təhlükə sayanlar var. Amma ağlı başında olan, praqmatik düşünən ermənilər geri dönüşün, ilk növbədə, özləri üçün faydasnı da dilə gətirirlər.**

Ermənistan kimi iqtisadi və demoqrafik cəhətdən perspektivi olmayan, gündən-günə həyat şəraitinin ağırlığından ölkəni tərk edənlərin sayının artdığı bir ölkəyə yeni nəfəs, yeni enerji, yeni güc gərəkdir. Bu şansı onlara Ermənistanın tamhüquqlu vətəndaşına çevriləcək soydaşlarımız verə bilər. Bunun nəyi pisdir? Bir də ki, geri dönüşlə bu torpaqların əsas sakinlərinin yaşayış haqqı tanınmış olacaq.

Hələlik, şəraitin yetişməməsi səbəbindən dünyada gedən proseslərə görə, geri dönüş bir qədər ləngiyə bilər. Təhlükəsizlik baxımından da bu prosessin aparılmasında ortaya çıxacaq problemlər aradan qaldırılmalıdır. Ermənistan bu insanların təhlükəsiz yaşamasına təminat verməlidir. Şübhəsiz, bunların hamısı sülh sazişinin imzalanmasından sonrakı danışıqların predmeti olacaq. Amma bu ideyanın daim gündəmdə saxlanılması və gələcəyə daşınması çox önəmlidir.

Bir maraqlı məsələyə də toxunmaq istərdik. Ermənistan baş naziri hər dəfə çıxış edəndə orijinal görünmək istəyir, "xoruz səsi eşitməmiş məsələlər" ortaya ataraq gündəmi dəyişməyə çalışır. Bəzən elə məsələlərdən danışır ki, onlar erməni cəmiyyətini maraqlandırmasa da, yeni müzakirələrə səbəb olur. Paşinyan qəliblənmiş ictimai-siyasi proseslərə yeni yanaşma gətirir. Amma hərdən mənasız fərziyyələrin içərisinə "daxil etdiyi" ciddi mövzuları qabartmaqla diqqəti əsas məsələlərdən yayındırmağa çalışır. Hətta çeşidli problemlərə fərqli yanaşmanın ortaya çıxmasına səbəb olur.

"Gerçək Ermənistan", qondarma "erməni soyqırımı", Ermənistanın atributları, tarixi hadisələrə münasibət və s. məsələlərdə Paşinyan sərt tənqid olunsa da, cəmiyyəti "silkələməyi" bacarır. Danışdıqlarında hərdən özünü təkzib etməsi də qəbuledilləndir. Bu cür ritorika hədəfə çatmaq üçündür və siyasi mübarizədə məqbul fəaliyyət kimi qəbul olunur. Paşinyanın sonuncu mətbuat konfransı 4 saatdan çox davam elədi. Açıq görünürdü ki, həmin gün o, 2026-cı ildə keçiriləcək seçkilərdə qalib gəlməyin təməllərini yaradır. Bunu da uğurla edir.

Nikol Paşinyan bu gün "Zəngəzur dalanı"nda ilişib qalıb. Son brifinqdə nala-mıxa vurmağa başladı və belə bir təəssürat yarandı ki, 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatın 9-cu bəndində nəzərdə tutulan Azərbaycandan Azərbaycana (Naxçıvana) maneəsiz keçidi İran ərazisində ehtimal olunan variantla müqayisə edərkən deyir ki, bu məsələdə problem yoxdur. İranın təklif etdiyi variant bizim üçün də məqbuldur.

Maneəsiz keçid Azərbaycan ərazisindən keçəcək bütün kommunikasiyalara aiddir. Guya, ortaya atdığı və heç kəs tərəfindən ciddiyə alınmayan "sülh kəsişməsi" elə bunu nəzərdə tutur. İran variantındakı şərtlər Ermənistan üçün də məqbuldur deyir. Bu fikri ona görə deyir ki, Azərbaycanın yeni seçim edəcəyindən qorxur. Paşinyanın bu çıxışından sonra erməni mütəxəssislər, onun təbliğatçıları faydalı dəhlizdən, tranzit gəlirlərindən və Ermənistanın buradan hər il 4–5 milyard gəlir götürəcəyindən bəhs etməyə başlayıblar. Bəli, bu məsələdə İrəvanın mövqeyindəki yumşalma qeyd edilməlidir.

Əlbəttə, elə yuxarıda bəhs etdiyimiz Qərbi Azərbaycana qayıdışın məhz "sülh dəhlizi"ndən keçəcəyi birmənalıdır. Son vaxtlar erməni politoloqlar ondan danışmağa başlayıblar ki, Zəngəzur dəhlizinin açılmasına Ermənistan deyil, İran maneçilik törədir. Baş nazirin mətbuat konfransında keçidlə bağlı "xırdaladığı" nüanslardan sonra Ermənistan mediası bu yolun tezliklə açılacağı fikrini önə çıxarır. Paşinyan yeni təkliflə Azərbaycana üz tutubsa, Bakı İrəvanın bu məsələdə konstruktiv yanaşmasını dəyərləndirəcək. Bu, şübhəsiz ki, sülh danışıqlarının uğurla nəticələnməsinə də yardımçı ola bilər.

Rəsmi İrəvan Qarabağı faktiki olaraq Azərbaycan ərazisi elan etsə də, hayların bu ərazidən gözlərini tamamilə çəkmədiyi məlumdur. Ermənipərəst "kollektiv Qərb" hansı şəkildəsə Qarabağı könüllü tərk etmiş erməniləri geri qaytarmağa çalışır. Bu təşəbbüslər onu göstərir ki, bölgədə münaqişə ab-havasının, gərginliyin qalması Ermənistanı yeni müharibəyə sövq edə bilər. Üstəlik, erməni cəmiyyətinin daşnak düşüncəli radikal kəsimində revanşizm xəyalları asanlıqla yox olmayacaq.

Dövlət olaraq Ermənistan öz təhlükəsizliyini bəhanə gətirərək silahlanacaq və ona bu işdə həvəslə yardım edən ölkələr var. İndi Ermənistanı Fransa və Hindistan silahlandırır. Sabah başqa ölkələr də ola bilər və militarizmin qarşısını almaq üçün xüsusi beynəlxalq mexanizmi tətbiq etmək mümkün deyil. Ermənistan, əlbəttə ki, Azərbaycana qarşı silahlanır. Bunu bildiyimizdən önləyici tədbirləri özümüz almalıyıq.

Zəngəzur dəhlizi məsələsinə qayıdaraq onu da qeyd etməliyik ki, Türkiyə də, Azərbaycan da bu yolun açılmasının həyati əhəmiyyətini, bölgə ölkələrinin inkişafına təkan verəcəyini yaxşı bilirlər. Prezident İlham Əliyev bu dəhlizin açılması ilə bağlı qərarlı fikirlərini bütün dünyaya bəyan edib. Türkiyə liderinin Azərbaycana gözlənilən səfərindən sonra, şübhəsiz ki, bizim hesablamadığımız bəzi sürpriz addımlar atıla bilər.

***Qafar ÇAXMAQLI,***
***"Xalq qəzeti"nin Türkiyə müxbiri***

# Ermənilərin Qərbi Azərbaycanda vandallıq aksiyaları

**1988-ci ildən bəri Azərbaycana qarşı düşmənçiliyi, işğalçılığı və vandallığı açıq dövlət siyasəti səviyyəsində həyata keçirmiş Ermənistan Qarabağla yanaşı, yerli əhalisini son nəfərinədək deportasiya etdiyi Qərbi Azərbaycanda xalqımızın çoxəsrlik mövcudluğunun izlərini yox etmişlər.**


Əlidərə kəndi


Şinuayr kəndi


Xot kəndi

AMEA Tarix və Etnologiya İnstitutunun əməkdaşı Faiq İsmayılovun davamlı araşdırmalarında qonşu ölkənin bu misilsiz vandallıq aksiyaları əhatəli yer tutur. Tədqiqatçı "Zəngəzur abidələri ermənilər tərəfindən kütləvi şəkildə məhv edilir" adlı növbəti yazısında bildirir ki, Ermənistan hakimiyyəti soydaşlarımızın qovulduqları tarixi torpaqlarımızda məqsədyönlü şəkildə həm etnik, həm də mədəni soyqırımı siyasəti aparmaqla bu ərazilərin tarixi və əzəli sakinləri olan azərbaycanlıların izlərini silməyə çalışmış, xalqımızın mədəni irsini talamış, dağıtmış, özününküləşdirmişdir. Onlar bu düşmənçiliklə tariximizə və mədəniyyətimizə sağalmaz yaralar vurmuşlar.

Tarixçi göstərir ki, indiki Ermənistanın bütün ərazilərində qədim toponimlər artıq çoxdan erməni adları ilə əvəzlənib. 1988-ci ildən başlanan etnik təmizləmə nəticəsində 250 min azərbaycanlının əmlakı və xalqımızın mədəni irs nümunələri mənimsənilib. İndiki Ermənistan ərazisində vandallar Azərbaycana məxsus 3 min 500 tarix və mədəniyyət abidəsini, 500 qəbiristanlığı, 391 məscidi dağıdaraq tamamilə yox ediblər.

Ermənistanın siyasi rəhbərliyinin göstərişi ilə təkcə Qərbi Zəngəzurun Qafan, Mehri, Xot, Şinuayr, Əlidərə yaşayış məntəqələrində dağıdılmış 900-dən çox tarix və mədəniyyət abidəsinin xarabalıqları bu gün də qalmaqdadır. Bu məntəqələri müşahidə edəndə adama elə gəlir ki, sanki, burada cəhənnəmlə cənnətin mübarizəsi gedib. Bu kəndlərdə ermənilər 900-dən çox tarix və mədəniyyət abidəsini məhv ediblər. Bunlar yaşayış evləri, məscidlər, alban dövrü bazilika və sovməələr, bədii daş nümunələri, qəbirüstü abidələr, qəbir daşları, at-qoç fiqurları kimi maddi mədəniyyət irsimizdir.

Faiq İsmayılov 1988–1990-cı illərdə Ermənistan millətçilərinin yer üzündən sildikləri Xot, Şinuayr və Əlidərə kəndlərinin xarabalıqlarının mənzərəsini də XQ-yə təqdim edib.

***T.RÜSTƏMLİ***
***XQ***

# Qardaş xalqların birlik körpüsü

***Müsahibimiz Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktoti Raimkulovadır***




**Geniş və çoxşaxəli fəaliyyət göstərən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu (TMİF) türk xalqlarının maddi-mənəvi "xəzinə"sinin qorunması, tədqiqi, təbliğini həyata keçirir. Bu təşkilat ortaq tariximizin, mənəvi dəyərlərin unudulmaması istiqamətində mühüm işlərə imza atır: elmi konfranslar, sərgilər, nəşrlər və s. kimi layihələr həyata keçirir. Mənzil-qərargahı Bakıda yerləşən fondun hazırkı prezidenti Qazaxıstan Respublikasının Əməkdar Xadimi, professor, sənətşünaslıq doktoru, bəstəkar Aktoti Raimkulovadır. Onunla müsahibəni təqdim edirik.**



**– Aktoti xanım, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu necə yaranıb?**

– Fondumuzun yaradılması ilə bağlı ilk təşəbbüs 2009-cu il oktyabrın 3-də Azərbaycan Respublikasının Naxçıvan şəhərində keçirilmiş Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısında irəli sürülüb və yüksək dəyərləndirilib. 2012-ci il avqustun 23-də fondun nizamnaməsi qəbul edilib. O zamandan etibarən fond qardaş xalqların birlik körpüsü kimi çox işlər görüb və özünü doğruldub.

**– Artıq tarixə çevrilmiş 2024-cü il də fondun həyata keçirdiyi mühüm layihələrlə yadda qalıb...**

– Elədir. Eyni zamanda, Türkmənistan və Özbəkistan da ötən il fonda üzv olmaq barədə qərarlarını açıqladılar. Bu il isə fond daha geniş aspektdə fəaliyyətdədir. Fondun 12 illik fəaliyyəti dövründə ilk dəfə olaraq ötən il Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimlinin sədrliyi ilə Türk dövlətlərinin mədəniyyət nazirliklərinin rəhbərləri səviyyəsində ilk Şura iclası keçirildi. İclas zamanı fondun 2025-ci il üçün fəaliyyətinin strateji istiqamətlərinin müəyyən edilməsi ilə bağlı müzakirələr aparıldı, fəaliyyət planı təsdiq edildi, Fondun nəzdində Məsləhət-Ekspert Komitəsi yaradıldı.

Qurum 2024-cü il ərzində "Türk İrsi" Türk Dünyasının Mədəni İrs Obyektləri Kataloqunun hazırlanması üzərində fəal işə başlamışdır. Belə ki, Türk dünyasının bir sıra mühüm memarlıq abidələri və qədim əlyazmalarının dirçəldilməsi məqsədilə onların üzərində bərpa və muzeyləşdirmə işləri aparılır. Növbəti illərdə Azərbaycanın Qarabağ bölgəsində yerləşən bir sıra tarixi-mədəni abidələrdə bərpa, muzeyləşdirmə, arxeoloji və konservasiya işlərinin həyata keçirilməsi də planlaşdırılır.

**– Heç şübhəsiz ki, fəaliyyətin bir mühüm qolu da maarifləndirmədir. Bu yöndə hansı işlər görülüb?**

– Fond indiyədək Türk dünyasının görkəmli şəxsiyyətləri və ədəbiyyat inciləri barədə müxtəlif kitabların nəşrinə imza atıb. Bu kitabların hazırlanmasında türk tədqiqatçıların, mütəxəssislərin cəlb olunmasına xüsusi diqqət yetirilir. Fondun həyata keçirdiyi təhsil proqramlarında da üstünlük yüksək səviyyəli mütəxəssislərə verilir.

Fondun təşəbbüsü ilə Türk dünyasının bir çox şəhərində, təhsil müəssisəsində ortaq tarixin və dəyərlərin araşdırılmasına, öyrənilməsinə, gələcək nəslə ötürülməsinə dair mərkəzlər də açılıb. 2025-ci ildə bu cür mərkəzlərin Yusif Balasaqunlu adına Qırğızıstan Milli Universitetində, Əl-Fərabi adına Qazax Milli Universitetində, həmçinin Azərbaycan, Türkiyə, Türkmənistan, Özbəkistan və Macarıstanda açılması nəzərdə tutulur.

TMİF öz fəaliyyətində müasir yeniliklərə və dövrlə səsləşən texnologiyalara da qucaq açır. Türk dünyasının maddi-mənəvi irsindən, qədim adət-ənənələrindən və milli dəyərlərindən bəhs edən proqramların, sənədli filmlərin yayımlandığı "Turk Discovery" YouTube platforması da fondun layihəsidir. Milli bayramlar, qurama-tikmə, toxuculuq, ipəkçilik, misgərlik, milli geyimlər; platformada bu cür – Türk dünyasına aid sənət və sənətkarlıq ənənəsi ilə bağlı proqramların yayımlanması zamanla daha da geniş vüsət alacaq. Vurğulamaq yerinə düşər ki, ortaq türk musiqisi də TMİF-in tədqiq və təbliğ obyektlərindəndir.

Beynəlxalq layihələrdə uğurla iştirak edən fondun elmi fəaliyyəti də təqdirəlayiqdir. Nümunə olaraq, 13 dekabr 2024-cü ildə Parisdə keçirilən "Dünyanın leksikoqrafiyada xəritələşdirilməsi: "Divanü Lüğat-it-Türk"ün 950-ci ildönümü" adlı beynəlxalq konfransı göstərmək olar. Bəli, Türk tarixinin bu ortaq dəyərinin dünyada fundamental və mühüm əsərlərdən biri kimi tanınması da fondun fəaliyyət uğurlarındandır.

**– Media meqalayihələri necə həyata keçirilir?**

– Bu il TMİF-in ən böyük layihələrindən biri də Türk dövlətləri və xalqlarının mədəniyyətinin və irsinin vahid təbliğat platformasının işə salınmasıdır. "Qızıl alma" adlanan bu platformanı fond Azərbaycanın mədəniyyət sahəsində ən böyük media resurslarından olan "Ədəbiyyat və incəsənət" portalı ilə birgə həyata keçirir. Layihə özündə fondun fəaliyyətini türk dövlətləri və türkdilli xalqlara çatdırmaq, türk dünyası mədəniyyət xəbərlərini hər bir xalq üçün əlçatan etmək, türklərin ortaq mədəniyyətini və irsini geniş təbliğ etməkdən ibarətdir.

Hazırda platforma Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistan təmsilçiliyinə malikdir, tədricən bura Macarıstan və Türkmənistan da daxil ediləcək. Növbəti mərhələdə isə platforma ingilis, rus və digər beynəlxalq dillərdə bütün dünya üzrə fəaliyyətini genişləndirəcəkdir.

**– Nizamnaməyə əsasən, 2025-ci ildə fondun Şurasına sədrlik Qazaxıstan Respublikasına keçib.**

– Bəli. Fevralın 7-də Astanada Qazaxıstan Respublikasının sədrliyi və təşkilata üzv dövlətlərin mədəniyyət nazirliklərinin iştirakı ilə Türk Mədəniyyəti və İrsi Fondunun ikinci Şura Toplantısı keçirildi. Mən orada Türk dövlətləri başçılarının göstərişinə əsasən, "Türk Dünyasına Baxış 2040" sənədi və TURKTIME təşəbbüsünün rəhbərliyi altında türk mədəni irsinin dünya arenasında qorunması, inkişaf etdirilməsi və gələcək nəsillərə ötürülməsi sahəsində təşkilatın strateji istiqamətləri barədə məlumat verdim. Qazaxıstan Respublikasının mədəniyyət və informasiya naziri Aida Balayevanın sədrliyi altında keçirilən toplantıda Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Ömüraliyev, Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli, Qırğız Respublikasının mədəniyyət, informasiya, idman və gənclər siyasəti nazirinin müavini Gülbara Abdıkalıkova və Türkiyə Respublikasının Qazaxıstan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mustafa Kapucu, eləcə də Türk ölkələri dövlət orqanlarının nümayəndələri iştirak edirdilər.

**– Aktoti xanım, bu barədə bir qədər ətraflı məlumat verərdiniz...**

– Məmnuniyyətlə. Onu məxsusi qeyd edim ki, Astanada keçirilən Türk Mədəniyyəti və İrsi Fondunun ikinci Şura Toplantısının yekunu olaraq təşkilata üzv ölkələrin nümayəndələri tərəfindən fondun 2024-cü il üçün fəaliyyətinin yüksək qiymətləndirilməsi, təşkilatın 2025–2026-cı illər üçün Fəaliyyət Planlarının təsdiq edilməsi barədə Protokol imzalandı.

Ümumiyyətlə, toplantı geniş və rəngarəng mədəniyyət proqramı ilə də diqqət çəkib. Fevralın 6-da Qazaxıstan Respublikasının Milli Akademik Kitabxanasında Qazaxıstanın dövlət və elm xadimi, akademik Darxan Qıdıralının "Daşa yazılmış tarix" adlı kitabının Azərbaycan, türk, qırğız dillərində təqdimatı olub və bildirilib ki, bu kitab Türk dünyası tarixinin öyrənilməsinə mühüm bir töhfədir. Türk xalqlarının tarixinə və mədəniyyətinə dərindən bələd olan müəllif təkcə mütəxəssislər üçün deyil, geniş oxucu kütləsi üçün də maraqlı olacaq bir əsər ərsəyə gətirib. "Daşa yazılan tarix" xalqlarımızın şanlı keçmişinin, kökümüzün, ümumi mədəniyyətimizin canlı hekayəsidir və irsimizi qiymətləndirməyi və hörmət etməyi, əcdadlarımızla fəxarət duymağı öyrədən bir tarixdir.

Həmin gün E. Rəhmədiyev adına Dövlət Akademik Filarmoniyasında Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən türk xalqlarının "Tamyr" adlı konserti də keçirilib. Səhnədə "Turan" Folklor-Etnoqrafik Ansamblı, "Gulder" Ansamblı, "Saltanat" Dövlət Rəqs Ansamblı, K. Kuanışbayev adına Qazax Milli Musiqili və Dram Teatrının kollektivi və E. Rəhmədiyev adına Dövlət Akademik Filarmoniyasının kollektivi çıxış ediblər. Bu tədbir həm də türk dövlətlərinin sənət ənənələrinin beynəlxalq arenada təbliğinə töhfə verib.

Fevralın 7-də Şura Toplantısı çərçivəsində "Divani lüğat it-türk" adlı beynəlxalq sərginin açılış mərasimi də yaddaqalan olub. Sərgi XI əsrin görkəmli türk alimi və mütəfəkkiri Mahmud Kaşğarinin "Divani lüğat it-türk" əsərinin 950 illiyinə həsr olunub. Bu möhtəşəm sərgi çərçivəsində türk xalqlarının zəngin mədəni irsini, dil və ədəbiyyatını əks etdirən nadir eksponatlar, tarixi əlyazmalar və türklərin XI əsrə aid mədəni quruculuq aspektinə diqqət çəkən əşyalar təqdim edilib.

Xatırladaq ki, "Divanü lüğat-it türk" əsərinin yaranmasının 950 illiyi münasibətilə, eləcə də sözügedən əlamətdar hadisənin 2024–2025-ci illərdə UNESCO çərçivəsində qeyd olunacaq yubileylər siyahısına daxil edilməsi ilə əlaqədar Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən 13 dekabr 2024-cü il tarixində Parisdə, UNESCO-nun mənzil-qərargahında "Dünyanın leksikoqrafiyada xəritələşdirməsi: "Divani lüğat-it türk" əsərinin 950 illik yubileyi" adlı beynəlxalq konfrans və sərgi təşkil olunub.

**– Maraqlı müsahibə üçün sağ olun. Türk Mədəniyyəti və İrsi Fondunun bütün yaradıcı heyətinə və tərəfdaşlarına uğurlar arzulayırıq.**

***Müsahibəni hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ötən ilin yekunlarına və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilib. Qurumun sədri Bahar Muradova dövlətin ailə, qadın və uşaq siyasətinin həyata keçirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində ötən müddətdə mühüm işlərin görüldüyünü qeyd edib. O, həyata keçirilən tədbir və layihələr, hazırlanan təhlillər və əldə olunan nəticələrlə bağlı statistik göstəriciləri diqqətə çatdırıb.**

B.Muradova müvafiq qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində 8 sənəd layihəsinin təsdiq edildiyini, komitəyə daxil olan 12 sənəd layihəsinə rəy və təkliflər verildiyini, 31 fərman, dövlət proqramı, strategiya və milli fəaliyyət planının icra edildiyini, 4 müxtəlif mövzuda hesabat və təhlilin hazırlandığını vurğulayıb.

Vətəndaş cəmiyyəti institutları, kütləvi informasiya vasitələri ilə səmərəli əməkdaşlığın qurulduğu vurğulanıb, bu əlaqələrin uğurla davam edəcəyinə əminlik ifadə edilib. Media nümayəndələri tərəfindən daxil olan 198 müraciətin təmin edildiyi, jurnalist və blogerlərin iştirakı ilə təlim proqramlarının, media turların təşkil olunduğu bildirilib.

# Dövlətin ailə, qadın və uşaq siyasətinin növbəti uğurları



COP29 çərçivəsində "Uşaqlar, gənclər və iqlim fəaliyyəti" mövzusu üzrə dəyirmi masa, "İqlim dayanıqlılığı və sülh quruculuğunda gənclərin liderliyi" və "Şəffaflıqda gender" mövzularında keçirilən yüksək səviyyəli tədbirlərdən bəhs edən sədr İslam Elm, Təhsil və Mədəniyyət Təşkilatı (İCESCO) və Dövlət Komitəsi arasında əməkdaşlığa dair niyyət protokolunun imzalandığını da qeyd edib.

Dövlət Komitəsinin təşkilatçılığı ilə həyata keçirilən tədbirlər arasında 8 Mart Beynəlxalq Qadınlar Gününə, "Ekologiya və uşaqlar" mövzusuna həsr olunmuş Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumu, "Ailə–dəyişməyən dəyərimiz" mövzusunda Gənc Ailə Forumu haqqında məlumat verilib. "Ailəm könüllüləri" layihəsi, "Güclü cəmiyyətin zərif simaları", "Sən tək deyilsən", "Gənc qızların təhsilinə dəstək", "Çempion ailələr", "Mənim hüquqlarım" adlı təşviqat avtobusu, "Uşaqdan-uşağa" kimi layihələr də uğurla gerçəkləşdirilib.

2024-cü il ərzində uşaq və ailələrə dəstək mərkəzlərinin xidmətlərindən 25 min 354 nəfərin bəhrələndiyi, 890 ailəyə səfərlər təşkil edildiyi və 10 "Açıq qapı" günü keçirildiyi qeyd edilib. Ötən il komitəyə 3628 vətəndaş müraciətinin daxil olduğu, 12 region üzrə qəbullar keçirildiyi də bildirilib.

İclasda məişət zorakılığının qarşısının alınması ilə bağlı görülən işlər haqqında da məlumat verilib. B. Muradova ötən il bu istiqamətdə komitəyə 594 müraciətin daxil olduğunu bildirib və əlavə edib ki, 2020-ci illə müqayisədə son 5 il ərzində məişət zorakılığı ilə bağlı daxil olan müraciətlərin sayı 3,3 dəfə artıb.

Komitə sədrinin müavini Sədaqət Qəhrəmanova gender məsul şəxslərin fəaliyyətinin gücləndirilməsinin və bələdiyyələrə yeni seçilmiş qadınlara istiqamətlənən təlimlərin keçirilməsinin və gender komissiyalarının fəaliyyətinin genişləndirilməsinin əhəmiyyətindən söz açıb.

Sonra Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova dövlətin ailə, qadın və uşaq hüquqları istiqamətində siyasətinə uyğun olaraq, Naxçıvanda həyata keçirilən tədbir və layihələr barədə məlumat verib.

2025-ci ilin birinci yarısı üçün qarşıda duran vəzifələrə dair təqdimatla çıxış edən aparat rəhbəri Ceyran Rəhmətullayeva "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilməsi nəzərdə tutulan tədbirlər, ailələrin gücləndirilməsi və sağlam ailələrin formalaşmasına yönələn layihələr, qadın və uşaq hüquqlarının qorunması, beynəlxalq əməkdaşlığın gücləndirilməsi, uşaq iştirakçılığının artırılması, məişət zorakılığının qarşısının alınması, gender bərabərliyinin təmin edilməsi və digər mühüm fəaliyyət istiqamətləri üzrə görüləcək işləri diqqətə çatdırıb.

Dövlət Komitəsinin hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimovanın komitə yanında məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qrupunun yaradılması ilə bağlı çıxışı dinlənilib.

Sonda müzakirə edilən məsələlər üzrə qərarlar qəbul edilib.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Sloveniya heyəti ilə görüş



**Sloveniya Respublikasının Xarici və Avropa İşləri Nazirliyinin dövlət katibi Marko Ştuçinin başçılıq etdiyi nümayəndə heyəti Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində olub.**

Görüşdə nazir müavini, Azərbaycan–Sloveniya Birgə İşçi Qrupunun ölkəmiz tərəfindən rəhbəri Anar Kərimov Sloveniya ilə dostluq, qarşılıqlı hörmət və faydalı əməkdaşlığa əsaslanan ikitərəfli münasibətlərin inkişafına xüsusi önəm verildiyini qeyd edib. Yüksək səviyyəli qarşılıqlı səfərlərin və davamlı siyasi dialoqun iki ölkə arasında əlaqələrin inkişafında xüsusi önəmi diqqətə çatdırılıb. Azərbaycan–Sloveniya Birgə İşçi Qrupunun fəaliyyətinin ikitərəfli əlaqələrin genişlənməsinə xidmət etdiyi bildirilib. Ölkəmizdə son illər əmək, məşğulluq, sosial müdafiə sahələrində aparılan islahatlar və əldə olunan nailiyyətlər, dünyanın qabaqcıl təcrübələri sırasına daxil edilən DOST Konsepsiyası, sosial xidmətlərin geniş miqyasda elektronlaşdırılması proqramının uğurları barədə məlumat verilib.

M.Ştuçin Azərbaycanda səfərdə olmalarından məmnunluğunu, ikitərəfli əlaqələri dərinləşdirilməkdə maraqlı olduqlarını, sosial sahədə də təcrübə mübadilələrinin aparılmasının qarşılıqlı faydalı ola biləcəyini qeyd edib.

Görüşdə ikitərəfli əməkdaşlığın gündəliyinə, iqtisadi-ticarət əlaqələrinin, investisiya əməkdaşlığının genişləndirilməsinə, əmək, məşğulluq və sosial müdafiə sahələrində də əlaqələrin inkişaf etdirilməsi imkanlarına dair fikir mübadiləsi aparılıb.

***Z.HÜSEYNOVA***
***XQ***

## SOSİAL XƏBƏRLƏR

### 3,9 min əlillik təyinatı

**Ötən ay Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən 3 min 900 şəxsə əlillik təyin edilib.**

Onlardan 1,7 min nəfərə ilkin, 2,2 mininə isə təkrar əlillik təyinatı aparılıb. Əlillik təyinatından sonra e-sistem üzərindən həmin şəxslərə əlilliyə görə proaktiv qaydada sosial ödənişlər – pensiya, müavinət və təqaüd təyin olunub.

### 1129 uşağa sosial xidmət

**Sosial Xidmətlər Agentliyi hazırda 1129 uşağa sosial xidmətlər göstərir. Onlardan 773 nəfəri stasionar, 356 nəfəri isə yarımstasionar formada sosial xidmətlərlə əhatə olunub.**

Bu xidmətlərə agentliyin əlilliyi olan uşaqlar üçün və psixonevroloji sosial xidmət müəssisələrində, Əlilliyi olan şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzi və uşaq evlərində, sosial xidmət mərkəzlərində və digər müəssisələrdə göstərilən xidmətlər daxildir. Müasir yaşayış və reabilitasiya şəraitinə malik olan həmin müəssisələrdə hər uşaqla bağlı fərdi inkişaf planı tərtib edilməklə sosial iş aparılır və sosial dəstək tədbirləri həyata keçirilir.

### Fevral ayının pensiyaları yeni artımlarla birgə ödənilib

**Dövlət Sosial Müdafiə Fondu tərəfindən Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu üzrə fevral ayının pensiyaları ödənilib.**

1 yanvar 2025-ci ilədək təyin edilmiş bütün növ pensiyalar ilin əvvəlindən 8,1 faiz indeksləşdirilərək artırılıb, habelə fevralın 1-dən minimum pensiya 280 manatdan 320 manata çatdırılıb. Fevral ayının pensiyaları yeni artımlarla birgə ödənilib. İndeksləşdirmə üzrə yanvar ayının artımı fevral ayının pensiyasına əlavə olunub.

Respublikamızın digər bölgələri üzrə, habelə güzəştli şərtlərlə pensiya hüququna malik şəxslərin pensiyaları da bu ay qrafik üzrə ödəniləcək.

***Z.BAYRAM***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 33 (30727) 14 fevral 2025-ci il, cümə

İdman

## Azərbaycan şahmatının bürüncü bəlli olub



**Şahmat üzrə Azərbaycan çempionatında bürünc mükafatçı müəyyənləşib.**

Teymur Rəcəbov səhhətində yaranan problemlə bağlı Azərbaycan çempionatında 3-cü yer uğrunda mübarizəni davam etdirmədiyi üçün onun rəqibi Misrətdin İsgəndərov qalib elan edilib.

Dünən final mərhələsinin ilk oyunları keçirilib. Şəhriyar Məmmədyarov Rauf Məmmədovla heç-heçə edib, Günay Məmmədzadə isə Gövhər Beydullayevaya qalib gəlib. 3-cü yer uğrunda qadınların yarışında isə Ülviyyə Fətəliyeva ilk qarşılaşmada Gülnar Məmmədovanı məğlub edib. Cavab görüşləri bu gün keçiriləcək.

## Taekvondoçularımız 6 medal qazanıblar




**Azərbaycanın yeniyetmə taekvondoçuları Birləşmiş Ərəb Əmirliklərində keçirilən "FujairahOpen" turnirində 6 medal qazanıblar.**

Taekvondo Federasiyasından verilən məlumata görə, bunlardan 2-si qızıl, 1-i gümüş, 3-ü isə bürünc mükafatdır.

Bütün rəqiblərini məğlub edən Elmira Bayrak (41 kq) və Fuad Həsənov (+65 kq) qalib adını qazanıblar. Fidan Muxtarzadə (29 kq) 2-ci, Mədinə Aslanlı (29 kq), Rüqəyya Əliyeva (33 kq) və Elmir Səlimov (53 kq) isə 3-cü yeri tutublar.

## Stolüstü tennisçilərimiz Türkiyə finalında




**Türkiyədə stolüstü tennis üzrə keçirilən "WTT Youth Contender" turnirində finalçılar müəyyənləşib.**

U 15 kateqoriyasında Azərbaycan idmançıları – Onur Quluzadə ilə Yağmur Məmmədli qarışıq-qoşa yarışda həlledici görüşdə iştirak hüququ qazanıblar. Bununla da, özləri üçün minimum gümüş mükafatı təmin ediblər.

Quluzadə – Məmmədli tandemi bu gün keçiriləcək həlledici qarşılaşmada Türkiyə təmsilçiləri ilə üz-üzə gələcək.

Qeyd edək ki, Onur Quluzadə ilə Yağmur Məmmədli yanvarda Dohada keçirilən "WTT YouthStar Contender" yarışının qarışıq-qoşa mübarizəsində bürünc mükafata layiq görülüblər.

*Leyla QURBANOVA*
*XQ*

Azərbaycan Televiziyası Günü

# Milli teleməkanımızın bayraqdarı

## Ölkəmizdə ilk teleyayımdan 69 il keçir




**Düz 69 il əvvəl – 1956-cı il fevralın 14-də respublikamızda ilk dəfə "sehirli qutu"nun işıqlanması ilə televiziya yayımına başlanıb. Texniki hazırlıq işləri tamamlandıqdan sonra – saat 18-də gözəl aktrisa Nəcibə Məlikova efirə çıxaraq məşhur "Diqqət, göstərir Bakı" deyib və ölkədə müntəzəm teleyayıma start verilməsi münasibətilə tamaşaçıları təbrik edib.**

Danışan radionun həm də təsvirlərlə müşayiət olunması əsl möcüzə idi. Mavi ekrandan Mehdi Hüseyn, Süleyman Rüstəm və TV-nin rəhbərlərindən olan Teymur Elçin də xalqa təbriklərini çatdırıblar. Ardınca Sara Qədimovanın qısa muğam konserti olub. Gedişatı izləyən studiya direktoru Ənvər Əlibəyli və onun müavini Hacı Hüseynov, eləcə də kamera arxasında dayanmış mühəndis Sərvər Quliyev, rejissor pultunu idarə edən Kamil Rüstəmbəyov sevincdən qanadlanıblar. Bakının "Mehdi Hüseyn küçəsi, 1" ünvanından pərvazlanan televiziya könülləri riqqətə gətirib. Ertəsi günün efirini o vaxt hələ Əməkdar artist olan Hökumə Qurbanova aparıb. Tamaşaçılara "Bəxtiyar" filmi göstərilib və beləliklə də, Azərbaycan televiziyasının bəxtiyar günləri başlanıb.



İndi sinəsində qürurla "Şöhrət" ordeni gəzdirən mühəndis İsmət Gözəlov o tarixi anların yeganə canlı şahididir. Ömrünün yarım əsrini televiziyaya həsr etdikdən sonra təqaüdə çıxıb. O, televiziyada çalışdığı ilk dövrlərdə burada ailə səadətinə də qovuşub: ilk diktorlardan olan Tamara Gözəlova ilə evlənib və bundan sonra uzun illər fevralın 14-ü onlar üçün ikiqat əziz olub. Çünki elə Tamara xanımın da doğum günü məhz televiziyanın yarandığı günə təsadüf edirdi. Yeri gəlmişkən, bu gün Tamara Gözəlovanın 85 yaşı tamam olur. Onunla bərabər, Azərbaycanın ana televiziyasının ilk diktorları sırasında Gültəkin Cabbarlı, Nailə Mehdibəyova, Sevda Qənizadə, Sara Manafova, Rəna Nəsirova, Rəxşan Aslanova, Sima Xasıyeva və Nizami Məmmədov da rəhmətlə xatırlanırlar. Görkəmli sənət adamları, şair və yazıçılar da orada işləməklə televiziyanın həyatımızın bir hissəsinə çevrilməsini təmin ediblər.

– 1956-cı ilin 14 fevral günü bərk həyəcan keçirsək də, tarix yaza bildik, – deyə İsmət müəllim xatirələrə dalır. – Sonra televiziyamızın inamlı addımları davam etdi. Mən də ailə səadətimi burada tapdım. Rəhmətlik Tamara əvvəl diktor kimi tanınırdı, eyni zamanda, həmin il "O olmasın, bu olsun" flmində Gülnaz rolunu oynadı. Sonra universitetin şərqşünaslıq fakültəsini bitirdi və M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasında şöbə müdiri oldu. Beş il əvvəl dünyasını dəyişənə qədər onunla televiziyalı günlərimizi tez-tez xatırlayırdıq. İndi nə o var, nə də digər məşhur televiziyaçılarımız… 69 yaşlı AzTV-yə sonradan gəlib estafeti layiqincə davam etdirən bütün həmkarlarımızı bu gün münasibətilə təbrik edirəm!

Ötən dövrdə Azərbaycan televiziyası tədricən bədii və texniki baxımdan təkmilləşib, ağ-qara təsvirli mavi ekrandan rəngli ekrana keçilib. Studiya əvvəlcə həftədə 2, sonra 3 dəfə ikisaatlıq proqramla efirə çıxardı. Tamaşaçılar gözlərini ekrandan çəkməz, son xəbərlərdən tutmuş, konsertlərə, hava məlumatına qədər bütün verilişləri izləyərdilər…

Amma televiziyanın qara günləri də olub və unudulmur. 1990-cı ilin "Qanlı şənbə"sindən bir gün əvvəl – yanvarın 19-da saat 19:26-da respublikanın baş xəbər yayıcısının enerji bloku Moskvadan millətimizi cəzalandırmağa göndərilmiş silahlı hərbi dəstələr və SSRİ DTK-nın "Alfa" qrupu tərəfindən partladıldı. Yayımı yalnız yanvarın 28-də bərpa etmək mümkün oldu. Qara kostyumda və qalstuksuz efirə çıxan diktor Rafiq Hüseynov hərbi təcavüz və 138 dinc sakinin qətlə yetirilməsi ilə bağlı xalqımıza başsağlığı verdi. Həmin 9 günlük "fasilə" istisna olmaqla, televiziya 69 ildir ki, evlərimizin sevimli sakini, ailələrimizin bir üzvüdür. Bu gün artıq ölkəmizdə digər peşəkar televiziya kanalları da fəaliyyət göstərir. 2005-ci ildən 24 saatlıq fasiləsiz yayıma keçmiş "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC isə milli efir məkanımızın flaqmanı missiyasını layiqincə davam etdirir.

Yaşlı soydaşlarımız yaxşı xatırlayarlar: ilk onilliklərdə milli televiziyada "Evrika", "Təbiəti sevənlər", "Səhər görüşləri", "Komediyalar aləminə səyahət", "Dalğa", "Günün ekranı", "7 Gün", "Kinoklubda görüş", "Retro", "Qoşma", "Tələbə klubu", "Çay dəstgahı" kimi proqramlar böyük populyarlıq qazanmışdı. Bura həm də, bir növ, musiqi sənəti məbədgahı idi: ansambllar, xor kollektivləri, simfonik orkestr və sair AzTV-nin nəzdində yaradılıb və çoxsaylı parlaq ulduzların "start" meydanı olub.

Yeri gəlmişkən, bu gün 100 yaşı tamam olan dirijor, Xalq artisti, SSRİ Dövlət mükafatları laureatı, professor Nazim Rzayev Azərbaycan televiziyası və radiosunun kamera orkestrinə uzun müddət rəhbərlik edib. Bu orkestrin ifasında Üzeyir Hacıbəylinin "Sənsiz" romansı, Qara Qarayevin "Yeddi gözəl" və "İldırımlı yollarla" baletlərindən rəqs kompozisiyaları daim tamaşaçılara mənəvi zövq aşılayıb. Nazim Rzayev rəhbərlik etdiyi kamera orkestri ilə keçmiş ittifaqın bir sıra şəhərlərində, xarici ölkələrdə uğurlu qastrol səfərlərində olub, həm də təcrübəli pedaqoq kimi Azərbaycan Dövlət Konservatoriyasında dərs deyib...

Bu sətirlərin müəllifi ömrünün 20 ilini həsr etdiyi milli televiziyaya hər gəlişində, ilk növbədə, gözləri önündə unudulmazların foto-qalereyası canlanır. Elşad Quliyev, Nahid Hacızadə, Firudin Ağayev, Gəray Fəzli, Babək Hüseynoğlu, Rafiq Hüseynov, Sabir Ələsgərov, Valid Sənani, Hicran Hüseynov və digərləri ilə bağlı xatirələr yada düşür. Bu gün də sıramızda olan, neçə nəsil televiziya işçilərinin yetişməsində bilavasitə əmək sərf etmiş Aydın Əliyev, Ramiz Həsənoğlu, Vasif Babayev, Roza Tağıyeva, Solmaz Həmzəyeva, Şəmistan Nəzirli, Kamran Əliyev ilə arabir görüşür, zəngləşir, hal-əhval tuturuq.

Televiziya milli mədəniyyətimizin, incəsənətimizin inkişafı və təbliğində misilsiz rol oynayır. Bura həm də müstəqil dövlətimizin vizual siyasi salnaməsi yaradılan məkandır. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin hazırkı rəhbərliyi də zaman-zaman pərvəriş tapmış gözəl teleməkan ənənələrini qoruyub saxlayır, milli-mənəvi dəyərlərə ciddi önəm verir.

Bu gün Azərbaycanda ictimai və özəl teleradio şirkətləri də fasiləsiz fəaliyyət göstərir. Ekran-efir məkanı modern texnologiyalarla təchiz olunub və dünyanın qabaqcıl teleradio kompaniyaları ilə bir sırada dura bilir. Ötən ilin noyabrından isə "AnewZ" beynəlxalq televiziya kanalı fəaliyyətə başlayıb. Qlobal informasiya və analitika sahəsində alternativ baxış təqdim edən "AnewZ" həftənin 7 günü, 24 saatlıq yayım formatında dünyaya Qafqaz, Mərkəzi Asiya və Yaxın Şərq regionunun səsini ingilis dilində çatdırır. İndiyədək beynəlxalq media platformalarında az eşidilən və fərqli yanaşmalarla təqdim olunan mövzular Bakıdan bir çox ölkəyə yayımlanır.

Bəli, ən ucqar kənddə belə həyatı televiziyasız təsəvvür etmək mümkün deyil. Təsadüfi deyil ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda da mükəmməl teleradio yayımı ilə bağlı ciddi addımlar atılır. Erməni vandalların tam məhv etdiyi infrastruktur yenidən qurulur. Şuşa şəhəri və ətraf ərazilərdə, Xocavənd, Füzuli, Cəbrayıl, Zəngilanda ümumölkə televiziya kanallarının açıq yayımı və neçə-neçə yerüstü radio yayımçısının proqramları efirə çıxır.

Azərbaycan televiziyasının ildönümü münasibətilə orada çalışan həmkarlarımızı təbrik edirik!

*Ə.DOSTƏLİ*
*XQ*

Sağlamlıq

## Konserv sağlam qida deyil...

**Rusiyalı dietoloq Marina Makişa bəzi konservləşdirilmiş qidaların xərçəngə səbəb ola biləcəyi barədə əhaliyə televiziya ilə xəbərdarlıq edib.**



Bildirilib ki, xarab olmuş, kiflənmiş konservləşdirilmiş məhsulların istifadəsi xərçəngin yaranmasına və inkişafına təkan verə bilər. Bu, konservləşdirilmiş məhsulun qoyulduğu bankalarda qara kif yaranması ehtimalı ilə əlaqələndirilib. Qeyd edilib ki, bu kif bədəndə toplanır və mürəkkəb gedişi və əlverişsiz proqnozu ilə qaraciyərin bədxassəli lezyonu (hepatosellüler xərçəng) yaranmasına səbəb olur. Regionlardan birində xərçəngin həmin növünün yayılmasını təhlil edən tədqiqatçılar bu nəticəyə gəliblər. Onlar araşdırma zamanı qara ciyər xərçəngi ilə qara kif arasında əlaqə tapıblar.

Uzun müddətdən bəri pəhriz həkimi işləyən, bu sahədə böyük təcrübəsi olan Marina Makişa əlavə edib ki, əgər məhsulda, o cümlədən konservlərdə hər hansı kif aşkar edilərsə, o zaman bakteriyaların təsir etdiyi hissənin kəsilməsi və ya çıxarılması kifayət deyil. Belə məhsuldan tamamilə imtina etmək və onu atmaq lazımdır.

*Z.HÜSEYNLİ*
*XQ*

## "Quş qripi" monitorinqləri

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən verilən məlumata görə, quş qripi xəstəliyinə qarşı növbəti epizootoloji monitorinqlər davam etdirilir.**

Agentlik tərəfindən aidiyyəti qurumlarla birgə təşkil edilən monitorinq zamanı ovçuluq təsərrüfatlarının və milli parkların su-bataqlıq, dənizsahili zonalar və digər ərazilərini əhatə etməklə vəhşi quşlara baxış keçirilir.

Qurumdan verilən məlumata görə, xəstəlik törədicisinin aşkar edilməsi məqsədilə vəhşi quşlar ovlanır və bəzi sənaye əsaslı müxtəlif həcmli quşçuluq müəssisələrində, o cümlədən müxtəlif rayonlardakı (şəhərlərdəki) ailə təsərrüfatlarında saxlanılan ev quşlarından diaqnostik nümunələr götürülür.

Epizootoloji vəziyyət və götürülmüş nümunələr barədə məlumatlar müvafiq elektron sistemə daxil ediləcək. Eyni zamanda, monitorinqlərin nəticələri barədə ictimaiyyətə məlumat veriləcək.

*XQ*

HAVA

## Yağış, qar və duman...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 14-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.**

Yarımadanın bəzi yerlərində intensivləşəcəyi ehtimalı var. Şimal-şərq küləyi əsəcək, günün ikinci yarısında şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 2-4° , gündüz 5-7° isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunu, nisbi rütubət 75-85 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti, dağlarda gecə 8-13°, gündüz 0-5° şaxta olacaq. Bəzi dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var.

*Q.QASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3193
SİFARİŞ 324
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00